RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 202 (9657) 17 sentyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın səyləri nəticəsində...

### Bölgəmizdə ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni reallıqlar və status-kvo yaranıb



**Sentyabrın 16-da ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Entoni Blinken Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasının vacibliyini vurğulayaraq, Amerika Birləşmiş Ştatlarının bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib. O, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə edilmiş nailiyyətləri, o cümlədən dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanmasını müsbət addım kimi qiymətləndirib.

Regionda artıq sülhün mövcud olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, məhz Azərbaycanın səyləri nəticəsində bölgəmizdə ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni reallıqlar və status-kvo yaranıb. Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu qeyd edərək bu müqavilənin imzalanması üçün Ermənistanın öz Konstitusiyası və digər qanunverici aktları əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoymasının, həmçinin keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün təsisatların fəaliyyətinə son qoyulmasının vacibliyini vurğulayıb. Sərhədlərin delimitasiyası məsələsinə toxunan Prezident İlham Əliyev ikitərəfli proses çərçivəsində əldə olunmuş müsbət nəticələri qeyd edib və Əsasnamə əsasında bu prosesin aparılacağını bildirib.

Telefon söhbəti zamanı COP29-un ölkəmizdə keçirilməsi məsələsinə toxunulub.

Entoni Blinken COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana dəstək göstərdiyini qeyd edərək Azərbaycan ilə ABŞ-nin COP komandalarının və heyətlərinin yaxından əməkdaşlıq etdiklərini vurğulayıb.

Bu əməkdaşlıqdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev COP çərçivəsində iqlim maliyyələşdirilməsi ilə əlaqədar mühüm qərarların qəbul edilməsi ilə bağlı xüsusilə inkişaf etmiş dövlətlər tərəfindən konsensusun əldə ediləcəyinə ümidvar olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*



## Azərbaycan nümunəsi

### Dövlətimiz milli maraq və mənafelərini qətiyyətlə təmin edir

Azərbaycanın regional və qlobal miqyasda uğurlarını şərtləndirən ən mühüm səbəblərdən biri yürütdüyü müstəqil siyasətdir. Bu siyasətin müstəqil olması, xalqın və dövlətin maraqlarına xidmət etməsi güclü respublikamızın uğurlarını xarakterizə edən əsas məqam kimi özünü göstərir. Azərbaycanın bütün regional və qlobal məsələlərə dair özünün mövqeyi var. Prezident İlham Əliyev bununla bağlı deyib: "Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik".

Müstəqil siyasət yürütmək hər dövlətə nəsib olmur. Ermənistanın nümunəsində bunu görmək mümkündür. Yaxud müstəqil siyasət yürüdüb xarici təzyiqlərin qarşısında duruş gətirə bilmək də hər dövlətin işi deyil. Bununla bağlı kifayət qədər nümunələr çəkmək olar. Müstəqil siyasət yürütmək qlobal proseslərdə fəal iştirak etmək, öz mövqeyini göstərmək, milli mənafelərini təmin edə bilməkdir. Bu kontekstdən yanaşanda Azərbaycan həm müstəqil siyasət yürüdən, həm də ona qarşı olan bütün təzyiqləri qətiyyətlə dəf edərək, öz milli maraqlarını inamla reallaşdıran dövlətdir.

Azərbaycanın müstəqil siyasi kursunun nəticəsidir ki, enerji siyasətimiz dövlətimizin milli maraqlarına uğurla xidmət edir. Reallaşan hər bir enerji və nəqliyyat layihəsi məhz Azərbaycanın qətiyyətli siyasətinin təcəssümüdür. Bu yolda respublikamız antiazərbaycançı dairələrə, dünya erməniliyinə sinə gərib, onların bütün planlarını iflasa uğradıb. Azərbaycanın regionda söz sahibi olması onun müstəqil siyasətinin təntənəsidir.

→ 8

## Birinci vitse-prezident: "Bütün məktəblilərə möhkəm cansağlığı, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram"

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən ölkəmizin müxtəlif bölgələrində inşa və təmir olunan təhsil müəssisələri ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.** AZƏRTAC **paylaşımı təqdim edir:**

"Heydər Əliyev Fondunun ölkənin təhsil sisteminə növbəti töhfəsi. Fondun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində inşa və təmir edilən təhsil müəssisələrinin açılışları davam edir. Bütün məktəblilərə möhkəm cansağlığı, gümrahlıq, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram! 16.09.2024".



## Mərkəzi Seçki Komissiyası Milli Məclisə növbədənkənar seçkilərə yekun vurub

Milli Məclisə seçkilər ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçirilməklə respublikamızın ictimai-siyasi həyatında əlamətdar bir tarixi hadisəyə çevrilib. Seçkilərə rəsmən start verildiyi gündən başlayaraq MSK və qanunvericiliklə müəyyənləşdirilmiş vəzifə və səlahiyyətlərə malik aidiyyəti qurumlar tərəfindən Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunub, nəzərdə tutulan bütün tədbirlər komissiyanın hazırlayıb təsdiq etdiyi Təqvim planı əsasında ardıcıl, sistemli və keyfiyyətlə reallaşdırılıb.

Seçkilərdə mühüm prioritet məsələlərdən biri olan seçici siyahılarının dəqiqləşdirilməsinin qanunvericilikdə nəzərdə tutulmuş müddətdə uğurla həyata keçirilməsi, bu işdə media qurumları və sosial media platformalarının imkanlarından da geniş istifadə olunmaqla, müxtəlif vasitələrlə əhatəli fəaliyyət göstərilməsi təqdirlə vurğulanıb. Bildirilib ki, adların seçici siyahılarında yoxlanılması ilə bağlı MSK-nın hazırladığı müxtəlif materiallar - bütün ölkə ərazisinə yayılan geniştirajlı, böyükölçülü məlumatlandırma plakatları, televiziya və radio kanallarında yayımlanan müxtəlif video və audioçarxlar, eyni zamanda sosial media platformaları üzərindən çoxsaylı paylaşımlarla geniş kampaniya gerçəkləşdirilib.

→ 3

## Qərb-Ermənistan-Rusiya üçbucağında nələr baş verir?

### Hayastan hərbi poliqona çevrilir

"Qərb Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyatına görə Rusiyaya genişmiqyaslı sanksiyalar tətbiq etdi və onunla əməkdaşlıq edən ölkələrə də təzyiq göstərməyə başladı. Beləliklə, ABŞ, Fransa və Belçika Rusiyanı birnömrəli düşmən hesab etdilər və bu ölkə ilə bütün əlaqələrini minimuma endirməyə çalışdılar. Əslində, Rusiya Ukraynada kollektiv Qərblə müharibə aparır. Paşinyan hakimiyyəti də Ermənistanın Qərbə inteqrasiyaya başladığını və Rusiyanın ünvanına ittihamlar səsləndirməklə siyasi kursunu dəyişdiyini göstərməyə çalışdı. Hətta Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxacağı və MDB sammitlərinə qatılmaqdan imtina etdiyi də gündəmə gətirildi. Ermənistan parlamentinin sədri Alen Simonyanla Rusiya XİN-in sözçüsü Mariya Zaxarova arasında qarşılıqlı ittihamlarla dolu çıxışlar oldu. İlk görünüşdə Qərb-Ermənistan-Rusiya üçbucağında böhranın dərinləşdiyini görmək olur. Amma reallıq belədirmi?"

→ 8

## Sürət, həyəcan və möhtəşəm Azərbaycan Qran-prisi

### Bakı daha bir mötəbər idman tədbirinə yüksək səviyyədə evsahibliyi etdi

Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb etdi. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə gördü. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıtdı. Sentyabrın 13-də başlayan yarışların sonuncu günü həyəcanlı keçib. Sentyabrın 15-də Qran-prinin açılış mərasimi baş tutub. Mərasim Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Mərasimdə himn klassik üslubda ifa edilib və səhnə tərtibatı açılan xalça motivini xatırladıb. "Xan Qarabağ" xalçalarının sadə naxışlarından ilhamlanaraq hazırlanmış səhnə Azərbaycanın zəngin mədəni irsini əks etdirib. Açılışdan sonra "Formula-1" Azərbaycan Qran-prisi-2024 start götürüb.

→ 6

# "Formula-1" Azərbaycanda avtomobil idmanının inkişafında böyük rol oynayır

## Prezident İlham Əliyev "Formula-1"in prezidenti və baş icraçı direktorunu, məsləhətçisini və britaniyalı supermodeli qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də "Formula-1"in prezidenti və baş icraçı direktoru Stefano Domenikalini, "Formula-1"in məsləhətçisi Flavio Briatoreni və britaniyalı supermodel Naomi Kempbelli qəbul edib.**

AZƏRTAC xəbər verir ki, "Formula-1"in növbəti dəfə ölkəmizdə keçirilməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu yarışların Azərbaycanın dünyada daha çox tanıdılması baxımından ildən-ilə böyük rol oynadığını qeyd etdi.

Dövlətimizin başçısı "Formula-1"in Azərbaycanda keçirilməsinə göstərdiyi dəstəyə görə Stefano Domenikaliyə və Flavio Briatoreyə minnətdarlığını bildirdi.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı. "Formula-1"in Azərbaycanda avtomobil idmanının inkişafı sahəsinə verdiyi töhfələr də vurğulandı. Həmçinin ölkəmizdə kartinqin inkişafı məsələlərinə toxunuldu.

Görüşdə COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyəti qeyd edildi, ekologiya sahəsində davamlılıq məsələsində də "Formula-1"in daha fəal olmasının önəmi vurğulandı.

Dövlətimizin başçısı qonaqları COP29 tədbirində iştiraka dəvət etdi.

Bakının inkişafının onda dərin təəssürat hissi yaratdığını deyən Naomi Kempbell paytaxtda şahidi olduğu müasir infrastrukturu, o cümlədən məşhur memar Zaha Hadidin layihəsi olan Heydər Əliyev Mərkəzini məmnunluqla qeyd etdi.

Britaniyalı supermodel ölkəmizdə modanın inkişafına töhfə və azərbaycanlı dizaynerlərin fəaliyyətinə dəstək verməyə hazır olduğunu bildirdi.

# Dövlət başçısı BAF prezidentini COP29-a dəvət etdi

## Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Məhəmməd Ben Sulayem ötən ilin dekabrında Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının və federasiyanın mükafatlandırma mərasiminin Bakıda keçirilməsinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Qonaq Azərbaycan Avtomobil Federasiyası və klublar ilə sıx əlaqələrin mövcud olduğunu deyərək, əməkdaşlığın genişləndiyini vurğuladı.

Məhəmməd Ben Sulayem COP çərçivəsində Beynəlxalq Avtomobil Federasiyasının nəqliyyat sahəsində fəaliyyətə dəstək verəcəyini və bununla bağlı federasiyanın mütəxəssislərinin ölkəmizlə əməkdaşlıq edəcəklərini bildirdi.

Dövlətimizin başçısı Beynəlxalq Avtomobil Federasiyasının prezidentini COP29-a dəvət etdi.

# Nikaraqua Respublikasının Prezidenti zati-aliləri cənab Daniel Orteqa Saavedraya

Hörmətli cənab Prezident!

Nikaraqua Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Nikaraqua arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi və əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Nikaraqua xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 sentyabr 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 420** **QƏRAR** **Bakı şəhəri, 13 sentyabr 2024-cü il**

## "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun, Azərbaycan Respublikası Prezidentinin "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 30 may tarixli 76 nömrəli və "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında" 2024-cü il 30 may tarixli 77 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun, Azərbaycan Respublikası Prezidentinin "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 30 may tarixli 76 nömrəli və "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında" 2024-cü il 30 may tarixli 77 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 30 iyul tarixli 130 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 516 (Cild I); 2024, № 3, maddə 326) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi Normaları"nın 6.26-cı bəndinin on üçüncü abzasında "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

2. "Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) işçilərinin əməyinin ödənilməsi şərtlərinin və ştat sayının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 fevral tarixli 15 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 130 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissədə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "AZƏRTAC-ın yaradıcı işçilərinə kütləvi informasiya vasitələri üçün hazırladıqları materiallara görə ödənilən qonorarların məbləğləri"nin adında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 iyul tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 633 (Cild I) ilə təsdiq edilmiş "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 3-cü hissəsində "Efir, peyk və kabel televiziya yayımı" sözləri "Yayım və retranslyasiya xidmətləri" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 15 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 386 (Cild I) ilə təsdiq edilmiş "Terror əleyhinə əməliyyatları idarəetmə üzrə Əməliyyat Qərargahının fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan əməliyyat qruplarının funksional vəzifələrinə dair Nümunəvi Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissənin on ikinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

4.2. 3.11-ci bənd üzrə:

4.2.1. adında "Kütləvi informasiya vasitələri (KİV)" sözləri "Media" sözü ilə əvəz edilsin;

4.2.2. ikinci abzasda "KİV" akronimi "media subyektləri" sözləri ilə əvəz edilsin;

4.2.3. dördüncü abzasda "KİV vasitəsilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 noyabr tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1461 (Cild I) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətində olan yaradıcılıq emalatxanalarının, sərgi salonlarının güzəştli şərtlərlə yaradıcı gənclərin istifadəsinə verilməsi Qaydaları"nın 7-ci hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I); 2024, № 3, maddə 303; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 333 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 5.14.1.5-ci yarımbənddə, 13-cü hissənin adında, 13.1-ci və 13.3-cü bəndlərdə "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

6.2. həmin Qaydalara 5 nömrəli əlavə - "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın "İltizamın arxa tərəfi Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsindən Çıxarış" hissəsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

6.3. həmin Qaydalara 18 nömrəli əlavə - "Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün nümunəvi gün bölgüsü"ndə "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 iyul tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1505 (Cild I) ilə təsdiq edilmiş "Kredit tarixçələrini təşkil edən neqativ məlumatların "Elektron hökumət" portalında yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası"nın 1.2.2-ci yarımbəndində, 2.2-ci və 2.3-cü bəndlərində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 421** **QƏRAR** **Bakı şəhəri, 13 sentyabr 2024-cü il**

## "Liman infrastrukturunun dövlət mülkiyyətində olan obyektinin müsabiqə əsasında icarəyə verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanununun tətbiqi və "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 4 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Liman infrastrukturunun dövlət mülkiyyətində olan obyektinin müsabiqə əsasında icarəyə verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 422** **QƏRAR** **Bakı şəhəri, 14 sentyabr 2024-cü il**

## "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nda "Qeydlər"in 2-ci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin üzvləri, habelə həmin sessiyaların müəyyən edilmiş Prezidenti tərəfindən hazırlıq işlərinin aparılması üçün formalaşdırılmış məsul nümayəndələrdən ibarət heyətin üzvləri COP29 tədbirləri çərçivəsində 2024-2025-ci illər ərzində Nyu York, Vaşinqton, Cenevrə, Davos, Rio-de-Janeyro, Əbu-Dabi, Sidney, Tokio, London, Madrid, Paris, Roma, Vyana, Sinqapur, Nukualofa şəhərlərinə ezam olunarkən onların ezamiyyə xərclərinin birgünlük normasına həmin şəhərlər üzrə müəyyən edilmiş ezamiyyə xərclərinin birgünlük normasının 50 faizi məbləğində əlavə ödənilir.".

2. Bu Qərar 2024-cü il avqustun 1-dən tətbiq olunur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyası Milli Məclisə növbədənkənar seçkilərə yekun vurub



**Məzahir Pənahovun sədrliyi ilə sentyabrın 16-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar MSK tərəfindən seçkilərin ümumi yekunlarına dair protokolun tərtib edilməsi, seçkilərin yekunlarının yoxlanılması və təsdiq olunması üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsinə baxılıb. Yerli və beynəlxalq media mənsublarının, habelə digər maraqlı subyektlərin bilavasitə iştirakı ilə müzakirə edilən məsələlər və qəbul olunan qərarlar mediada geniş və operativ şəkildə işıqlandırılıb.

Komissiyanın iclasında öncə seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi istiqamətində gerçəkləşdirilən genişmiqyaslı layihələr və atılan məqsədyönlü addımlardan danışılıb. Qeyd olunub ki, Milli Məclisə seçkilər ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçirilməklə respublikamızın ictimai-siyasi həyatında əlamətdar bir tarixi hadisəyə çevrilib. Seçkilərə rəsmən start verildiyi gündən başlayaraq MSK və qanunvericiliklə müəyyənləşdirilmiş vəzifə və səlahiyyətlərə malik aidiyyəti qurumlar tərəfindən Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunub, nəzərdə tutulan bütün tədbirlər komissiyanın hazırlayıb təsdiq etdiyi Təqvim planı əsasında ardıcıl, sistemli və keyfiyyətlə reallaşdırılıb.

Seçkilərdə mühüm prioritet məsələlərdən biri olan seçici siyahılarının dəqiqləşdirilməsinin qanunvericilikdə nəzərdə tutulmuş müddətdə uğurla həyata keçirilməsi, bu işdə media qurumları və sosial media platformalarının imkanlarından da geniş istifadə olunmaqla, müxtəlif vasitələrlə əhatəli fəaliyyət göstərilməsi təqdirlə vurğulanıb. Bildirilib ki, adların seçici siyahılarında yoxlanılması ilə bağlı MSK-nın hazırladığı müxtəlif materiallar - bütün ölkə ərazisinə yayılan geniştirajlı, böyükölçülü məlumatlandırma plakatları, televiziya və radio kanallarında yayımlanan müxtəlif video və audioçarxlar, eyni zamanda sosial media platformaları üzərindən çoxsaylı paylaşımlarla geniş kampaniya gerçəkləşdirilib. "ASAN xidmət"lə birgə layihə çərçivəsində ilk dəfə 2024-cü il Azərbaycan Respublikası Prezidenti seçkilərində əsası qoyulan və seçkilərdə vətəndaşların səsvermə hüquqlarının daha səmərəli təmin edilməsinə hədəflənən mütərəqqi və effektiv bir vasitə Milli Məclisə seçkilərdə də davam etdirilib. Belə ki, "ASAN xidmət" mərkəzlərindəki müvafiq smart monitorlara yerləşdirilən funksional bölmə aktivləşdirilərək mərkəzlərə gündəlik müraciət edən on minlərlə vətəndaşımıza adlarını seçici siyahılarında yoxlamaq, aid olduqları seçki dairəsi və məntəqəsini müəyyənləşdirmək, həmçinin bu məsələlərlə bağlı ehtiyac yarandığı halda yerindəcə MSK-ya operativ müraciət etmək imkanı yaradıb. MSK-nın "ASAN xidmət"lə sıx əməkdaşlığı şəraitində hazırlanan və vətəndaşları mərkəzlərdəki sözügedən innovativ vasitədən yararlanmaqla adlarını siyahılarda yoxlamağa, səs verəcəkləri seçki məntəqəsini öyrənməyə təşviq edən videoçarx da televiziya və radio kanallarında, habelə sosial media platformalarında geniş yayılıb.

Milli Məclisə seçkilərdə reallaşdırılan irimiqyaslı maarifləndirmə və məlumatlandırma proqramından bəhs edilərək diqqətə çatdırılıb ki, seçki marafonu boyunca seçicilər və aşağı seçki komissiyalarının üzvləri də daxil olmaqla, müxtəlif statuslu, demək olar, bütün seçki iştirakçılarının maarifləndirilməsi diqqətdə saxlanılıb, əlaqədar qurumlarla sıx əməkdaşlıq şəraitində səsvermə gününə qısa müddət qalanadək müşahidəçilərin və media nümayəndələrinin bilavasitə iştirakı ilə intensiv şəkildə fərqli istiqamətlər üzrə çoxsaylı layihələr həyata keçirilib. MSK seçkinin tarixi, səsvermə qaydaları, habelə istiqamətverici və çağırış xarakterli yüz minlərlə plakat da çap etdirərək, bütün yaşayış məntəqələrinin ərazisində və asanlıqla görünə bilən məkanlarda yerləşdirilməsini təmin edib. Bununla yanaşı, seçici siyahılarında adın yoxlanılması, seçicilərin səsvermədə iştiraka dəvət olunması, seçki gününün xatırladılması, səsvermə prosedurları, eləcə də əlavə seçicilər siyahısı əsasında səsvermə barədə hazırlanan, ümumilikdə 6 video və audioçarx ölkədəki televiziya və radio kanallarında mütəmadi şəkildə nümayiş etdirilib, eləcə də sosial media platformalarında paylaşılıb.

İclasda həssas qrupa aid seçicilər - görmə, eşitmə və hərəkət qabiliyyətində məhdudiyyət olanlar üçün gerçəkləşdirilən layihələrdən, yaradılan imkanlardan da danışılıb. Vurğulanıb ki, gözdən əlilliyi olan seçicilər səsvermə günü öz konstitusion hüquqlarını seçki bülletenlərindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretlərdən istifadə etməklə sərbəst şəkildə reallaşdırıblar. Eşitmə qabiliyyəti məhdud olan seçicilərin məlumatlandırılması məqsədilə MSK-nın seçici maarifləndirmə proqramı çərçivəsində hazırladığı bütün videoçarxlar həm də alt yazısı ilə təqdim olunub. Hərəkət qabiliyyətində məhdudiyyət olan seçicilərin ictimaiyyətdən təcrid olunmadan, bilavasitə seçki məntəqələrinə gələrək səs verə bilmələri üçün seçki məntəqələrinin müvafiq binalarda yerləşdirilməsi və yeni panduslar quraşdırılması yolu ilə ehtiyac duyulan 2471 seçki məntəqəsində də digər məntəqələrdəki kimi əlverişli vəziyyət təmin edilib.

Eyni zamanda məlumat verilib ki, Milli Məclisə seçkilərdə çoxsaylı siyasi partiyaları təmsil edən, eləcə də öz təşəbbüsləri ilə və seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülən 990 iddiaçı deputatlıq uğrunda azad seçki mübarizəsi aparıb. Seçkilərin ən təqdirəlayiq tərəflərindən biri məhz siyasi partiyaların bu seçkilərə indiyədək görünməmiş şəkildə maraq göstərməsi, ölkədə fəaliyyət göstərən 25 siyasi partiyanın öz namizədləri ilə seçkilərdə iştirak etməsi olub. Bütün namizədlərə seçkiqabağı təşviqat dövründə geniş imkanlar və hərtərəfli bərabər şərait yaradılıb. Seçki qanunvericiliyinin tələblərinə əsasən bütün ölkə ərazisində 3469-u açıq, 2037-si qapalı olmaqla, ümumilikdə 5506 görüş yeri ayrılaraq təşviqat subyektlərinin ixtiyarına verilib. Onlar heç bir maneə ilə rastlaşmadan, sadəcə, aidiyyəti üzrə dairə seçki komissiyalarını məlumatlandırmaqla həmin yerlərdən ödənişsiz istifadə edərək öz seçiciləri ilə sərbəst şəkildə seçkiqabağı toplantılarını keçiriblər. Bundan başqa, hər seçki məntəqəsinin ərazisində 2 ədəd olmaqla, seçicilər tərəfindən məlumatlar asanlıqla oxuna bilən əlverişli yerlərdə 10 mindən çox böyükölçülü təşviqat lövhələri quraşdırılıb. Media subyektləri ödənişli əsaslarla seçkiqabağı təşviqata qoşulmaqda böyük fəallıq nümayiş etdiriblər. Bu məqsədlə 58 media qurumundan MSK-ya təqdim olunan müraciətlərin hamısı təmin edilib, onların müvafiq təklif və məlumatları təşviqat subyektlərinin tanış olması üçün komissiyanın rəsmi internet səhifəsində yerləşdirilib və bütün namizədlər üçün şərtlərin bərabərliyi prinsipi daim diqqətdə saxlanılıb. İclasda seçkilərin mühüm mərhələlərindən biri olan seçkiqabağı təşviqat kampaniyasının bütövlükdə sivil və müasir tələblərə cavab verən şəkildə keçdiyi, namizədlərin MSK tərəfindən yaradılan bərabər şərait və imkanlardan səmərəli istifadə etdiyi vurğulanıb.

Komissiyanın iclasında xüsusi qeyd edilən məsələlərdən biri də seçkilərin geniş aşkarlıq və şəffaflıq mühitində keçməsi olub. Bildirilib ki, Milli Məclisə seçkilərdə yerli və beynəlxalq müşahidəçilər də daxil olmaqla, məşvərətçi səs hüquqlu komissiya üzvü, səlahiyyətli nümayəndə, vəkil edilmiş şəxs və digər müxtəlif statusla, ümumilikdə 121 mindən artıq seçki iştirakçısı səsvermə günü məntəqə seçki komissiyalarının işini müşahidə etmək hüququ əldə edib. Seçkilərin müşahidəsinə 51 xarici qurum və 69 ölkəni təmsil edən 598 beynəlxalq müşahidəçi, o cümlədən nüfuzlu beynəlxalq media subyektlərinin təmsilçiləri qatılıblar. Yerli media mənsubları isə heç bir əlavə qeydiyyat və sənəd tələb olunmadan, seçki marafonunun əvvəlindən axırınadək tam sərbəst və maneəsiz şəkildə proseslərin müşahidəsində iştirak ediblər. Seçkilərdə 2-si xarici partnyorları ilə birgə olmaqla, 3 ixtisaslaşmış təşkilat tərəfindən keçirilən "exit-poll"ların nəticələri MSK-nın rəsmi nəticələri ilə, xəta əmsalı nəzərə alınmaqla, demək olar ki, üst-üstə düşüb.

Seçkilərin müşahidəsinə siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının ciddi maraq göstərməsinə də ayrıca diqqət çəkilib. Bildirilib ki, 24 siyasi partiya 65 minə yaxın təmsilçisi ilə seçkilərin müşahidəsinə qatılıb. Eyni zamanda 16 qeyri-hökumət təşkilatı və vətəndaş cəmiyyəti institutu 5000-dən artıq yerli müşahidəçisi ilə seçkilərin izlənilməsində iştirak edib ki, bu da sözügedən ictimai təsisatların seçkilərdəki böyük fəallıqlarının bariz göstəricisidir.

Seçkilərin geniş aşkarlıq mühitində azad və ədalətli keçirilməsi üçün hər cür zəruri tədbirlərin görüldüyü vurğulanaraq diqqətə çatdırılıb ki, seçkilərdə informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən səmərəli istifadə olunması, xüsusilə uzun illərdir uğurla sınaqdan çıxmış veb-kamera praktikasının Milli Məclisə seçkilərdə də tətbiqi şəffaflığın miqyasını daha da böyüdüb. Bütün ölkə coğrafiyası əhatə olunmaqla, 1000 məntəqədə quraşdırılan yüksək görüntü effektinə malik veb-kameralar səsvermə günü seçki məntəqələri fəaliyyətə başladığı andan etibarən proseslərin gedişini hamı üçün açıq platformada bütünlüklə, arasıkəsilmədən və real vaxt rejimində dünyanın istənilən yerindən heç bir qeydiyyat tələb olunmadan internet istifadəçiləri tərəfindən müşahidə etməyə imkan yaradıb. Seçki günü dünyanın müxtəlif ölkələrindən və yerlərindən veb-kameralara 570 mindən artıq baxış olub ki, bu da veb-kameraların seçki prosesindəki effektivliyinin və ictimaiyyət üçün kəsb etdiyi ciddi marağın daha bir göstəricisidir.

İclasda həmçinin bildirilib ki, Milli Məclisə seçkilər 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində keçirilib. Bu seçkilərdə işğaldan azad olunmuş ərazilərdəki daimi seçki məntəqələrinin sayı daha da artırılaraq 34-ə çatdırılıb, o cümlədən müvəqqəti əsaslarla fəaliyyət göstərən 20 seçki məntəqəsi yaradılıb. Səsvermə günü seçicilər azad və sərbəst şəkildə öz konstitusion hüquqlarını reallaşdırıb və ümumilikdə ölkə üzrə seçicilərin 37,24 faizi səsvermədə iştirak edib. Seçki günü ərzində ictimaiyyət 5 dəfə seçicilərin aktivliyi barədə məlumatlandırılıb. Seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib və seçki məntəqələri üzrə nəticələrin müəyyənləşdirilməsinə yekun vurulduqca məntəqə seçki komissiyalarının protokol məlumatları operativ şəkildə MSK-nın internet səhifəsinə daxil olmaqla dərhal ictimailəşdirilib. Səsvermə başa çatdıqdan bir neçə saat sonra seçki məntəqələrinin 91 faizindən daxil olmuş məlumatlar əsasında seçki dairələri üzrə ilkin nəticələr və lider namizədlər elan edilib. Səsvermənin nəticələrinə dair yekun protokollar və digər seçki sənədləri qanunla müəyyən olunmuş müddətdə məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına, oradan isə MSK-ya çatdırılıb.

İclasda o da qeyd olunub ki, səsvermə günü və ondan sonrakı gün MSK və ya aşağı seçki komissiyalarına hər hansı qanun pozuntusu barədə heç bir şikayət və ya müraciət daxil olmayıb. Seçki günü komissiyanın 115 saylı və elektron qaynar xətlərinə daxil olmuş seçki məntəqələrinin ünvanları, seçici siyahıları və digər bu cür sorğu xarakterli müraciətlərə isə dərhal reaksiya verilib və zəruri addımlar atılıb. Səsvermə günündən sonra seçkilərə yekun vurulanadək daxil olan müraciətlər və müxtəlif mənbələrdən əldə edilən məlumatlar maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə tam şəffaf, obyektiv və hərtərəfli araşdırılaraq qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada operativ şəkildə iclasa çıxarılıb, geniş və ictimaiyyətə açıq müzakirələrin ardınca müvafiq qərarlar qəbul olunub. Müraciətlərlə bağlı araşdırma və baxılma prosesinin gedişatı barədə məlumatlar komissiyanın internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilib.

Milli Məclisə seçkilərlə bağlı ictimaiyyətin məlumatlandırılmasında onlayn platformaların imkanlarından geniş istifadə edildiyi, bu prosesdə MSK-nın internet səhifəsinin xüsusilə mühüm rol oynadığı da iclasda vurğulanıb. Bildirilib ki, komissiyanın zəruri məlumatların yerləşdirildiyi və mütəmadi yenilənən internet səhifəsi seçki prosesi boyunca istifadəçilərin ixtiyarına verilib, arzu edən şəxslər asanlıqla səhifədən istədikləri müxtəlif məlumatları əldə ediblər. Seçkilərə rəsmən start verildiyi gündən başlayaraq, seçki günü başa çatanadək MSK-nın internet səhifəsinə 3 milyona yaxın baxış keçirilib. Təkcə səsvermə günü isə bu göstərici 570 minə yaxın olub. Komissiyanın sosial media platformalarındakı rəsmi hesabları da seçki marafonu ərzində öz aktivliyini qoruyub, məlumatlar davamlı şəkildə paralel olaraq bu səhifələrdə də yerləşdirilib.

MSK-nın iclasında iştirakçılar Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi barədə məlumatlandırıldıqdan sonra gündəlikdə nəzərdə tutulmuş məsələlərin müzakirəsinə keçilib. Bildirilib ki, qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada MSK-ya təqdim olunan dairə seçki komissiyalarının protokolları və onlara əlavə edilən zəruri seçki sənədləri Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə təfsilatlı araşdırılıb. Komissiya sənədlərin yoxlanılması nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün olmayan 13 saylı Xəzər ikinci seçki dairəsinin 12, 15 saylı Yasamal birinci seçki dairəsinin 26, 18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsinin 15, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 1, 38 saylı Gəncə birinci seçki dairəsinin 13, 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 38, 48 saylı Abşeron birinci seçki dairəsinin 4, 5 və 9, 52 saylı Yevlax seçki dairəsinin 2 və 8, 80 saylı Lerik-Astara seçki dairəsinin 88, 82 saylı İmişli-Saatlı seçki dairəsinin 41, 42, 44 və 45, 104 saylı Gədəbəy seçki dairəsinin 20, 25 və 34, eləcə də 119 saylı Ağdam seçki dairəsinin 21 saylı seçki məntəqələrində səsvermənin nəticələrini etibarsız hesab edib. O cümlədən seçkilərin hazırlanması, keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı fəaliyyətlərində nöqsanlara yol verən ümumilikdə 35 seçki məntəqəsinin məntəqə seçki komissiyası buraxılıb.

İclasda cari ildə keçirilən Milli Məclisə növbədənkənar seçkilərdə dairə seçki komissiyalarının səsvermənin yekunlarına dair protokolları və onlara əlavə edilmiş digər seçki sənədlərinin yoxlanılması işi başa çatmış hesab edilib, seçkilərin ümumi yekunları haqqında MSK-nın protokolu tərtib olunub və bütün komissiya üzvləri tərəfindən imzalanaraq təsdiqlənib. Həmçinin seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, seçkilərin yekunlarının təsdiq edilməsi üçün komissiyanın protokolunun müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmasına qərar verilib.

QƏRAR № 44/223

## 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 sentyabr 2024-cü il tarixli 86 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Əzizov Əziz Fatehoviç 12 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək dairə seçki komissiyasının 6 sentyabr 2024-cü il tarixli 25/84 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah olunmuş, ərizəçi araşdırmada və komissiyanın iclasında iştirak etməkdən imtina etmişdir.

Namizəd Ə.F.Əzizov müraciətində seçki dairəsinin bir sıra seçki məntəqələrində iddia etdiyi qanun pozuntuları ilə bağlı dairə seçki komissiyasına etdiyi müraciətin düzgün araşdırılmadığını, dairə seçki komissiyasının 6 sentyabr 2024-cü il tarixli 25/84 saylı qərarının qanunla nəzərdə tutulmuş müddətdə ona çatdırılmadığını əsas gətirərək həmin qərarın ləğv edilməsini tələb etmişdir. Namizəd tərəfindən müraciətə 3 protokol nüsxəsi (qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiqlənmiş) əlavə edilmişdir.

Müraciətin araşdırılması ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrar araşdırma aparılmışdır. Araşdırma ilə müəyyən edilmişdir ki, ərizəçinin müraciətdə pozuntularla bağlı iddia etdiyi bütün hallar dairə seçki komissiyası tərəfindən qanunda nəzərdə tutulmuş qaydada araşdırılmış, nəticədə dairə seçki komissiyasının 6 sentyabr 2024-cü il tarixli 25/84 saylı qərarı ilə müraciət əsassız olduğundan təmin edilməmişdir.

Araşdırmanın tərkib hissəsi kimi dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir.

Ərizəçi tərəfindən təqdim edilmiş 3 protokol nüsxəsinin (qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiqlənmiş) rəsmi protokollarda olan məlumatlarla müqayisəli araşdırılması, səsvermə günü sosial şəbəkələrdə həmin seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülər və iş üzrə təqdim edilən digər materialların araşdırılması zamanı 17 saylı seçki məntəqəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallar aşkarlanmışdır.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından, 17 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının namizəd Ə.F.Əzizova vaxtında çatdırılmaması ilə bağlı iddia araşdırma zamanı öz təsdiqini tapmamışdır.

Beləliklə, Ə.F.Əzizovun müraciəti qismən təmin edilməli, 17 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 6 sentyabr 2024-cü il tarixli 25/84 saylı qərarı 17 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilməli, qalan hissələrdə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Əzizov Əziz Fatehoviçin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 sentyabr 2024-cü il tarixli 86 saylı müraciəti qismən təmin olunsun, 17 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. 23 saylı Nəsimi-Səbail seçki dairəsi dairə seçki komissiyasının 6 sentyabr 2024-cü il tarixli 25/84 saylı qərarı 17 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.09.2024*

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏR

**1 sentyabr 2024-cü il**

# SƏSVERMƏNİN ÜMUMİ YEKUNLARINA DAİR AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ PROTOKOLU

**Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası** səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarına əsasən respublika üzrə səsvermənin ümumi yekunlarını **müəyyən etmişdir:**

1. Seçici siyahılarına daxil edilmiş seçicilərin ümumi sayı
   *Altı milyon dörd yüz otuz üç min yüz səksən dörd* — 6 433 184
2. Səsvermədə iştirak edən seçicilərin sayı *
   *İki milyon üç yüz doxsan beş min beş yüz on* — 2 395 510
3. Dairə seçki komissiyalarının sayı
   *Bir yüz iyirmi beş* — 125
4. Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı
   *Bir yüz iyirmi beş* — 125
5. Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş dairə seçki komissiyaları protokollarının sayı
   *Bir yüz iyirmi beş* — 125
6. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki dairələrinin sayı
   *Sıfır* — 0
7. Səsvermənin baş tutmadığı seçki dairələrinin sayı
   *Sıfır* — 0
8. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı **
   *Qırx altı* — 46

* Seçicilərin fəallığı [seçicilərin ümumi sayına (1) nisbətən faizlə] : 37.24%
** Siyahı əlavə edilir.

9. Deputat seçilmiş namizədlər (sayı və seçki dairələri üzrə siyahısı)
   *Bir yüz iyirmi beş* — 125

| | |
|---|---|
| 1 saylı Şərur-Sədərək seçki dairəsi | ƏSGƏROV Ziyafət Abbas oğlu |
| 2 saylı Şərur-Kəngərli seçki dairəsi | NOVRUZOV Siyavuş Dünyamalı oğlu |
| 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi | MÖHBALIYEV Səttar Suliddin oğlu |
| 4 saylı Naxçıvan şəhər seçki dairəsi | İBRAHİMOV Eldar Rza oğlu |
| 5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi | HƏMZƏYEVA Ülviyyə Tapdıq qızı |
| 6 saylı Ordubad-Culfa seçki dairəsi | RƏHİMZADƏ Vüqar Gəncəli oğlu |
| 7 saylı Səbail seçki dairəsi | ARPADARAİ Nigar Cavid qızı |
| 8 saylı Binəqədi birinci seçki dairəsi | QULİYEV Azay Əjdər oğlu |
| 9 saylı Binəqədi ikinci seçki dairəsi | QAFAROV Kamaləddin Nəsrəddin oğlu |
| 10 saylı Binəqədi üçüncü seçki dairəsi | MUSAYEV Elşad Nəbi oğlu |
| 11 saylı Binəqədi-Qaradağ seçki dairəsi | XASAYEVA Səbinə Səməd qızı |
| 12 saylı Xəzər birinci seçki dairəsi | MƏMMƏDOV Soltan Teymur oğlu |
| 13 saylı Xəzər ikinci seçki dairəsi | PAŞAYEVA Gülşən Məmmədəli qızı |
| 14 saylı Xəzər-Pirallahı seçki dairəsi | ƏFƏNDİYEVA Günay Elçin qızı |
| 15 saylı Yasamal birinci seçki dairəsi | QULİYEV Ülvi Zahid oğlu |
| 16 saylı Yasamal ikinci seçki dairəsi | QƏDİRLİ Erkin Toğrul oğlu |
| 17 saylı Yasamal üçüncü seçki dairəsi | QƏHRƏMANOV Göydəniz İbrahim oğlu |
| 18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsi | MUSABƏYOV Rasim Nəsrəddin oğlu |
| 19 saylı Nərimanov birinci seçki dairəsi | MƏMMƏDOV Hikmət Baba oğlu |
| 20 saylı Nərimanov ikinci seçki dairəsi | VƏLİYEV Samir Əhməd oğlu |
| 21 saylı Nəsimi-Binəqədi seçki dairəsi | İBRAHİMQIZI Məlahət İbrahim |
| 22 saylı Nəsimi-Yasamal seçki dairəsi | MOLLAZADƏ Asim Nazim oğlu |
| 23 saylı Nəsimi-Səbail seçki dairəsi | SƏMƏDZADƏ Ziyad Əliabbas oğlu |
| 24 saylı Nizami birinci seçki dairəsi | NURULLAYEVA Könül Oruc qızı |
| 25 saylı Nizami ikinci seçki dairəsi | ƏHMƏDOV Əli Cavad oğlu |
| 26 saylı Sabunçu birinci seçki dairəsi | MUSTAFA Fazil Qəzənfər oğlu |
| 27 saylı Sabunçu ikinci seçki dairəsi | ƏLİ-ZADƏ Arzuxan Baxşəli oğlu |
| 28 saylı Sabunçu üçüncü seçki dairəsi | QULİYEV Eldar Allahyar oğlu |
| 29 saylı Sabunçu dördüncü seçki dairəsi | ALLAHVERƏNOV Azər Kərim oğlu |
| 30 saylı Suraxanı birinci seçki dairəsi | FƏTƏLİYEVA Sevinc Həbib qızı |
| 31 saylı Suraxanı ikinci seçki dairəsi | MƏMMƏDOV Qaya Məmməd oğlu |
| 32 saylı Suraxanı üçüncü seçki dairəsi | HƏSƏNOVA Afət Əbil qızı |
| 33 saylı Xətai birinci seçki dairəsi | ORUC Zahid Məhərrəm oğlu |
| 34 saylı Xətai ikinci seçki dairəsi | ZABELİN Mixail Yuryeviç |
| 35 saylı Xətai üçüncü seçki dairəsi | VƏLİYEVA Pərvanə Bulut qızı |
| 36 saylı Xətai-Suraxanı seçki dairəsi | HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu |
| 37 saylı Qaradağ seçki dairəsi | HÜSEYNOV Aydın Nəsir oğlu |
| 38 saylı Gəncə birinci seçki dairəsi | HƏMZƏYEV Naqif Ələşrəf oğlu |
| 39 saylı Gəncə ikinci seçki dairəsi | KƏRİMZADƏ Pərvin Orxan qızı |
| 40 saylı Gəncə üçüncü seçki dairəsi | QULİYEV Musa İsa oğlu |
| 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi | CƏFƏROV Müşfiq Cəfər oğlu |
| 42 saylı Sumqayıt birinci seçki dairəsi | HÜSEYNOVA Hicran Kamran qızı |
| 43 saylı Sumqayıt ikinci seçki dairəsi | MİRKİŞİLİ Tahir Famil oğlu |
| 44 saylı Sumqayıt üçüncü seçki dairəsi | VƏLİYEVA Mehriban Hidayət qızı |
| 45 saylı Sumqayıt dördüncü seçki dairəsi | SALMANOVA Səbinə Qədir qızı |
| 46 saylı Sumqayıt beşinci seçki dairəsi | AKİMOVA Elnarə Seydulla qızı |
| 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsi | ŞÜKÜROV Zaur Ramiz oğlu |
| 48 saylı Abşeron birinci seçki dairəsi | MƏMMƏDOVA Nigar Fikrət qızı |
| 49 saylı Abşeron ikinci seçki dairəsi | NƏBİYEV Rizvan Novruz oğlu |
| 50 saylı Abşeron üçüncü seçki dairəsi | NAMAZOV Ramid Zakir oğlu |
| 51 saylı Şirvan seçki dairəsi | ƏSƏDOV Heydər Xanış oğlu |
| 52 saylı Yevlax seçki dairəsi | MƏMMƏDOV İlham Kazım oğlu |
| 53 saylı Yevlax-Mingəçevir seçki dairəsi | HÜSEYNLİ Əli Məhəmməd oğlu |
| 54 saylı Mingəçevir seçki dairəsi | MİRZƏZADƏ Aydın Böyükkişi oğlu |
| 55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsi | MƏMMƏDLİ Müşfiq Fazil oğlu |
| 56 saylı Şabran-Xaçmaz seçki dairəsi | SÜLEYMANLI Mahir Tahir oğlu |
| 57 saylı Xaçmaz şəhər seçki dairəsi | VƏLİYEV Ağalar İsrəfil oğlu |
| 58 saylı Xaçmaz kənd seçki dairəsi | MİKAYILOVA Sevil Əlirazı qızı |
| 59 saylı Quba seçki dairəsi | MƏHƏRRƏMZADƏ Əlibala Səttar oğlu |
| 60 saylı Quba-Qusar seçki dairəsi | RAFAİLOV Anatoliy Xaimoviç |
| 61 saylı Qusar seçki dairəsi | BADAMOV Azər Camal oğlu |
| 62 saylı Kürdəmir seçki dairəsi | AĞAZADƏ Əminə Həmid qızı |
| 63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi | HÜSEYNOV Rafael Baba oğlu |
| 64 saylı Salyan seçki dairəsi | QURBANOV Sadiq Haqverdi oğlu |
| 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi | AĞAMALI Günay Fəzail qızı |
| 66 saylı Saatlı seçki dairəsi | ƏLƏKBƏROV Əziz Yusif oğlu |
| 67 saylı Sabirabad seçki dairəsi | ƏMİRASLANOV Əhliman Tapdıq oğlu |
| 68 saylı Sabirabad-Şirvan seçki dairəsi | CƏFƏROV Kamal Xaqani oğlu |
| 69 saylı Biləsuvar seçki dairəsi | MƏHƏRRƏMOV Bəhruz Abdurrəhman oğlu |
| 70 saylı Neftçala seçki dairəsi | RÜSTƏMXANLI Tənzilə Yolçu qızı |
| 71 saylı Cəlilabad şəhər seçki dairəsi | HƏSƏNOV Malik Əvəz oğlu |
| 72 saylı Cəlilabad kənd seçki dairəsi | NƏSİROV Elman Xudam oğlu |
| 73 saylı Masallı-Cəlilabad seçki dairəsi | İBRAHİMLİ Fəzail Feyruz oğlu |
| 74 saylı Masallı seçki dairəsi | MƏMMƏDOV Məşhur Şahbaz oğlu |
| 75 saylı Yardımlı-Masallı seçki dairəsi | QASIMLI Musa Cəfər oğlu |
| 76 saylı Lənkəran-Masallı seçki dairəsi | PAŞAZADƏ Cavanşir Hümmət oğlu |
| 77 saylı Lənkəran şəhər seçki dairəsi | İSMAYILZADƏ Fariz Akif oğlu |
| 78 saylı Lənkəran kənd seçki dairəsi | İSGƏNDƏROV Anar Camal oğlu |
| 79 saylı Astara seçki dairəsi | MAHMUDOV Rəşad Məmmədqulu oğlu |
| 80 saylı Lerik-Astara seçki dairəsi | QAFAROV Vasif Vaqif oğlu |
| 81 saylı İmişli seçki dairəsi | NURULLAYEV Razi Qulaməli oğlu |
| 82 saylı İmişli-Saatlı seçki dairəsi | SALAHLI Səyyad Adil oğlu |
| 83 saylı Beyləqan seçki dairəsi | İSMAYILOV Şahin Əmir oğlu |
| 84 saylı Füzuli seçki dairəsi | BAYRAMOV Vüqar İbad oğlu |
| 85 saylı Füzuli-Ağcabədi seçki dairəsi | ABBASOV Aqil Məhəmməd oğlu |
| 86 saylı Ağcabədi seçki dairəsi | RZAYEV Tahir Musa oğlu |
| 87 saylı Qobustan-Şamaxı-İsmayıllı seçki dairəsi | SEYİDZADƏ Şahin Kamil oğlu |
| 88 saylı Şamaxı seçki dairəsi | CƏFƏROVA Tamam Şaməmməd qızı |
| 89 saylı İsmayıllı seçki dairəsi | ASLANOV Novruzəli Davud oğlu |
| 90 saylı Ağsu seçki dairəsi | MİRZƏBƏYLİ Elçin Əbdülrəhim oğlu |
| 91 saylı Göyçay seçki dairəsi | HACIYEV Sabir Kamal oğlu |
| 92 saylı Göyçay-Ağdaş seçki dairəsi | ƏFƏNDİYEV Məzahir Cavid oğlu |
| 93 saylı Ağdaş seçki dairəsi | ALIYEV Sahib Eyvaz oğlu |
| 94 saylı Ucar seçki dairəsi | HƏSƏN Ramil Sahib oğlu |
| 95 saylı Zərdab-Kürdəmir-Ucar seçki dairəsi | ƏLİYEVA Jalə Fazil qızı |
| 96 saylı Goranboy-Naftalan seçki dairəsi | BƏDƏLOV Bədəl Şamil oğlu |
| 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi | MƏMMƏDOV Anar İlyaz oğlu |
| 98 saylı Bərdə-Tərtər seçki dairəsi | FƏTİYEV Xanlar Nuru oğlu |
| 99 saylı Bərdə seçki dairəsi | YILDIRIM Fatma Vidadi qızı |
| 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsi | BAYRAMOV Kamran Fərhad oğlu |
| 101 saylı Samux-Şəmkir seçki dairəsi | QURBANLI Mübariz Qəhrəman oğlu |
| 102 saylı Şəmkir şəhər seçki dairəsi | QAFAROVA Sahibə Əli qızı |
| 103 saylı Şəmkir kənd seçki dairəsi | HƏSƏNOV Nurlan Urfan oğlu |
| 104 saylı Gədəbəy seçki dairəsi | HÜSEYNOVA Sevinc Əmirəhməd qızı |
| 105 saylı Tovuz-Gədəbəy seçki dairəsi | NAĞIYEV Arzu Nəsib oğlu |
| 106 saylı Tovuz seçki dairəsi | SƏFƏROV Nizami Abdulla oğlu |
| 107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi | AĞAYEVA Ülviyyə Cavanşir qızı |
| 108 saylı Ağstafa seçki dairəsi | ƏMİRASLANOV Azər Kamal oğlu |
| 109 saylı Qazax seçki dairəsi | SEYİDOV Səməd İsmayıl oğlu |
| 110 saylı Balakən seçki dairəsi | MƏHƏMƏLİYEV Nəsib Məhəmməd oğlu |
| 111 saylı Zaqatala-Balakən seçki dairəsi | KƏRİMLİ Azər Şəmşid oğlu |
| 112 saylı Zaqatala seçki dairəsi | ƏSGƏROV Asif Yunis oğlu |
| 113 saylı Qax-Şəki seçki dairəsi | MƏSİMLİ Əli Əhməd oğlu |
| 114 saylı Şəki şəhər seçki dairəsi | İSKƏNDƏROV Vüqar Yapon oğlu |
| 115 saylı Şəki kənd seçki dairəsi | FEYZİYEV Cavanşir Əyyub oğlu |
| 116 saylı Qəbələ seçki dairəsi | MUSAYEV Elşən Məmmədhənifə oğlu |
| 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi | QURBANOV Eyvaz Daşdəmir oğlu |
| 118 saylı Ağdam-Xocalı seçki dairəsi | MƏMMƏDOV Elman Camal oğlu |
| 119 saylı Ağdam seçki dairəsi | ƏLİYEV Bəxtiyar Həmzə oğlu |
| 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi | MƏMMƏDOV Ceyhun Valeh oğlu |
| 121 saylı Laçın seçki dairəsi | MURADOV Rövşən Şahbaz oğlu |
| 122 saylı Xankəndi seçki dairəsi | GƏNCƏLİYEV Tural Babaşah oğlu |
| 123 saylı Kəlbəcər seçki dairəsi | QASIMLI Mircəlil Xəqani oğlu |
| 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi | BÜLBÜLOĞLU Polad |
| 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi | İSMAYILOV İmamverdi İbiş oğlu |

**Mərkəzi Seçki Komissiyasının sədri** — **PƏNAHOV Məzahir Məhəmməd oğlu** ____________

**Mərkəzi Seçki Komissiyası sədrinin müavini** — **QASIMOV Rövzət Afət oğlu** ____________

**Mərkəzi Seçki Komissiyasının katibi** — **MUXTAROVA Arifə Ağaverdi qızı** ____________

**Mərkəzi Seçki Komissiyasının katibi** — **RƏHİMOV Mikayıl Rəhman oğlu** ____________

**Mərkəzi Seçki Komissiyasının üzvləri:**

**CAVADOV Fuad Musa oğlu** ____________
**ƏLİYEV Şaitdin Sərdar oğlu** ____________
**İBRAHİMOV Ramiz Hilal oğlu** ____________
**KAZIMOVA Validə Faiq qızı** ____________
**PAŞAYEV Hüseyn Məmməd oğlu** ____________
**MƏMMƏDOV İlham Sabir oğlu** ____________
**NADİRXANLI Nizami Hüseyn oğlu** ____________
**ORUCOV Qabil Əhməd oğlu** ____________
**ƏSGƏROV Bəxşeyiş Məmməd oğlu** ____________
**ƏSGƏROVA Nailə Şahmərdan qızı** ____________
**HƏSƏNOV Tofiq Eldar oğlu** ____________
**QƏHRAMANLI Almas Əlisultan qızı** ____________
**QULİYEV Etibar Cəfər oğlu** ____________
**ŞAHBAZOV İlkin Zaur oğlu** ____________

**M.Y**

Protokol 2024-cü il sentyabrın 16-da saat 13:48-də tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd: ____________

____________ (soyadı, adı, atasının adı) ____________ (imza)

*Protokola əlavə*

## 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin

## SİYAHISI

| Seçki dairələrinin sıra sayı və adı | Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələri | |
|---|---|---|
| | Sayı | Məntəqələrin nömrəsi |
| 13 saylı Xəzər ikinci | 1 | 12 |
| 15 saylı Yasamal birinci | 1 | 26 |
| 18 saylı Nərimanov-Nizami-Binəqədi | 1 | 15 |
| 21 saylı Nəsimi-Binəqədi | 1 | 30 |
| 22 saylı Nəsimi-Yasamal | 3 | 2, 14, 20 |
| 23 saylı Nəsimi-Səbail | 1 | 17 |
| 24 saylı Nizami birinci | 5 | 4, 6, 28, 31, 33 |
| 31 saylı Suraxanı ikinci | 4 | 1, 18*, 34*, 35* |
| 38 saylı Gəncə birinci | 1 | 13 |
| 41 saylı Gəncə-Samux-Goranboy | 1 | 38 |
| 42 saylı Sumqayit birinci | 1 | 27 |
| 48 saylı Abşeron birinci | 3 | 4, 5, 9 |
| 52 saylı Yevlax | 2 | 2, 8 |
| 70 saylı Neftçala | 6 | 24, 27, 34, 35, 48, 49, |
| 78 saylı Lənkəran kənd | 2 | 29, 32 |
| 80 saylı Lerik-Astara | 1 | 88 |
| 82 saylı İmişli-Saatlı | 4 | 41, 42, 44, 45 |
| 86 saylı Ağcabədi | 1 | 7 |
| 97 saylı Tərtər-Ağdərə-Goranboy | 3 | 3, 4, 18 |
| 104 saylı Gədəbəy | 3 | 20, 25, 34 |
| 119 saylı Ağdam | 1 | 21 |
| **Cəmi:** | **46** | |

* *DSK tərəfindən səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələri*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## QƏRAR № 45/224

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 sentyabr 2024-cü il tarixli 91 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 63 saylı Hacıqabul - Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Vahid Qulaməli oğlu Qocayev 2024-cü il sentyabrın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçki dairəsi dairə seçki komissiyasının 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, V.Q.Qocayev 2024-cü il sentyabrın 5-də qanun pozuntularının baş verməsi iddiası ilə 63 saylı Hacıqabul - Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, bununla bağlı dairə seçki komissiyası 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı qərarı ilə həmin müraciət şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, dairə seçki komissiyası müraciətin şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmək barədə qərar qəbul etməklə düzgün hüquqi nəticəyə gəlmişdir. Bu səbəbdən də V.Q.Qocayevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 sentyabr 2024-cü il tarixli 91 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 63 saylı Hacıqabul - Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Vahid Qulaməli oğlu Qocayevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 sentyabr 2024-cü il tarixli 91 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.09.2024*

## QƏRAR № 45/225

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 sentyabr 2024-cü il tarixli 90 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 11 saylı Binəqədi - Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Mehdiyev Fəxrəddin Məhəddin oğlu 15 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 13 sentyabr 2024-cü il tarixli 29/86 saylı qərarını mübahisələndirmiş, seçki dairəsinin bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizəd F.M.Mehdiyev müraciətində səsvermə günü 11 saylı Binəqədi - Qaradağ seçki dairəsinin 1, 5, 7, 24, 25, 26, 32, 33, 34 və 37 saylı seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verildiyini, adları seçici siyahılarında olmayan seçicilərin səs verməsini, bir şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmasını, seçki bülletenlərinin topa şəkildə seçki qutularına atıldığını, səsvermənin nəticələrinə dair protokolun 3-cü nüsxəsinin məlumat lövhələrində asılmadığını iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə 22 akt əlavə etmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd F.M.Mehdiyevin şikayəti 11 saylı Binəqədi - Qaradağ seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 13 sentyabr 2024-cü il tarixli 29/86 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Ərizəçinin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək hüququ izah olunmuş, o, araşdırmada və komissiyanın iclasında iştirakdan imtina etmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq icraat materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Mərkəzi Seçki Komissiyasında aparılmış tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizəd tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

İcraat prosesində müəyyən edilmişdir ki, namizəd F.M.Mehdiyevin səsvermə günü baş verdiyi iddia edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə dairə seçki komissiyası qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış, o cümlədən maddi və prosessual hüquq normalarını düzgün tətbiq etməklə əsaslandırılmış qərar qəbul etmişdir.

Qeyd edilənlər əsas götürülərək, ərizəçinin müraciəti əsassız olduğundan təmin edilməməli və dairə seçki komissiyasının 13 sentyabr 2024-cü il tarixli 29/86 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 11 saylı Binəqədi - Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Mehdiyev Fəxrəddin Məhəddin oğlunun 15 sentyabr 2024-cü il tarixli 90 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 13 sentyabr 2024-cü il tarixli 29/86 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.09.2024*

## QƏRAR № 45/226

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 sentyabr 2024-cü il tarixli 89 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahverdiyev Araz Vəli oğlu 13 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin 83 və 84 saylı seçki məntəqələrinin təşkili və dairə seçki komissiyasının 11 sentyabr 2024-cü il tarixli 31/91 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Araşdırma prosesində o, telefon vasitəsilə şikayət üzrə bir sıra məqamlara aydınlıq gətirsə də, araşdırmaya və komissiyanın iclasına gəlməmişdir.

Namizəd A.V.Şahverdiyev müraciətində 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü pozuntular olmasını, həmçinin 83 və 84 saylı seçki məntəqələrinin harada yaradılması və yerləşməsi barədə məlumatsız olmasını bildirərək seçki dairəsinin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini və qeyd edilən seçki məntəqələrinin yaradılması barədə ona məlumat verilmədiyinə görə tədbir görülməsini tələb etmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Mərkəzi Seçki Komissiyasında aparılmış tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri, qeydə alınmış digər namizəd tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Bundan əlavə, araşdırma ilə müəyyən edilmişdir ki, seçki dairəsi üzrə 83 və 84 saylı seçki məntəqələri 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi dairə seçki komissiyasının 13 avqust 2024-cü il tarixli 25/75 saylı qərarı ilə Seçki Məcəlləsinin 35.5-ci maddəsinin tələblərinə uyğun yaradılmış, bu barədə dairə seçki komissiyasının qərarı müvafiq qaydada dərc edilərək ictimailəşdirilmişdir. Həmin seçki məntəqələrinin yaradılması barədə qərarın ictimailəşdirilməsi seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Ağayeva Natəvan Məhərrəm qızının izahatı ilə öz təsdiqini tapmışdır.

Araşdırma ilə namizəd A.V.Şahverdiyevin müraciətində iddia etdiyi digər hallara aid pozuntuların baş verməsi öz təsdiqini tapmamışdır.

Beləliklə, 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsinin dairə seçki komissiyası namizəd A.V.Şahverdiyevin müraciətinin təmin edilməməsi ilə bağlı düzgün nəticəyə gəldiyindən, dairə seçki komissiyasının 11 sentyabr 2024-cü il tarixli 31/91 saylı qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Bununla da, namizəd A.V.Şahverdiyevun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 sentyabr 2024-cü il tarixli 89 saylı müraciəti təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahverdiyev Araz Vəli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 sentyabr 2024-cü il tarixli 89 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 11 sentyabr 2024-cü il tarixli 31/91 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.09.2024*

## QƏRAR № 45/227

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə ümumi yekunların müəyyənləşdirilməsi ilə əlaqədar işlərin başa çatmış hesab edilməsi və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının seçkilərin ümumi yekunlarına dair Protokolunun tərtib olunması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçki dairələri üzrə səsvermənin yekunları barədə dairə seçki komissiyalarının qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada tərtib edilən protokolları müvafiq zəruri sənədlərlə birgə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 171.2-ci maddəsinin tələblərinə uyğun olaraq, həmin sənədlər müəyyən olunmuş müddət ərzində yoxlanılmışdır. Bunun nəticəsində 13 saylı Xəzər ikinci seçki dairəsinin 12 saylı, 15 saylı Yasamal birinci seçki dairəsinin 26 saylı, 18 saylı Nərimanov - Nizami - Binəqədi seçki dairəsinin 15 saylı, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 1 saylı, 38 saylı Gəncə birinci seçki dairəsinin 13 saylı, 41 saylı Gəncə - Samux - Goranboy seçki dairəsinin 38 saylı, 48 saylı Abşeron birinci seçki dairəsinin 4, 5 və 9 saylı, 52 saylı Yevlax seçki dairəsinin 2 və 8 saylı, 80 saylı Lerik - Astara seçki dairəsinin 88 saylı, 82 saylı İmişli - Saatlı seçki dairəsinin 41, 42, 44 və 45 saylı, 104 saylı Gədəbəy seçki dairəsinin 20, 25 və 34 saylı və 119 saylı Ağdam seçki dairəsinin 21 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyənləşdirilməsinin mümkünsüzlüyü səbəbindən həmin seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməli, eləcə də seçkilərin hazırlanması, keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı fəaliyyətlərində yol verdikləri nöqsanlara görə ümumilikdə 35 seçki məntəqəsinin məntəqə seçki komissiyaları buraxılmalıdır.

Qeyd edilənlər nəzərə alınmaqla, seçkilərin ümumi yekunlarının müəyyənləşdirilməsi üçün dairə seçki komissiyaları protokollarının və onlara əlavə olunmuş digər seçki sənədlərinin yoxlanılması işi başa çatmış hesab edilməlidir.

Beləliklə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2-ci maddəsinə görə, seçkilərin ümumi yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu tərtib edilməlidir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 23.2-ci, 28.2-ci, 28.4-cü, 108.2-ci və 171.2-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki dairələri üzrə səsvermənin yekunlarının yoxlanılması nəticəsində 13 saylı Xəzər ikinci seçki dairəsinin 12 saylı, 15 saylı Yasamal birinci seçki dairəsinin 26 saylı, 18 saylı Nərimanov - Nizami - Binəqədi seçki dairəsinin 15 saylı, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 1 saylı, 38 saylı Gəncə birinci seçki dairəsinin 13 saylı, 41 saylı Gəncə - Samux - Goranboy seçki dairəsinin 38 saylı, 48 saylı Abşeron birinci seçki dairəsinin 4, 5 və 9 saylı, 52 saylı Yevlax seçki dairəsinin 2 və 8 saylı, 80 saylı Lerik - Astara seçki dairəsinin 88 saylı, 82 saylı İmişli - Saatlı seçki dairəsinin 41, 42, 44 və 45 saylı, 104 saylı Gədəbəy seçki dairəsinin 20, 25 və 34 saylı və 119 saylı Ağdam seçki dairəsinin 21 saylı seçki məntəqələrində seçicilərin iradəsini müəyyən etmək mümkünsüz olduğundan, həmin məntəqələr üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin, seçkilərin hazırlanması, keçirilməsi və nəticələrin müəyyənləşdirilməsi zamanı fəaliyyətlərində yol verdikləri nöqsanlara görə, ümumilikdə 35 seçki məntəqəsinin məntəqə seçki komissiyaları buraxılsın (Əlavə 1).

2. Seçkilərin ümumi yekunlarının müəyyənləşdirilməsi üçün dairə seçki komissiyalarının səsvermənin yekunlarına dair protokolları və onlara əlavə edilmiş digər seçki sənədlərinin yoxlanılması işi başa çatmış hesab olunsun.

3. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin ümumi yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu tərtib edilsin.

4. Bu Qərar dərc olunduğu gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.09.2024*

*Əlavə 1*

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə tərkibi buraxılmış məntəqə seçki komissiyalarının

### S İ Y A H I S I

| Seçki dairələrinin sıra sayı və adı | Məntəqə seçki komissiyaları |
|---|---|
| 13 saylı Xəzər ikinci | 12 |
| 15 saylı Yasamal birinci | 26 |
| 18 saylı Nərimanov-Nizami-Binəqədi | 15 |
| 21 saylı Nəsimi-Binəqədi | 30 |
| 22 saylı Nəsimi-Yasamal | 2, 14, 20 |
| 23 saylı Nəsimi-Səbail | 17 |
| 24 saylı Nizami birinci | 4, 6, 28, 31, 33 |
| 31 saylı Suraxanı ikinci | 1, 18*, 34*, 35* |
| 38 saylı Gəncə birinci | 13 |
| 41 saylı Gəncə-Samux-Goranboy | 38 |
| 52 saylı Yevlax | 2 |
| 70 saylı Neftçala | 27, 34, 35, 49, |
| 82 saylı İmişli-Saatlı | 41, 42, 44, 45 |
| 86 saylı Ağcabədi | 7 |
| 97 saylı Tərtər-Ağdərə-Goranboy | 3, 4, 18 |
| 104 saylı Gədəbəy | 20, 25, 34 |
| **Cəmi:** | **35** |

* DSK tərəfindən səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələri

## QƏRAR № 45/228

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin ümumi yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Protokolunun təsdiq edilməsi və seçkilərin yekunlarının təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçki dairələri üzrə səsvermənin yekunları barədə dairə seçki komissiyalarının qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada tərtib edilən protokolları müvafiq zəruri sənədlərlə birgə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 171.2-ci maddəsinin tələblərinə əsasən, sözügedən sənədlərin və seçkilərin ümumi yekunlarının müəyyənləşdirilməsi üçün dairə seçki komissiyaları protokollarının onlara əlavə olunmuş digər seçki sənədləri ilə birlikdə qanunvericilikdə nəzərdə tutulmuş müddətdə yoxlanılması işi başa çatdırılmış, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2-ci maddəsinə uyğun olaraq, seçkilərin ümumi yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu tərtib edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 171.2-ci maddəsinə görə, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermə günündən ən geci 20 gün keçənədək dairə seçki komissiyalarının protokollarını zəruri sənədlərlə birgə yoxlayır və 24 saat müddətində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edir.

Beləliklə, seçkilərin yekunlarının yoxlanılması və təsdiq olunması məqsədilə qeyd edilən seçki sənədlərinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 86-cı və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 108.2-ci, 108.3-cü və 171-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin ümumi yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu təsdiq edilsin və seçkilərin yekunlarının yoxlanılıb təsdiq olunması üçün müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilsin.

2. Protokol dərc olunsun (Protokol əlavə edilir).

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.09.2024*








# Sürət, həyəcan və möhtəşəm Azərbaycan Qran-prisi

## Bakı daha bir mötəbər idman tədbirinə yüksək səviyyədə evsahibliyi etdi

**Dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisi başa çatdı. Azərbaycan sayca 8-ci dəfə bu möhtəşəm yarışa uğurla evsahibliyi etdi. Dünya növbəti dəfə azərbaycanlıların mehribanlığına, qonaqpərvərliyinə, qədim tarixinə, füsunkar təbiətinə, mentalitetinə şahidlik etdi.**

Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb etdi. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə gördü. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıtdı.

Sentyabrın 13-də başlayan yarışların sonuncu günü həyəcanlı keçib. Sentyabrın 15-də Qran-prinin açılış mərasimi baş tutub. Mərasim Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Mərasimdə himn klassik üslubda ifa edilib və səhnə tərtibatı açılan xalça motivini xatırladıb. "Xan Qarabağ" xalçalarının sadə naxışlarından ilhamlanaraq hazırlanmış səhnə Azərbaycanın zəngin mədəni irsini əks etdirib. Açılışdan sonra "Formula-1" Azərbaycan Qran-prisi-2024 start götürüb.

"Formula-1" yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Sürücülər qalibi müəyyənləşdirmək üçün Bakı Şəhər Halqasında iki saat ərzində 51 dövrə vurublar.

Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13 metrdir, ən dar hissəsi isə İçərişəhər ətrafında olan hissələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

İki saata yaxın davam edən gərgin idman mübarizəsinin sonunda "McLaren"in avstraliyalı pilotu Oskar Piastri Qran-prinin qalibi olub. Şarl Lekler ("Ferrari") ikinci, Corc Rassell ("Mercedes") üçüncü sırada qərarlaşıb. Sonra "Formula-1" Azərbaycan Qran-prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Əvvəlcə qalib idmançının və komandanın şərəfinə Böyük Britaniya və Avstraliya Dövlət himnləri səsləndirilib.

Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və "Qatar Airways"in Afrika üzrə vitse-prezidenti Hendrik Du Preez təqdim ediblər.





İlk gündə keçirilmiş birinci sərbəst yürüşdə "Red Bull" komandasının niderlandlı sürücüsü Maks Ferstappen, ikinci sərbəst yürüşdə "Ferrari"də çıxış edən monakolu Şarl Lekler finişə hamıdan tez çatıblar.

Sentyabrın 14-də təşkil olunmuş üçüncü sərbəst yürüşdə ən yaxşı nəticəyə "Mercedes"in britaniyalı pilotu Corc Rassell, sıralama turunda isə Şarl Lekler imza atıblar.

Builki dünya çempionatına fevralın 29-dan martın 2-dək Bəhreyn Qran-prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanı, Avstraliya və Yaponiya, Çin, ABŞ, İtaliya (İmola), Monako, Kanada, İspaniya, Avstriya, Böyük Britaniya, Macarıstan, Almaniya, Niderland və İtaliyada (Monza) təşkil olunub. Yarışlara dekabrın 6-8-də Əbu-Dabidə yekun vurulacaq.

Beləliklə, 16 Qran-pridən sonra pilotların siyahısında "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen 313 xalla liderdir. "McLaren"də çıxış edən Lando Norris 254 xalla ikinci yeri tutub. İlk "beşliy"i isə 235 xalla Şarl Lekler ("Ferrari"), 222 xalla Oskar Piastri ("McLaren"), 184 xalla Karlos Sayns ("Ferrari") tamamlayıblar.

Konstruktorlar kubokuna isə 476 xalla "McLaren" komandası başçılıq edir. "Red Bull" 456 xalla ikinci, "Ferrari" 425 xalla üçüncü pillədə yer alıblar.

Beləliklə, qarşıya qoyulmuş vəzifə - idman tədbirinin tələb olunan səviyyədə təşkili və onun iştirakçılarının ədalətli mübarizə aparması üçün lazımi şəraitin yaradılması uğurla icra olundu. Bakı Şəhər Halqası əməliyyat şirkəti əlaqədar dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində idman tədbirini ən yüksək səviyyədə təşkil etdi, "Formula-1" komandalarının və yarışı televiziya ilə izləyən yüz milyonlarla motoidman azarkeşinin rəğbətini qazandı. Mübaliğəyə varmadan demək olar ki, Azərbaycanda Qran-prinin təşkili təqdirəlayiq idi.

***"Azərbaycan"***

## *"Ferrari"nin pilotu Karlos Sayns:*
## "Azərbaycan himni mənə güc verir"

"Bakıda olduqca həyəcanlı və rəqabətli mübarizə keçdi". AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran-prisinin sıralama turunda üçüncü olan "Ferrari"nin pilotu Karlos Sayns mətbuat konfransında deyib.

İspaniyalı sürücü Bakının ən yaxşı treklərdən biri olduğunu söyləyib: "Burada çoxlu döngələr var. Bəzi döngələrdə sürəti azaltmaq məcburiyyətində qalırsan. Bu, sürücüdə stressə səbəb olur. Amma mən rahat idim, həyəcanımı boğa bilmişdim. Belə çətin treklər özümü inkişaf etdirməyimə kömək olur".

O, ilk "üçlük"də yer almağın yaxşı nəticə olduğunu vurğulayıb.



Pilot Azərbaycan himninə qulaq asmağı sevdiyini bildirib: "Nədənsə bu musiqi mənə güc verir. Himnin sözlərini əzbər bilməsəm də, melodiyasını çox xoşlayıram. Bu musiqini eşidəndə tüklərim biz-biz olur".

## Azərbaycan Qran-prisinin builki kuboku "Odlar yurdu"na həsr edilib



**"Formula-1" Azərbaycan Qran-prisi-2024-ün qaliblərinə təqdim olunan kubok milli üslubda dizaynı ilə diqqəti cəlb edib.**

Rəsmi mükafat Qarabağ xalçalarının xarakterik naxışlarından ilham alaraq hazırlanıb. Bu naxışlar həm zövq oxşayan gözəllik, həm də ölkənin köklü sənət və sənətkarlıq ənənələrini yaşatdığına işarədir.

Dizaynda istifadə olunan alov Azərbaycanın "Odlar yurdu" kimi tanındığını və ölkəmizin idman sahəsindəki yüksək nüfuzunu vurğulayır. Milli naxışlar və elementlər yarışın saf gümüşdən hazırlanmış hər üç kubokunun üzərində mövcuddur.

## Rixard Versxor "Formula-2" Azərbaycan Qran-prisinin qalibi olub



"Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində Bakıda "Formula-2" yarışları da keçirilib. Bu yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb.

Sentyabrın 13-də "Formula-2" üzrə sərbəst yürüş və sıralama yarışı təşkil olunub. Birinci sərbəst yürüşdə "Van Amersfoort" komandasının braziliyalı pilotu Enzo Fittipaldi, sıralama turunda isə "Trident"də çıxış edən niderlandlı sürücü Rixard Versxor finişə hamıdan tez çatıb. Ertəsi gün isə sprint yarışı baş tutub. Ən yaxşı nəticəni "PHM AIX Racing" komandasının paraqvaylı pilotu Yosua Dürksen göstərib.

Sentyabrın 15-də keçirilən əsas yarışda isə R.Versxor "Formula-2" Azərbaycan Qran-prisinin qalibi olub.

# "Azərbaycan Qran-prisinin qadın marşalları idman dünyası üçün yeni ilham mənbəyi olacaq"



"Formula-1" Azərbaycan Qran-prisi-2024 qadınların fəal rolunu vurğulamaq üçün bir ilkə imza ataraq Bakı Şəhər Halqasının həlledici, 16-cı döngəsində "Qadın Marşal Postu" yaradıb. Artıq üçüncü ildir ki, tətbiq edilən bu təşəbbüslə qadın marşallar yarış əməliyyatlarında ön sıralarda olur ki, bu da yeniliyə və tədbirin əhəmiyyətli məqamına çevrilir.

Bakı Şəhər Halqası əməliyyat şirkətinin baş direktoru Maqsud Fərzullayev və Azərbaycanda səfərdə olan Beynəlxalq Avtomobil Federasiyasının (FIA) prezidenti Mohammed Ben Sulayem qadın marşallarla görüşüb. FIA prezidenti qadın marşalların fəaliyyətini belə dəyərləndirib: "Qürurverici haldır ki, Azərbaycan Avtomobil Federasiyası və Bakı Şəhər Halqası əməliyyat şirkəti qadınların idmandakı nüfuzunun artması üçün bu cür təşəbbüslə çıxış edib. Bərabərlik, müxtəliflik və inklüzivlik siyasəti FIA-nın başlıca qayəsi olmaqla qadınların idarəçilik mövqeyinin artmasına töhfə vermək vacib məqsədlərimizdəndir. Ümid edirəm Bakı yarışının qadın marşalları idman dünyası üçün yeni ilham mənbəyi olacaq".

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə inamlı qələbə münasibətilə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini "AMANAT" Partiyası və şəxsən öz adımdan təbrik edirəm.

Seçicilərin əksəriyyətinin Yeni Azərbaycan Partiyasına səs verməsi vətəndaşların ölkənin aparıcı siyasi partiyasına yüksək etimadını göstərir.

Azərbaycan vətəndaşları dayanıqlı iqtisadi inkişafın gücləndirilməsinə, cəmiyyətin konsolidasiyasına və xalqın rifahının yüksəldilməsinə yönəlmiş siyasi kursa geniş dəstək nümayiş etdirmişlər.

Partiyalarımızın əməkdaşlığı Qazaxıstan və Azərbaycan arasında strateji tərəfdaşlıq üçün mühüm amil rolunu oynayır.

Biz münasibətlərimizin ortaq gələcəyinə inamla baxırıq.

Bütün partiya üzvlərinə Azərbaycan Respublikasının firavanlığı naminə yeni uğurlar arzulayıram!

*Hörmətlə,*

***Daulet KƏRİBEK,***
***"AMANAT" Partiyasının İcra katibi***

# Moskvada BRICS ölkələrinin media sammiti başa çatıb

Moskvada keçirilən BRICS ölkələrinin 7-ci Media Sammiti işini başa çatdırıb. AZƏRTAC xəbər verir ki, sammit çərçivəsində "Çoxqütblü dünyada sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsində BRICS media ictimaiyyətinin rolu" mövzusunda "dəyirmi masa" formatında panel müzakirələri keçirilib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin də qatıldığı tədbirdə moderator qismində TASS-ın baş direktorunun birinci müavini Mixail Qusman çıxış edib.

Tədbir çərçivəsində Rusiyanın TASS İnformasiya Agentliyinin 120 illik yubileyinə həsr olunmuş MDB ölkələrinin humanitar universitetlərinin və dövlət ali təhsil müəssisələrinin humanitar fakültələri tələbələrinin əsərlərinin beynəlxalq müsabiqəsinin qalibləri mükafatlandırılıb. Qaliblər arasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsi Nargilə Məhərrəmova da olub.

Diplomları qaliblərə TASS-ın baş direktoru Andrey Kondraşov və MDB ölkələrinin humanitar universitetləri rektorlarının və dövlət ali təhsil ocaqlarının humanitar fakültələri dekanları Forumunun Koordinasiya Şurasının sədri, akademik Yefim Pivovar təqdim ediblər.

Müsabiqəyə Birlik ölkələrindən 50 universitetin "TASS MDB məkanındakı informasiya proseslərində" mövzusunda esse yazan tələbələri qatılıblar.

Sammit Yekun Bəyannamənin qəbul olunması ilə başa çatıb.




QƏRAR № 44/222

# 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 sentyabr 2024-cü il tarixli 88 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Şükürova Ülviyyə Məmməd qızı 12 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçki günü seçki dairəsinin bəzi seçki məntəqələrində müxtəlif xarakterli qanun pozuntularına yol verildiyini iddia etmiş, dairə seçki komissiyasının 8 sentyabr 2024-cü il tarixli 23/71 saylı qərarını mübahisələndirmiş, həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırmada iştirakı təmin edilmişdir. Ərizəçi komissiyanın iclasına gəlməmişdir.

Namizəd Ü.M.Şükürova müraciətində səsvermə günü 24 saylı Nizami birinci seçki dairəsinin seçki məntəqələrində səsvermə prosesinin və səslərin hesablanmasının qanunvericiliyin tələblərinə uyğun aparılmadığını iddia edərək, araşdırmanın yenidən aparılmasını və həmin seçki dairəsi üzrə nəticələrin ləğv edilməsini tələb etmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd Ü.M.Şükürovanın şikayəti 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 8 sentyabr 2024-cü il tarixli 23/71 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır. Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, aparılan araşdırma ilə səsvermə günü seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları təsdiqini tapmamış, səsvermənin keçirilməsi və nəticələrin müəyyənləşdirilməsi zamanı seçicilərin iradəsini sərbəst şəkildə ifadə etməyə imkan verməyən qanun pozuntuları aşkar edilməmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın qəbul edilməsi üçün əsas olmuş sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Araşdırmanın tərkib hissəsi kimi dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Ərizəçi tərəfindən təqdim edilmiş 26 protokol nüsxəsinin (qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiqlənmiş) rəsmi protokollarda olan məlumatlarla müqayisəli araşdırılması, səsvermə günü sosial şəbəkələrdə həmin seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülər və iş üzrə təqdim edilən digər materialların araşdırılması zamanı 4, 6, 28, 31 və 33 saylı seçki məntəqələri üzrə seçkilərin nəticələrinə təsir edə biləcək müxtəlif xarakterli pozuntular aşkar edilmişdir. Bu səbəbdən də, göstərilən seçki məntəqələrində müəyyən edilmiş qanun pozuntuları seçki qanunvericiliyinin tələblərinə görə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hal kimi qiymətləndirildiyindən, qeyd edilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Araşdırma ilə müraciətdə mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallar aşkar edilməmişdir.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilən seçki məntəqələrinin sayı seçki dairəsi üzrə seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etmədiyindən, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmamışdır.

Beləliklə, 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Ü.M.Şükürovanın müraciəti qismən təmin edilməli, həmin seçki dairəsinin 4, 6, 28, 31 və 33 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməli, dairə seçki komissiyasının 8 sentyabr 2024-cü il tarixli 23/71 saylı qərarı 4, 6, 28, 31 və 33 saylı seçki məntəqələrinə aid hissədə ləğv edilməli, digər hissələrdə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Şükürova Ülviyyə Məmməd qızının 12 sentyabr 2024-cü il tarixli 88 saylı müraciəti qismən təmin olunsun, seçki dairəsinin 4, 6, 28, 31 və 33 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. 24 saylı Nizami birinci seçki dairəsi dairə seçki komissiyasının 8 sentyabr 2024-cü il tarixli 23/71 saylı qərarı 4, 6, 28, 31 və 33 saylı seçki məntəqələrinə aid hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.09.2024*

# MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının iclası olub

AZƏRTAC-ın yetmişə yaxın əməkdaşı COP29 çərçivəsində keçiriləcək tədbirləri işıqlandıracaq.

AZƏRTAC xəbər verir ki, bu barədə agentliyin İdarə Heyətinin sədri Vüqar Əliyev MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının XXXII iclasında bildirib. Tədbir Moskvada TASS agentliyinin 120 illiyinin qeyd olunması günləri çərçivəsində təşkil edilib.



TASS-ın rəhbərliyini və kollektivini yubiley münasibətilə təbrik edən Vüqar Əliyev deyib ki, dünya brendi olan bu agentlik jurnalist dəyərlərinin qorunub saxlanması və innovasiyalara açıq olması sayəsində informasiya sahəsində nüfuz qazanıb.

Qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) haqqında danışan AZƏRTAC-ın İdarə Heyətinin sədri qeyd edib: "Bildiyiniz kimi, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi üzrə dünyanın bu ən böyük tədbiri havanın çirklənməsini, təbiətə zərərli təsirləri azaltmaq üçün qərarların müzakirə və qəbul edildiyi qlobal platformadır. COP29-da dünyanın müxtəlif ölkələrindən səksən minə yaxın qonağın iştirak edəcəyi gözlənilir".

Agentliyin İdarə Heyətinin sədri vurğulayıb ki, tədbir çərçivəsində media subyektlərinə xüsusi şərait yaradılacaq, media mərkəzi, konfrans zalları, müsahibələr üçün otaqlar ayrılacaq. "AZƏRTAC da bu tədbiri işıqlandıracaq. Materialları tərəfdaşlarımızla paylaşacağıq. Yetmişə yaxın əməkdaşımız COP29 sahələrində çalışacaq. Bildiyiniz kimi, COP29 çərçivəsində bir çox müxtəlif konfrans, seminar və təqdimatlar keçiriləcək. İmkan daxilində bu tədbirləri mətn, foto və videomateriallarla əhatə etməyə çalışacağıq", - deyə o əlavə edib.

V.Əliyev həmçinin dost agentliklərlə həm İnformasiya Şurası çərçivəsində, həm də ikitərəfli qaydada əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, qarşıda çoxsaylı əlamətdar hadisə - faşizm üzərində Qələbənin 80 illiyi, Gəncədə keçiriləcək MDB Oyunları, ölkələrimizdə təşkil edilməsi nəzərdə tutulan başqa tədbirlər var. Hər zaman olduğu kimi, tərəfdaşlarımızı dəstəkləməyə hazırıq.

İclas iştirakçıları dövlət xəbər agentliklərinin beynəlxalq layihələri, iqlim gündəmi, mədəniyyət, elm, gənclər arasında mübadilə, turizm və idman sahələrində mövzuların işıqlandırılmasında əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Jurnalist mübadiləsi və peşəkarlığın artırılması çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətləri də nəzərdən keçirilib.

Xatırladaq ki, MDB İnformasiya Şurası 1995-ci ildə MDB ölkələri arasında informasiya sahəsində qarşılıqlı əlaqənin və əməkdaşlığın təmin edilməsi, informasiyanın maneəsiz yayılması və peşəkar təcrübə mübadiləsi üçün əlverişli şəraitin yaradılması, habelə media tərəfdaşlığının gücləndirilməsi məqsədilə təsis olunub.

# Moskvada OANA İcraiyyə Komitəsinin 53-cü iclası keçirilib

Moskvada Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 53-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edib.

Tədbir iştirakçıları OANA-nın 19-cu Baş Assambleyasının gələn il yayın əvvəlində Moskvada keçirilməsi barədə qərar qəbul ediblər. Təşkilatçı qismində TASS İnformasiya Agentliyi çıxış edəcək ki, o da növbəti dörd il ərzində təşkilatın prezidenti olacaq. OANA İcraiyyə Komitəsinin növbəti iclası 2025-ci ilin fevralında Malayziyada bu ölkənin BERNAMA İnformasiya Agentliyinin təşkilati dəstəyi ilə keçiriləcək. Təşkilatın üzvləri "Redaksiyaların işində etik standartlar" və "Media sənayesində süni intellektin tətbiqinin etik aspektləri" mövzularında panel sessiyalarında da iştirak ediblər.

Qeyd edək ki, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı 1961-ci ildə təsis edilib. Hazırda OANA 35 ölkədən 40-dan çox informasiya agentliyini özündə birləşdirir. AZƏRTAC 2004-cü ildən OANA-nın üzvüdür.

# Xarici ölkələrdə işlə təmin etmək adı altında vətəndaşların külli miqdarda pulunun ələ keçirilməsi faktı üzrə cinayət işi başlanıb

"Tempo Trips" və "365 Tourism" Məhdud Məsuliyyətli cəmiyyətlərinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş çoxsaylı vətəndaş müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, araşdırma zamanı həmin şirkətlərin vəzifəli şəxslərinin qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, xarici ölkələrdə işlə təmin edilmək məqsədilə onlara müraciət etmiş çoxsaylı vətəndaşlara yalan vədlərin verilməsi yolu ilə sonuncuların külli miqdarda pul vəsaitini qanunsuz olaraq ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Baş İdarədə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmaqla ibtidai istintaq aparılır.

Qeyd edilən şəxslərin qanunazidd əməllərinə məruz qalmış vətəndaşlardan Baş Prokurorluğun "961" Çağrı mərkəzinə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə, eləcə də sosial şəbəkələrdəki səhifələrinə müraciət etmələri xahiş olunur.

# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur

**Qarşıdan Vətən müharibəsinin başlanmasının 4-cü, antiterror tədbirlərinin isə birinci ildönümü gəlir. Torpaqlarımızın işğaldan azad edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunması və erməni separatizminə son qoyulması ilə nəticələnən bu hadisələr tariximizi şərəfləndirdi, xalqımızı qürurlandırdı. Eyni zamanda tarixi nailiyyətlər təsdiq etdi ki, Azərbaycan öz milli maraq və mənafelərini qətiyyətlə təmin edə bilən dövlətdir.**



## Azərbaycan nümunəsi

### Dövlətimiz milli maraq və mənafelərini qətiyyətlə təmin edir

#### Müstəqil siyasətin möhtəşəm nəticələri

Ümumiyyətlə, müstəqillik tariximiz qürurdoğuran həqiqətlərlə zəngindir. Bu həqiqətlərdən biri yerləşdiyi coğrafi bölgənin aparıcı dövləti kimi tanınan Azərbaycanın qlobal səviyyədə də söz sahibi kimi qəbul edilməsidir. Bir vaxtlar dərin siyasi və iqtisadi böhranlar məngənəsində olan Azərbaycan indi regionda və dünyada özünün möhkəm mövqeləri, yüksək nüfuzu ilə fərqlənən dövlətdir. Azərbaycan o dövlətlərdəndir ki, dünyada sülhə, təhlükəsizliyə, mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük töhfələr verir.

Əlbəttə, Azərbaycanın regional və qlobal miqyasda uğurlarını şərtləndirən ən mühüm səbəblərdən biri yürütdüyü müstəqil siyasətdir. Bu siyasətin müstəqil olması, xalqın və dövlətin maraqlarına xidmət etməsi güclü respublikamızın uğurlarını xarakterizə edən əsas məqam kimi özünü göstərir. Azərbaycanın bütün regional və qlobal məsələlərə dair özünün mövqeyi var. Prezident İlham Əliyev bununla bağlı deyib: "Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik".

Müstəqil siyasət yürütmək hər dövlətə nəsib olmur. Ermənistanın nümunəsində bunu görmək mümkündür. Yaxud müstəqil siyasət yürüdüb xarici təzyiqlərin qarşısında duruş gətirə bilmək də hər dövlətin işi deyil. Bununla bağlı kifayət qədər nümunələr çəkmək olar. Müstəqil siyasət yürütmək qlobal proseslərdə fəal iştirak etmək, öz mövqeyini göstərmək, milli mənafelərini təmin edə bilməkdir. Bu kontekstdən yanaşanda Azərbaycan həm müstəqil siyasət yürüdən, həm də ona qarşı olan bütün təzyiqləri qətiyyətlə dəf edərək, öz milli maraqlarını inamla reallaşdıran dövlətdir.

Azərbaycanın müstəqil siyasi kursunun nəticəsidir ki, enerji siyasətimiz dövlətimizin milli maraqlarına uğurla xidmət edir. Reallaşan hər bir enerji və nəqliyyat layihəsi məhz Azərbaycanın qətiyyətli siyasətinin təcəssümüdür. Bu yolda respublikamız antiazərbaycançı dairələrə, dünya erməniliyinə sinə gərib, onların bütün planlarını iflasa uğradıb. Azərbaycanın regionda söz sahibi olması onun müstəqil siyasətinin təntənəsidir.

#### Mükəmməl təqdimat

Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağda erməni separatizminə son qoyulması və bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpa olunması bir daha Azərbaycanın qətiyyətli siyasətinin möhtəşəm nəticələri oldu. Bu zəfərlərin hər biri Azərbaycanın qlobal səviyyədə nümunəvi təqdimatına çevrildi. Belə ki, Vətən müharibəsinə qədər Azərbaycanı regionun lideri kimi tanıyan beynəlxalq ictimaiyyət 2020-ci ilin payızından onu həm də torpaqlarını güc yolu ilə azad edən dövlət, qalib ölkə kimi tanıyır.

Bu gün dünyada işğala və separatçılığa məruz qalan neçə dövləti göstərə bilərik. Lakin ərazisinin işğalına son qoymağı bacaran dövlət tapmaq əsla mümkün deyil. Bu mənada respublikamız torpaqlarını döyüş yolu ilə işğaldan azad etməklə, çağdaş dövrümüzdə nadir bir nümunəyə imza atdı. "Bu, bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir. Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər", - deyə dövlətimizin başçısı Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışında bildirmişdi.

Torpaqlarımızın azadlığı təsdiq etdi ki, ədalətsizliyin və ikili standartların hökm sürdüyü bir şəraitdə yalnız qətiyyətli və müstəqil siyasəti olan dövlətlər öz haqlarını inamla təmin edə bilərlər.

#### Etibarlı tərəfdaş

Bir məsələni də qeyd edək ki, Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət Azərbaycanı qalib dövlətə çevirməklə, regionun lider dövləti səviyyəsinə yüksəltməklə yanaşı, ölkəmizi dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Dünyada ölkəmizə güvənirlər, etimad göstərirlər. Avropa İttifaqına üzv dövlətlərin 10-u ilə Azərbaycan arasında strateji tərəfdaşlıq adlanan sənədlərin imzalanması da bunu təsdiq edir. Avropa İttifaqının Azərbaycanla enerji təhlükəsizliyi sahəsində fəal əməkdaşlıq etməsi də bundan irəli gəlir.

Prezident İlham Əliyevin müdrik siyasətinin nəticəsi olaraq Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrilib. Ərazi bütövlüyümüzün bərpasından sonra isə respublikamız öz tarixinin və inkişafının yeni mərhələsinə qədəm qoyub. Qalib Azərbaycan bu mərhələdə də özünün milli maraqlarını qətiyyətlə təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Qərb-Ermənistan-Rusiya üçbucağında nələr baş verir?

### Hayastan hərbi poliqona çevrilir

"Son günlərdə Qərblə Ermənistanın yaxınlaşması ilk baxışda bunun Rusiyaya qarşı yönəldiyinin görüntüsünü yaradır. Qərb Ermənistanı silahlandırır, maliyyə dəstəyi göstərir və regionda sülhün yaranmasına qarşı olduğuna dair nümayişkaranə çıxışlar edir. Bu həm də bəzi siyasətçilərin dili ilə desək, Ermənistanda Rusiyanın sıxışdırılmasına xidmət edir. Yəni Qərb Rusiyanı Ermənistandan çıxararaq Cənubi Qafqaza öz nəzarətini təmin etməyə çalışır. Hətta Zvartnos hava limanından Rusiya sərhədçilərinin çıxarıldığının, sonra ABŞ hərbi təyyarələri ilə İrəvana hərbi yüklərin daşındığının və Pentaqon nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyinin qərargahında yerləşdirildiyinin şahidi olduq. Zəngəzura ABŞ hərbçilərinin və silahlarının da yerləşdirildiyini müşahidə etdik".



Bu fikirləri "Azərbaycan" qəzetinə siyasi şərhçi Azər Badamov deyib. O bildirib ki, Qərb-Ermənistan-Rusiya üçbucağında nələr baş verdiyi bəllidir. Əslində, bu üçbucaq onu göstərir ki, Qərblə Rusiya göründüyü kimi bir-birinə düşmən deyillər. Onlar ortaq mövzularda eyni mövqedən çıxış edir və lazım gələndə səslərini belə çıxarmırlar.

"Qərb Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyatına görə Rusiyaya genişmiqyaslı sanksiyalar tətbiq etdi və onunla əməkdaşlıq edən ölkələrə də təzyiq göstərməyə başladı. Beləliklə, ABŞ, Fransa və Belçika Rusiyanı birnömrəli düşmən hesab etdilər və bu ölkə ilə bütün əlaqələrini minimuma endirməyə çalışdılar. Əslində, Rusiya Ukraynada kollektiv Qərblə müharibə aparır. Paşinyan hakimiyyəti də Ermənistanın Qərbə inteqrasiyaya başladığını və Rusiyanın ünvanına ittihamlar səsləndirməklə siyasi kursunu dəyişdiyini göstərməyə çalışdı. Hətta Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxacağı və MDB sammitlərinə qatılmaqdan imtina etdiyi də gündəmə gətirildi. Ermənistan parlamentinin sədri Alen Simonyanla Rusiya XİN-in sözçüsü Mariya Zaxarova arasında qarşılıqlı ittihamlarla dolu çıxışlar oldu. İlk görünüşdə Qərb-Ermənistan-Rusiya üçbucağında böhranın dərinləşdiyini görmək olur. Amma reallıq belədirmi?", - deyə o əlavə edib.

Bu üçbucaqda baş verən hadisələrin siyasi teatr olduğunu vurğulayan A.Badamov bildirib ki, bütün bunlar beynəlxalq ictimaiyyəti aldatmaq üçün qurulmuş siyasi səhnələrdir. Əslində, Ermənistan Rusiya ilə Qərb arasında əməkdaşlığın körpüsünü yaratmaqla, rəsmi Moskvanı sanksiyalardan yayındırmaqla böyük gəlirlər qazanır: "Qərbin Rusiyaya sanksiyalar tətbiq etməsindən sonra Ermənistan-Rusiya əlaqələrinə qısa nəzər salsaq, Qərb-Ermənistan-Rusiya üçbucağında tamamilə başqa səhnəni görərik. Belə ki, sentyabrın 15-də İrəvanda Rusiyanın Baş nazirinin birinci müavini Aleksey Overçukla erməni həmkarı Mqer Qriqoryan arasında 5 saatdan çox davam edən görüşdə iki ölkə arasında ticarət dövriyyəsinin dinamikasını əks etdirən çox maraqlı rəqəmlər açıqlanıb. Belə ki, Ermənistanla Rusiya arasında 2020-ci ildə ticarət dövriyyəsi 2,3 milyard dollar olub. Sanksiyalar qüvvəyə mindikcə iki ölkə arasında ticarət dövriyyəsi sürətlə artmağa başlayıb. Bu göstərici 2021-ci ildə 2,4 milyard dollar, 2022-ci ildə 5 milyard dollar, 2023-cü ildə 7,4 milyard dollar və 2024-cü ilin birinci yarımilliyində isə 8,4 milyard dollar təşkil edib".

A.Badamovun sözlərinə görə, baş nazirlərin birinci müavinləri iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasının perspektivlərinin geniş olduğunu və 2024-cü ilin sonuna qədər 14-16 milyard dollar olacağını qeyd ediblər. Sual yaranır ki, Ermənistanla Rusiya arasında bu qədər ticarət dövriyyəsi nəyin hesabına reallaşır. Halbuki Ermənistanın sənaye və kənd təsərrüfatı istehsalının bu rəqəmlərə yaxın olması mümkün deyil. Sualın cavabı həm Qərbə, həm də Rusiyaya yaxşı məlumdur.

Ermənistanın sanksiya altında olan malları Rusiyaya öz şirkətləri vasitəsilə idxal etdiyini bildirən ekspert deyib ki, bu ölkə eynilə Rusiya məhsullarını da xarici bazarlara ixrac edir: "2023-cü ildə Rusiyadan Ermənistana və oradan Səudiyyə Ərəbistanına 1,8 milyard dollarlıq qızıl və 600 milyon dollarlıq brilyant daşları ixrac olunub. Nəticədə qazanan Ermənistan olur. İnanmaq çətindir ki, Qərb Ermənistanın bu hərəkətlərini görmür. Ermənistan isə qazandıqları milyardları silah almağa xərcləyir. Belə ki, Ermənistanın Hindistanla bağladığı müqaviləyə əsasən, 2024-cü ildə 2,5 milyardlıq silah tədarük olunub. 2026-cı ilin sonuna qədər isə bu rəqəmin 6,5 milyard dollara çatdırılması planlaşdırılır. Fransadan və ABŞ-dən Ermənistana silahlar daşınır. Qərb Ermənistan-Rusiya əməkdaşlığına göz yumaraq bu ölkəni hərbi poliqona çevirir. O cümlədən Rusiya da müharibə vəziyyətində olmasına baxmayaraq, Ermənistanı silahlandırmaqda davam edir. 2022-ci ildən müharibə vəziyyətində olduğunu bəhanə edərək Azərbaycana bir patronu belə satmayan Rusiya Ermənistana "Smerç" raket qurğuları və digər silahları tədarük edir. Bütün baş verən proseslər onu deməyə əsas verir ki, Qərb-Rusiya əməkdaşlığı Ermənistan üzərindən davam edir və lazım gələndə bu əməkdaşlıq daha da möhkəmlənir".

Siyasi şərhçi bildirib ki, sürətlə silahlanan Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasını sabotaj etməyə başlayıb. Qərbin və Rusiyanın dəstəyinə arxalanan Ermənistanın baş naziri Paşinyanın danışıq tərzi də dəyişib. Belə ki, İrəvan dialoq forumunda çıxış edən Paşinyan Azərbaycanla sülh müqaviləsini razılaşdırılmış 13 bənd üzrə imzalamağa hazır olduğunu bildirib. Paşinyan xarici dairələrdən güc aldıqca yarımçıq sülh müqaviləsi imzalamaqla gələcəkdə yenidən müharibənin başlanması üçün əl yeri saxlamağa çalışır. İki ölkə arasında razılaşdırılmamış 3 bənd münasibətlərin normallaşmasına ciddi maneə yaradır. Azərbaycanın dəyişilməz tələbi Ermənistan Konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının rəsmi şəkildə çıxarılmasıdır. Paşinyan sülh müqaviləsinin imzalanması ilə münasibətlərin normallaşacağını deyir, amma heç bir sənəd ölkənin Ana Qanunundan üstün ola bilməz. Ona görə də Ermənistan sülh istəyirsə, Konstitusiyasında müvafiq dəyişikliyi mütləq etməlidir.

Paşinyanın forumda 10 noyabr üçtərəfli Bəyanatının 9-cu bəndini dilə gətirdiyini xatırladan A.Badamov qeyd edib ki, o, üçüncü tərəfin Zəngəzur dəhlizinə nəzarət etməsinin yolverilməz olduğunu deyib. Halbuki bəyanatın bu bəndində Zəngəzur dəhlizinə Rusiya FTX-nin sərhədçilərinin nəzarət edəcəyi açıq şəkildə qeyd edilib. "Hətta Ermənistan mediası da Paşinyanın bu açıqlamasını yersiz hesab edib. Sülh müqaviləsinin imzalanması üçün ölkəmizin tələb etdiyi məsələlərdən biri də ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə bağlı birgə müraciətin hazırlanmasıdır. Ermənistan isə Minsk qrupunu yenidən diriltməyə çalışır. Hətta 2023-cü ilin 17 sentyabrında Minsk qrupunun həmsədrləri arasında gizli görüş də keçirilib. Bu görüşdə Azərbaycana suverenliyin təmin edilməsinə imkan verilməməsi məsələsi müzakirə olunub. Azərbaycan 19 sentyabrda Qarabağda lokal xarakterli antiterror tədbirləri keçirməklə öz ərazilərində tam suverenliyini bərpa edib. Azərbaycan müharibəni başa çatdırdığı ilk gündən Ermənistana sülh əlini uzadaraq münasibətlərə yeni səhifədən başlamağı təklif edib. Ermənistan isə vaxt qazandıqca yenidən silahlanır və öz çirkin niyyətlərindən əl çəkmək istəmədiyini nümayiş etdirir", - deyə o bildirib.

Azərbaycana yarımçıq sülhün lazım olmadığını deyən ekspert vurğulayıb ki, əgər Ermənistan sülh istəmirsə, olmayacaq və biz sülh müqaviləsi imzalamadan da yaşaya bilərik. Naxçıvana yolumuzu İran ərazisindən də aça bilərik, hətta bu istiqamətdə yol tikintisi sürətlə davam edir. Ölkəmiz müharibə başa çatdığı gündən iqtisadi və hərbi gücünü daha da artırıb və gələcəkdə baş verə biləcək hər bir ssenariyə hazırdır. Hələ ki, Ermənistanın silahlanmasını və digər hərəkətlərini izləməkdə davam edirik. Bu hal ölkəmiz üçün potensial təhlükəyə çevrilərsə, təbii ki, qabaqlayıcı tədbirlər görüləcək. Amma Ermənistan hakimiyyəti ağlını başına yığıb təhlükəli vəziyyət yaratmaqdan əl çəkərək, ölkəmizin irəli sürdüyü şərtləri qəbul edib sülh sazişi imzalasa, regiona uzunmüddətli və dayanıqlı sülh gələcək. Bundan sonra ölkələr arasında yenidən səmimi qonşuluq münasibətləri formalaşacaq. Əks halda Ermənistan xarici güclərin ayaq altında qalaraq üçüncü dünya müharibəsinin başlanğıc nöqtəsinə çevrilə bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Şvabenin ermənipərəstliyi

### Qərbin qərəzli siyasəti Azərbaycanın Avropa Şurasını tərketmə ehtimalını artırır

Azərbaycan Cənubi Qafqazın lider ölkəsi olması, etibarlı tərəfdaş, güvənilən ölkə kimi gündən-günə beynəlxalq nüfuzunun artması, ən əsası siyasi sabitlik mərkəzinə çevrilməsi ilə qərəzli Qərb təsisatlarının hədəfinə çevrilib. Buna görədir ki, erməni lobbisinin sözü ilə oturub duran rüşvətxor Qərb siyasətçiləri sistemli şəkildə respublikamıza qarşı qarayaxma kampaniyası aparırlar.

Ölkəmizin COP29 kimi mötəbər beynəlxalq tədbirə evsahibliyi edəcəyi bu ərəfədə anti-Azərbaycan təbliğatı xüsusilə gücləndirilib. Qərbdən başladılan "xaç yürüşü"nün önündə isə hazırda formal olaraq Avropa Şurası Parlament Assambleyasının (AŞPA) üzvü, almaniyalı deputat Frank Şvabe gedir. Əslində, Şvabenin Fransa və Almaniyanın sözü ilə oturub-duran oyuncaq fiqur olduğu da gün kimi ortadadır.

#### Məkrli niyyət

Bu ilin yanvarında AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilmədi və bu qalmaqallı təşəbbüs də məhz Almaniya Bundestaqının Sosial-Demokrat Partiyasından olan üzvü Frank Şvabe tərəfindən irəli sürülmüşdü. Ancaq həmin vaxt Azərbaycan nümayəndə heyəti özü AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlmişdi. Sonrakı müddətdə də almaniyalı deputat Azərbaycanla bağlı davamlı böhtan xarakterli çıxışlar etmişdi. O, avqust ayında KİV-ə verdiyi müsahibəsində guya Azərbaycanın Avropa Şurasında üzvlükdə maraqlı olmadığını bildirmiş, ölkəmizi Avropa Şurasının təbliğ etdiyi dəyərlərə sadiq olmamaqda ittiham etmişdi.

Eləcə də bu yaxınlarda ermənipərəst siyasətçi guya Azərbaycanda "siyasi məhbus" probleminin olduğunu iddia edib. Ancaq o özü də yaxşı bilir ki, ölkəmizdə siyasi məhbus yoxdur və onun siyasi məhbus kimi qələmə verdiyi şəxslər konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb ediliblər. Sadəcə azərbaycanofob siyasətçinin COP29 kimi nüfuzlu tədbirin keçiriləcəyi ərəfədə qərəzli çıxışlar etməsi beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq, ölkəmizin imicinə zərbə vurmaq məqsədi güdür.

Xatırladaq ki, Almaniyanın ictimai kanalı ARD-də Azərbaycan əleyhinə bədii filmin ("Am Abgrund") hazırlanmasında da ermənipərəst Şvabe yaxından iştirak edib.



Faktdır ki, bu "demokratik" siyasətçi onilliklər boyu Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlamasından, talamasından, maddi-mədəni irsimizi məhv etməsindən bir dəfə də olsun bəhs etməyib. 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, çadırlarda, vaqonlarda, yataqxanalarda acınacaqlı vəziyyətdə yaşaması heç zaman "insan haqları keşikçisi" Şvabenin diqqətini çəkməyib.

Ancaq erməni lobbisinin təsiri altında olan Şvabe Qarabağ ermənilərinin hüquqları barədə bütün tribunalardan danışmağı özünün "mənəvi" borcu (əslində, bunu rüşvət müqabilində etdiyi açıq şəkildə ortadadır) sayır. Halbuki Qarabağın keçmiş erməni sakinləri azərbaycanlılar kimi nə etnik təmizləməyə, nə də hər hansı bir zorakılığa məruz qalıblar. Onlar könüllü şəkildə və tam təhlükəsiz şəraitdə ölkəmizi tərk ediblər.

#### Antiazərbaycançı şəbəkə iflasa məhkumdur

Gətirilən nümunələrdən də aydın olur ki, AŞPA üzvü F.Şvabe erməni lobbisinin maraqlarına xidmət edən qərəzli şəxs kimi antiazərbaycançı şəbəkənin sifarişlərini canla-başla yerinə yetirir.

Bütün bunların fonunda da görünür ki, hələ də başda ABŞ, Fransa, Almaniya kimi ölkələr olmaqla bölgədə maraqları olan riyakar Qərb təsisatları Azərbaycanın BMT TŞ-nin 4 qətnaməsini öz gücü ilə yerinə yetirərək torpaqlarının işğalına son qoymasını, suverenliyini bərpa etməsini həzm edə bilmirlər. Hazırda dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiyanın tüğyan etdiyi AŞPA isə ölkəmizə qarşı təşkilatlanmış şəbəkənin bir növ yuvası rolunu oynayır. Çalışılır ki, bu qurum vasitəsilə Azərbaycana siyasi təzyiqlər edilsin.

Amma Qərbin apardığı bu qərəzli siyasət ümumilikdə respublikamızın Avropa Şurasını tərketmə ehtimalını qüvvətləndirmiş olur. Çünki müstəqil siyasət yürüdən Azərbaycanla heç kəs diktə dili ilə danışa bilməz və ölkəmiz milli maraqlarını təhdid edən istənilən beynəlxalq gücə öz yerini göstərmək iqtidarındadır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Yeni dərs ili başladı

# 32 ildən sonra Şuşada ilk dərs günü

İşğaldan azad edilmiş Şuşa şəhərində 32 ildən sonra ilk məktəb zəngi çalınıb.




AZƏRTAC xəbər verir ki, Bilik Günü münasibətilə Şuşa şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Qarabağ Regional Təhsil İdarəsinin müdir müavini Anar Məcidov, məktəb kollektivi və valideynlər iştirak ediblər.

Tədbir iştirakçıları, məktəblilər əvvəlcə 1 nömrəli tam orta məktəbə yürüş ediblər. Sonra tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Müəllim və şagirdlər qarşısında çıxış edən elm və təhsil naziri Emin Əmrullayev təhsil işçilərini və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib. Bildirib ki, bu gün Azərbaycan xalqı üçün tarixi günlərdən biridir. Bu tarixi gün Şuşa məktəblilərinin xatirəsində daim qalacaq.

Şuşanın Azərbaycan təhsilində mühüm yer tutduğunu deyən nazir bu ənənənin davamlı olacağına əminliyini ifadə edib: "Şuşa işğaldan azad olunduqdan sonra şəhərdə təməli qoyulan ilk binalardan biri Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binası olub. Məktəb binası ən müasir standartlarla tikilərək bu gün istifadəyə verilir. Əminəm ki, Şuşa məktəbi Azərbaycan təhsil sisteminin ən öndə gedən məktəblərindən olacaq", - deyə E.Əmrullayev əlavə edib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, əməkdar müəllim Asif Cahangirov da Bilik Günü münasibətilə müəllim və şagirdləri təbrik edib, onlara uğurlar, Şuşa təhsilini daim zirvələrdə saxlamağı arzulayıblar.

Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova təhsil ocağı barədə məlumat verib. Bildirib ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binalar da var. Məktəbin şagirdləri ən qabaqcıl standartlara uyğun təhsil alacaqlar.

Direktor dövlətimiz tərəfindən göstərilən yüksək diqqət və qayğıya əməli işlə cavab verəcəklərini bildirib.

Sonra yeni dərs ilinin zəngi çalınıb, müəllim və şagirdlər sevinc hissi ilə sinif otaqlarına daxil olublar.

Sonda məktəbdə yaradılan şəraitə baxış keçirilib.

# Heydər Əliyev Fondu yeni məktəb binaları inşa edib

Xaçmaz rayonunun İstisu qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən inşa olunan yeni məktəb binası istifadəyə verilib.



AZƏRTAC xəbər verir ki, İstisu qəsəbəsindəki tam orta məktəbin 1938-ci ildə inşa olunmuş köhnə binası ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən qəsəbədə Heydər Əliyev Fondunun təhsil sahəsindəki növbəti layihəsi icra olunub və müasir məktəb binası inşa edilib.



Açılış mərasimində bildirilib ki, yarandığı gündən təhsil sahəsinə xüsusi həssaslıqla yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqaməti elan edən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramları icra edərək, ölkəmizdə bu sahəyə öz dəstəyini göstərir.

Yeni məktəb binasının inşasına cari ilin əvvəlində başlanılıb və tikinti işləri qısa müddətdə yekunlaşdırılıb. Üçmərtəbəli bina iki korpusdan ibarətdir. Zəruri mebel və avadanlıqla təmin olunan 320 şagird yerlik təhsil ocağında fənn kabinetləri, fizika, kimya, biologiya, kompüter, hərbi hazırlıq, tibb, əmək təlimi otaqları var, laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib. Məktəbdə həmçinin kitabxana, akt və idman zalları, açıq idman meydançası yaradılıb. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

❖ ❖ ❖

Sentyabrın 16-da Heydər Əliyev Fondu tərəfindən Şamaxı rayonunun Bağırlı kənd tam orta məktəbi üçün inşa edilmiş 460 şagird yerlik məktəb binası istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin, Şamaxı Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəbin müəllim və şagird kollektivi, kənd sakinləri iştirak ediblər.



1988-ci ildə inşa olunmuş Şamaxı rayonu F.Şıxəliyev adına Bağırlı kənd tam orta məktəbin binası ötən müddət ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü. Ona görə də yeni təhsil ocağının inşasına qərar verilmişdi.

2024-2025-ci tədris ilində təhsil müəssisəsində 433 şagirdin təhsil prosesinə cəlb olunması planlaşdırılır. Məktəbdə 31 pedaqoji işçi çalışır.

Yeni binanın tikintisi ilə bağlı işləri üzərinə götürən Heydər Əliyev Fondu tərəfindən inşa edilən 3 korpusdan ibarət ikimərtəbəli məktəb binasında 21 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika otağı, hərbi təlim və tibb otaqları, əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var.

❖ ❖ ❖

Şamaxının Hacıqədirli kəndində Heydər Əliyev Fondu tərəfindən inşa olunan 132 şagird yerlik yeni məktəb binası istifadəyə verilib. Yeni istifadəyə verilən məktəb binasının açılışında Heydər Əliyev Fondunun, Şamaxı Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəbin müəllim və şagird kollektivi, kənd sakinləri iştirak ediblər.

Xatırladaq ki, Şamaxı rayonunun Hacıqədirli kənd tam orta məktəbinin binası 1975-ci ildə inşa olunub. Bina istifadəyə yararsız vəziyyətdə olduğundan Heydər Əliyev Fondu tərəfindən 132 şagird yerlik yeni məktəb binasının inşası həyata keçirilib. İkimərtəbəli məktəb binası 3 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib. Burada 10 sinif otağı, fizika, kimya laboratoriyaları, informatika, hərbi təlim və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var. Yeni tədris ocağı daimi su, istilik sistemi, eləcə də yanğın xəbərverici və videomüşahidə sistemləri ilə təmin edilib.

Məktəbdə 122 şagirdin təhsil təlim-tərbiyəsi ilə 16 müəllim məşğul olacaq.

# Xocalıda tədris ilinin zəngi çalınıb

İşğaldan azad olunan Xocalıda 32 ildən sonra ilk Bilik Günü keçirilib. Bu münasibətlə təşkil olunan tədbirdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, elm və təhsil naziri Emin Əmrullayev, Qarabağ Regional Təhsil İdarəsinin müdir müavini Anar Məcidov, məktəb kollektivi və valideynlər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edənlər yeni tədris ilinin başlanması münasibətilə şagird və müəllimləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Sonra məktəbdə Bilik Gününün zəngi səslənib, şagirdlər sevinc hissi ilə sinif otaqlarına daxil olublar.

Sonda tədbir iştirakçıları Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə tədris prosesi ilə yaxından tanış olublar. Bildirilib ki, ikimərtəbəli məktəb binası 132 şagird yerlikdir. Məktəbin bir korpusu tədrisə aiddir, digər korpus idman zalı, akt zalı və kitabxanadan ibarətdir. Məktəbdə kimya, biologiya, fizika, informatika, hərbi hazırlıq kabinələri, STEAM otağı yaradılıb. Təhsil ocağı bütün avadanlıqlarla təmin olunub.



# Laçının Sus kəndində illər sonra ilk məktəb zəngi səslənib

Yenidən həyatın qayıtdığı Şərqi Zəngəzurun daha bir yaşayış məntəqəsində - Laçının Sus kəndində uzun illərdən sonra tədris ilinin ilk zəngi səslənib.




AZƏRTAC xəbər verir ki, Sus kəndində yeni tədris ili yeni məktəb binasında başlayıb. Tədbirdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin, Laçın rayon Təhsil sektorunun nümayəndələri, məktəb kollektivi, kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Əvvəlcə Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi sükutla anılıb. Çıxış edənlər diqqətə çatdırıblar ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi və qüdrətli ordumuzun gücü sayəsində azad edilən torpaqlarda həyat yenidən canlanıb. Böyük qayıdış proqramı əsasında əhalinin yenidən məskunlaşdığı ərazilərdə təhsil sahəsi də xüsusi diqqətdə saxlanılır. Sus kəndində 132 şagird yerlik müasir məktəb binasının istifadəyə verilməsi də buna bariz nümunədir.

Daha sonra məktəbdə yaradılan şəraitlə tanışlıq olub, yeni tədris ilinə start verilib.

Qeyd edək ki, Böyük qayıdış proqramına uyğun olaraq bu günə kimi Laçın şəhərində 570 ailənin, yəni 2090 nəfərin, Zabux kəndində 217 ailə olmaqla, 823 nəfərin, Sus kəndində isə 59 ailənin, 215 nəfərin məskunlaşması təmin edilib və köçürülən ailələr üçün bütün şərait yaradılıb.

# Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə 8 ayın yekununa dair məlumatlar açıqlanıb

*Bu ilin yanvar-avqust aylarında narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.*

İşçi qrupdan AZƏRTAC-a verilən məlumata görə, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 7170 cinayət faktı aşkarlanıb. Onlardan 2228-i narkotik vasitələrin qanunsuz satışı, 4736-sı narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 202-si narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 4-ü isə digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 5 ton 92 kiloqram 868,748 qram narkotik vasitələrin və psixotrop maddələrin 471 kiloqram 204,959 qramını heroin, 4 ton 178 kiloqram 838,75 qramını marixuana, 127 kiloqram 993,641 qramını tiryək, 30 kiloqram 959,401 qramını həşiş, 164 kiloqram 202,097 qramını psixotrop maddələr, 119 kiloqram 669,9 qramını digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 14768 ədəd metadon, 12621 ədəd çətənə kolu, 44 qram və 240 ədəd güclü təsir edən maddə qanunsuz dövriyyədən çıxarılıb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1265 hektar sahədən 2.691.539 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitki müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən çıxarılmış 5 ton 92 kiloqram 868,748 qram narkotik vasitələrin və psixotrop maddələrin, ümumilikdə dəyəri 120 milyon 733 min AZN qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 5040 nəfər cəlb edilib, onlardan 16-18 yaşadək 1 nəfər, 18-25 yaşadək 367 nəfər, 26-29 yaşadək 802 nəfər, 30 yaş və ondan yuxarı isə 3870 nəfər təşkil edir. Həmin şəxslərdən 4881-i kişi, 159-u qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 45 nəfəri xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilmiş 45 xarici ölkə vətəndaşından ümumilikdə 110 kiloqram 16 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 176 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 697 kiloqram 218,848 qram narkotik vasitə və psixotrop maddə, 14768 ədəd metadon həbi, 1710 ədəd və 44 qram güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə aşkar edilmiş cinayətlərin 224-ü qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 632 kiloqram 187,911 qram narkotik vasitə, psixotrop maddə və 85 qram güclü təsir edən maddə müsadirə edilib. 2092 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 1 ton 512 kiloqram 792,4 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Təhlil göstərir ki, ötən ilin yanvar-avqust ayları ilə müqayisədə 2024-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 428, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 431, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 58, digər növ cinayət faktların sayı 26, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 15 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi 711 kiloqram 689,764 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı isə 681 nəfər azalıb.

Bununla yanaşı, narkotiklərin satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 87 fakt, qrup halında olan cinayətlərin sayı isə 19 fakt artıb.

2023-cü ilin 8 ayı ilə müqayisədə 2024-cü ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, o cümlədən heroinin çəkisi 1 ton 251 kiloqram 481,495 qram (72,7 faiz), tiryəkin çəkisi 108 kiloqram 911,72 qram (46 faiz), həşişin çəkisi 20 kiloqram 029,443 qram (39,3 faiz), psixotrop maddələrin çəkisi 154 kiloqram 539,312 qram (48,5 faiz) azalıb.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 4 ton 178 kiloqram 838,75 qramını (82 faiz) marixuana təşkil edib. Onun da 3 ton 631 kiloqramı (86,9 faiz) xarici ölkə mənşəli olub, 547 kiloqramı (13,1 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində, istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilib.

Dövlət Komissiyasının işçi qrupunun təşkilatçılığı ilə cari il aprelin 16-17-də müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 1741 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul edilmiş 3 ton 430 kiloqram müxtəlif növ narkotik vasitə və psixotrop maddə, 60189 ədəd həb metadon, 58773 ədəd narkotik xassəli çətənə bitkisi, həmçinin 3477 ədəd həb, 19341 ədəd kapsul, 24 flakon, 4 ampula, 81,446 qram güclü təsiredici maddə, eyni zamanda cari il iyulun 22-də Dövlət Sərhəd və Dövlət Təhlükəsizliyi xidmətlərində saxlanılan 17 cinayət işi üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş 248 kiloqram 293,151 qram müxtəlif növ narkotik vasitələr yandırılma üsulu ilə məhv edilib.

Həmçinin 31 şəhər və rayonda qanunvericiliyə uyğun olaraq az və xeyli miqdarda müsadirə edilmiş 1208 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılmış 25 kiloqram 614,781 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, o cümlədən 226 ədəd çətənə bitkisi şəhər və rayon komissiyaları tərəfindən yandırılma yolu ilə məhv edilib. Göstərilən dövr ərzində prosesə nəzarətin gücləndirilməsi nəticəsində bəzi şəhər və rayonlarda məhkəmə hökmü olmadan 17 cinayət işi üzrə maddi sübutların məhv edilməsinin, eyni zamanda 9 hökm üzrə küllü miqdarda müxtəlif növ narkotik vasitələrin məhv olunması hallarının qarşısı alınıb.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 57406 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1913 nəfərdən 1244 nəfərin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 340, QİÇS-lə Mübarizə Mərkəzində 402, Sumqayıt Narkoloji Mərkəzində 152 nəfər) 894 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. Cari ilin avqust ayının sonuna kimi İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 52 nəfəri (5,9 faizi) inyekson narkotik istifadəçiləri olub.

Cari ilin yanvar-avqust ayları ərzində "802 - qaynar xətt" telefon zəng xidmətinə 1280 vətəndaş müraciəti daxil olub ki, onların 105-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 92-si narkotik asılılıqdan müalicə, 1083-ü isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd edilən müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 197 məktub ünvanlanıb.

Belə ki, "802 - qaynar xətt" zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən küllü miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

Hesabat dövrü ərzində Dövlət Komissiyasının işçi qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 106 tədbir (55 maarifləndirici və təşkilati tədbir, 40 təlim, 6 sosial layihə, 1 marafon və televiziya kanalında 4 verilişdə iştirak) təşkil olunub.




# Bişkekdə türk dövlətlərinin enerji əməkdaşlığını gücləndirən "yaşıl enerji" layihələrindən danışılib

Energetika naziri Pərviz Şahbazov Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) enerji nazirlərinin dördüncü iclasında çıxış edib.



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, nazir dövlət başçılarının ölkələrimizin zəngin təbii resurslarını, enerji-nəqliyyat dəhlizlərini və böyük potensialını Mərkəzi Asiyadan Avropayadək böyük coğrafi məkanda qarşılıqlı faydalı əməkdaşlığa, qardaşlıq ruhunu qorumaqla böyük uğurlara imza atmağı hədəfləyən aydın strateji baxışları və qətiyyətli siyasətlərinin TDT-nin statusunu möhkəmləndirdiyini qeyd edib. Bu xüsusda TDT-nin Şuşada qeyri-rəsmi sammitində qəbul olunan Qarabağ Bəyannaməsinin əhəmiyyətindən bəhs olunub.

Nazir Pərviz Şahbazov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin "XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır" çağırışı və Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionlarının vahid geosiyasi regiona çevrilməsi istiqamətində səyləri yeni tarixi mərhələdə türk dövlətləri ilə münasibətlərimizin xarakterini əks etdirir. Təşkilata üzv və müşahidəçi ölkələrlə Azərbaycanın ticarət dövriyyəsinin ötən il 9 milyard dolları ötdüyü, bu ölkələrin iqtisadiyyatımıza 18,2 milyard dollar, Azərbaycanın isə bu dövlətlərə 20,3 milyard dollar investisiya qoyduğu bildirilib.

Energetika naziri enerji sahəsində əməkdaşlığı türk dövlətləri arasında əlaqələrin strateji sütunu kimi dəyərləndirərək bildirib ki, Azərbaycan-Türkiyə enerji birliyinin Bakı-Tbilisi-Ceyhan ilə yanaşı, Bakı-Tbilisi-Ərzurum, TANAP, "Cənub qaz dəhlizi" kimi möhtəşəm töhfələri bu gün Türkiyə ilə bərabər çoxsaylı ölkələrin enerji təhlükəsizliyini təmin edir. Ötən il və bu ilin 8 ayında bu kəmərlərlə Türkiyə və dünya bazarlarına 41 milyon ton neft və 37 milyard kubmetr qaz təchiz olunub. Bu il gözlənilən 25 milyard qaz ixracımızın 9,8 milyard kubmetrinin Türkiyəyə, 12,5 milyard kubmetrinin isə Avropaya tədarükü nəzərdə tutulur. Bakı-Tbilisi-Ceyhanla indiyə kimi 2 milyon ton Qazaxıstan neftinin nəqli və bu həcmlərin mərhələli artırılmasına dair razılaşma isə Azərbaycanın Mərkəzi Asiya ilə Türkiyə və Avropa arasında birləşdirici roluna bir sübutdur.

"Türk dövlətləri ilə enerji əməkdaşlığımız nəinki yüksələn xətt üzrə inkişaf edir, eyni zamanda regional əhəmiyyətli yeni layihə və təşəbbüslərin reallaşmasına impulslar verir. Bu kontekstdə "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Qazaxıstan-Özbəkistan" və Naxçıvan üzərindən "Azərbaycan-Türkiyə-Avropa" "yaşıl enerji" dəhlizləri layihələri türk dövlətlərini Avrasiyada təmiz enerji təchizatında və enerji keçidində mühüm rol oynayan ölkələrə çevirəcək. Ölkələrimizin zəngin enerji potensialını və elektrik enerjisi sistemlərini əlaqələndirməkdən əlavə Azərbaycan və Türkiyə üzərindən Avropaya ixracı təmin etməklə bu dəhlizlər vahid "yaşıl enerji" platforması olmağa iddialıdır", - deyə nazir vurğulayıb.

"Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Hökumətlərarası Saziş"in yaxın vaxtlarda imzalanmasının planlaşdırıldığı, Qırğızıstanla bərpaolunan enerji sahəsində əməkdaşlığın da gündəmdə olduğu diqqətə çatdırılıb. Həmçinin bildirilib ki, COP29 çərçivəsində Mərkəzi Asiya ölkələri üçün Enerji Keçidi İnvestisiya Forumunun keçirilməsi "yaşıl enerji" məqsədləri naminə həmrəylimiz üçün daha bir fürsət olacaq.

Müzakirələrdən sonra iclasın yekunlarına dair Birgə Kommünike imzalanıb. Kommünikedə TDT-nin Enerji Əlaqələndirmə Komitəsinin, Texnologiya və Yaşıl Təşəbbüslər üzrə Regional Mərkəzinin və "yaşıl enerji" dəhlizlərinin yaradılmasına dəstək ifadə olunub. Həmçinin sənəddə türk dövlətlərinin 15 noyabrda Bakıda keçiriləcək COP29 Enerji Günündə fəal iştiraka hazır olduqları əksini tapıb.

# Astanada COP29 sədrliyinin təşəbbüsü olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının təqdimatı keçirilib






Qazaxıstanın paytaxtı Astana şəhərində İkiillik Şəffaflıq Hesabatlarının (BTR) hazırlanması üzrə Mərkəzi Asiya, Cənubi Qafqaz və Şərqi Avropa regionu üzrə keçirilən tədbir çərçivəsində COP29 sədrliyinin "Bakı Qlobal İqlim Şəffaflığı Platforması"nın (BTP) təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın təşəbbüsü və həmtəşkilatçılığı ilə keçirilən tədbirin tərəfdaşları qismində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA), Qazaxıstanın Beynəlxalq İnkişaf Agentliyi (KazAID), BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC), BMT-nin İnkişaf Proqramı (UNDP), BMT-nin Ətraf Mühit Proqramı (UNEP) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) çıxış edib. Təlim seminarına ümumilikdə qeyd olunan region üzrə BTR-lərin hazırlanmasına məsul 50-dən çox ekspert qatılıb. Tədbirə Qazaxıstanın evsahibliyi etməsi regionumuzda ilk dəfə baş tutacaq COP-a regional kontekstdə verilən önəmin göstəricisidir.

Tədbirin açılış mərasimində ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva çıxış edərək, Azərbaycanın COP29 sədrliyi və bu çərçivədə həyata keçirilən qlobal təşəbbüslər, o cümlədən BTP barədə məlumat verib. Nazir müavini BTP-nin əsas məqsədinin tərəf dövlətləri arasında inam və etimad yaratmaq, eləcə də inkişaf etməkdə olan ölkələrə BTR-lərin hazırlanması və yekunlaşdırılmasında dəstək göstərməklə yanaşı, Genişləndirilmiş Şəffaflıq Çərçivəsində (ETF) universal iştirakı təşviq edərək şəffaflıq gündəliyini COP29-dan sonra da davam etdirmək olduğunu vurğulayıb. O bildirib ki, BTP hökumətlər, beynəlxalq təşkilatlar, QHT-lər və özəl sektor da daxil olmaqla, cəmiyyətin bütün sahələrindən olan maraqlı tərəflər arasında iqlim şəffaflığı sahəsində əməkdaşlıq və koordinasiya məkanı olacaq.

Tədbirdə Qazaxıstanın ekologiya və təbii sərvətlər naziri Yerlan Nyssanbayev, Qazaxıstan Respublikası Prezidentinin müşaviri və beynəlxalq ekoloji əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Zülfiyyə Süleymenova, həmçinin UNFCCC və digər beynəlxalq təşkilatların nümayəndələri çıxış edərək, Azərbaycanın COP29 sədrliyinə dəstəyini ifadə edib, ölkəmizin iqlim şəffaflığı sahəsində səylərini yüksək qiymətləndiriblər. Çıxışçılar COP29 sədrliyinin iqlim şəffaflığı sahəsində önəmli təşəbbüsü olan BTP-nin əhəmiyyətini vurğulayıb, bu təşəbbüsün ölkələrin BTR-lərinin hazırlanması və ETF-də iştirakı ilə bağlı təcrübə və uğurlarının paylaşılması üçün qlobal fəaliyyətə töhfə verəcəyini ifadə ediblər.

Xatırladaq ki, sentyabrın 3-də Bakıda keçirilən Qlobal İqlim Şəffaflığı üzrə Yüksək Səviyyəli Dialoq zamanı Azərbaycan COP29 sədri qismində BTP-ni təsis edib. BTP-yə qlobal dəstəyin təmin olunmasının təşviqi məqsədilə COP29 sədrliyinin təşkilatçılığı ilə sentyabrın 9-11-də Toqo və Keniyada baş tutan Afrika regionu ölkələri üçün BTR-lərin hazırlanmasına həsr olunan tədbirlərdə BTP-nin təqdimatı keçirilib. BTP-nin qlobal təşviqi üzrə növbəti yüksəksəviyyəli tədbirin BMT-nin Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində sentyabrın 25-də Nyu Yorkda keçirilməsi planlaşdırılır.

# Qaratüstülü avtobuslardan tutmuş küçə ticarəti və tullantı qalaqlarınacan...

## Yəqin ki, COP29-dək bu problemlər də həllini tapacaqdır





**Noyabr ayında Bakıda dünya əhəmiyyətli qlobal tədbir - COP29 keçiriləcək. Artıq neçə vaxtdır bütün Azərbaycan, xüsusən paytaxt bu tədbirə köklənib. Çünki bu, ölkəmizə göstərilən böyük etimaddır. Sıravi vətəndaş kimi bizim də öhdəmizə düşən onun, xalq arasında deyildiyi kimi, "adımıza-sanımıza" layiq keçirilməsinə dəstək verməkdir.**

Ölkəmizdə belə bir beynəlxalq əhəmiyyətli toplantının keçirilməsi təsadüfi və ya bizim istəyimizlə bağlı deyil. Azərbaycana göstərilən bu etimad Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir. O siyasətin ki, neft və qaz yataqları ilə zəngin olan ölkəmiz dünyada ətraf mühitə zərər vurmayan "yaşıl enerji"yə keçid edən ilk ölkələrdən biri kimi tanınır və qəbul edilir. Bu, ədalətli mövqe isə boş yerdən yaranmayıb. Həm Heydər Əliyev, həm də İlham Əliyev dövlət başçıları olaraq ekologiyanın mühafizəsi sarıdan xüsusilə Bakıda böyük işlər görüblər. Neftlə çirklənmiş torpaqların təmizlənməsi və həmin ərazilərin yaşıllıqlara bürünməsi dövlətin ekoloji siyasətinin əsas istiqamətinə çevrilib. Üstəlik, Azərbaycan "yaşıl enerji"yə keçidlə bağlı mühüm işlər görməyə başlayıb.

Bu mövzudan danışarkən 30 illik işğal dövründə ermənilər tərəfindən təbii sərvətlərimizin heç bir ekoloji normalara riayət olunmadan vəhşicəsinə istismar edilməsini, meşələrin qırılmasını, çayların və torpaqların çirkləndirilməsini unutmaq olmaz. İşğaldan sonra həmin vandalizm bütün dünyaya nümayiş etdirildi. Amma təkcə bununla kifayətlənmədik, fəsadların aradan qaldırılması ilə məşğul olmağa başladıq. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru ekoloji cəhətdən dünyanın ən təmiz guşəsinə çevirmək barədə göstəriş verdi. Ardınca "ağıllı kənd", "yaşıl region" layihələrinin icrasına start verildi. İndi bu region bərpaolunan enerji mərkəzinə çevrilir. Bir-birinin ardınca istifadəyə verilən su, günəş, külək-elektrik stansiyaları bölgəni işığa qərq edir. Üstəlik, bu ərazilərdə istehsal olunan "yaşıl enerji"nin Avropaya ixrac edilməsi də nəzərdə tutulur.

Ancaq COP29-un əsas ağırlığı Bakının üzərinə düşür. O üzdən paytaxtda neçə zamandır xüsusi hazırlıq işləri görülür. Şəhərin küçə və meydanlarının asfalt örtüyü yenilənir, yollara beynəlxalq standartlara uyğun yol nişanları qoyulur, parklarda, xiyabanlarda abadlıq işləri aparılır və s. Bunlar o deməkdir ki, COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün qurumlar üzərinə düşən vəzifələri yerinə yetirmək üçün səylə çalışırlar.

Belə qurumlardan biri də paytaxtın təmizliyinə birbaşa cavabdeh olan "Təmiz şəhər" ASC-dir. Beynəlxalq tədbirlə bağlı müxtəlif tədbirlər keçirən ASC bu möhtəşəm aksiyaya geniş kütlələrin dəstəyini də təmin etmək istəyir və bu istiqamətdə maarifləndirmə işləri aparır. Çünki ətraf mühitin qorunmasında insanların davranışları önəmli rol oynayır. Hər kəs anlamalıdır ki, ətraf mühitin qorunmasına həssaslıqla yanaşmaq lazımdır. Əks halda təbiətin "qisas"ı ilə qarşılaşmalı olacağıq.

Etiraf edək ki, bu istiqamətdə hələ görüləcək işlər çoxdur. Hələ də şəhərdə elə ərazilər var ki, zibil dizə çıxır. Xüsusən bəzi mağazalar və ticarət mərkəzlərinin əraziləri zibil poliqonuna bənzəyir. Şəhərdə zibil qablarının sayı da kifayət qədər deyil. Odur ki, bunu bəhanə edib istifadə etdikləri sellofan torbaları, su içdikləri plastmas, şüşə və dəmir qabları, siqaret kötüklərini hara gəldi atanların sayı kifayət qədərdir. Görünür, bununla bağlı təkcə maarifləndirici tədbirlərin görülməsi yetərincə deyil, inzibati tədbirlər də görülməlidir.

Narahatedici məsələlərdən biri də ictimai nəqliyyatla bağlıdır. Paytaxtda hələ də dizel yanacağı ilə işləyən köhnə sərnişin avtobusları fəaliyyət göstərir. Unutmayaq ki, şəhərimizə gələnlərin hamısı xoşniyyətli olmayacaq. Onların arasında əyər-əskiyimizi axtararaq bu möhtəşəm tədbirə kölgə salmaq istəyənlər də tapılacaq. Dizellə işləyən sərnişin avtobuslarından çıxan qara tüstünü görən qonağa gəl Azərbaycanın atmosferi zərərli tullantılardan qorumasından danış görüm, necə danışırsan?!

Digər problem şəhərdəki sahibsiz itlərdir. İnanmırıq ki, həmin heyvanların şəhərdə "meydan sulamalarını" COP iştirakçıları normal qarşılasınlar. Biz hələ Orta əsrlərdən xalqımıza "miras" qalmış küçə ticarətini demirik. Ekologiyadan, ərzaq təhlükəsizliyindən ağızdolusu danışan bizlərin tozun içindən meyvə-tərəvəz almasına xüsusən inkişaf etmiş ölkələrdən gələn qonaqlar necə baxarlar? Yəqin ki, təəccüblənərlər. Ona görə də müvafiq dövlət qurumları bu məsələlərə indidən əncam çəkməlidirlər.

COP29 bizə dünyaya özümüzü mədəni və sivil bir xalq kimi təqdim etmək üçün də tarixi fürsətdir. Biz bu imkanı yaxşı dəyərləndirməliyik. Buna görə hər bir şəhər sakini və dövlət qurumu öz məsuliyyətini dərk etməlidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# *Qazaxıstan Prezidentinin müşaviri:* "COP29-da ən yüksək səviyyədə iştirak etməyə hazırlaşırıq"

"COP29-un regionumuza yaxın ölkədə keçiriləcəyi bizi çox sevindirir. Bu tədbir Azərbaycanın aktual iqlim problemlərinin həllində liderliyini nümayiş etdirməsi baxımından əla imkandır".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Qazaxıstan Prezidentinin müşaviri Zülfiyyə Suleymenova deyib. O əlavə edib: "COP29 regionumuz üçün iqlim dəyişikliyinin yaratdığı problemlər haqqında dünyaya məlumat vermək və həyata keçirdiyimiz tədbirləri nümayiş etdirmək baxımından unikal imkandır. Ölkələrimizin hər biri istixana qazı emissiyalarını azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün mühüm səylər göstərir".

Z.Suleymenova qeyd edib ki, Qazaxıstan tərəfi iqlim dəyişikliyi ilə mübarizədə gördüyü konkret addımlar barədə danışmaq niyyətindədir: "Qazaxıstan Azərbaycanla yeni mövzuların, məsələn, Xəzər dənizi ilə bağlı çağırışların formalaşdırılmasında əməkdaşlığa hazırdır".

Onun sözlərinə görə, Qazaxıstan bu mühüm tədbirdə ən yüksək səviyyədə iştirak etməyə fəal şəkildə hazırlaşır. "Bizim gözləntilərimiz böyükdür və əminik ki, Azərbaycan bu mühüm tədbirdə qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gələcək", - deyə o əlavə edib.

Qazaxıstan Prezidentinin müşaviri iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin həyata keçirilməsi üçün əhəmiyyətli maliyyə resurslarına ehtiyac olduğunu vurğulayıb və ölkələrin bu məsələdə qarşılıqlı məqbul həll yollarına nail olacağına ümid etdiyini bildirib.




# Yanardağın "sirləri"




**Sanki burada göylə yer birləşir...**

**Dağın ətəyindən şölələnib qalxan haçadilli alovla günəşin yamaca səpələdiyi şüalar illərin həsrətliləri kimi bir-birlərinə sarılaraq bənzərsiz harmoniya yaradır...**

**Sanki ağır-ağır yırğalanan mavi Xəzərin suları ilə göy buludlar başbaşa verib pıçıldaşırlar.**

**Burada həyatın bütün elementləri cəmləşib... Torpaq, od, su, günəş...**

**Bura hər gün yüzlərlə turistin üz tutduğu, min illərdir "öz odu"na şölələnib yanan Yanardağdır.**

**Səhərin yenicə açılmasına baxmayaraq, turist gətirən avtobusların ardı-arası kəsilmir...**

**Kimini bura inancı çəkib gətirir, kimi üçün isə bura maraqlı səyahət məkanıdır...**

**Dünyanın elə bir yeri olmaz ki, Yanardağ möcüzəsini görmək üçün oradan turist gəlməsin.**












Qoruğun gənc bələdçisi, dilli-dilavər Ayişə Tüməliyeva Yanardağın "sirlər"i haqqında məlumat verir:

- Ərazidəki yanğınlar yerin dərinliklərindəki mövcud neftli-qazlı çöküntü laylarında süxur yuyulmaları, tektonik qırılmalar, habelə palçıq vulkanlarının püskürməsi, bir sözlə, vulkanik-tektonik proseslərin getməsi, yaranan çatlar vasitəsilə səthə çıxan təbii qaz axınlarının alışması nəticəsində əmələ gəlmişdir. Bəzən Yanardağda alovun hündürlüyü 10-15 metrə çatır. Buradakı yanma prosesinin tarixin hələ qədim dövrlərindən getməsi ilə bağlı məlumatlar həm ərazidə aparılan geoloji tədqiqatlar, həm də verilən tarixi mənbələr vasitəsilə öz təsdiqini tapmışdır və bu da alovun tarixinin hələ eradan əvvəlki dövrlərdən başlandığını göstərir...

Təbii ki, burada möcüzəvi bir şey yoxdur. Metan qazı ilə kükürdün yerin təkindən çölə sızıb oksigenlə təmas etməsi nəticəsində alov yaranır... Bu, bir təbiət hadisəsi olsa belə turistlərin çoxu, xüsusilə Hindistandan gələnlərin əksəriyyəti bura ibadət, dini ritualları həyata keçirmək üçün gəlirlər...

İnsanları yaşadan inamlarıdır. Müşahidələrimiz göstərir ki, bura gələn inanclı insanlar odun qarşısında dayanıb dini ayinlərini həyata keçirdikdən sonra tamam başqa əhvali-ruhiyyədə olurlar. Oda pul, "monet" atanlar da var...

Həvəslə şəkil çəkən, hər bir şeyi zərrəbinlə nəzərdən keçirən bir turist diqqətimizi cəlb edir. Tanış oluruq.

## "Xalqla dövlətin birliyini görürəm"

Vyaçeslav Malışev Moskvadan gəlib. O deyir: "Yanardağ haqqında çox eşitmişdim. Dörd min ildən çox yaşı olan dağı, əbədiyanar odu görmək mənə çox maraqlı gəlirdi. Nəhayət, arzuma çatdım. Bu möcüzəvi təbiət hadisəsini gözlərimlə gördüm...

Demək istəyirəm ki, Azərbaycan təsəvvür etdiyimdən də gözəldir. Vətəniniz gerçək bir "tarix muzeyi"nə bənzəyir. Dünən qədim Qobustanda olmuşam. Qayaüstü rəsmlər, babalarınızın qayaların üstündə izlərini qoyub getdikləri incəsənət nümunələri xalqınızın qədim və zəngin mədəniyyətindən xəbər verir. Bakıya səfərim, min illərdən soraq verən tarixi abidələr Azərbaycan haqqında təsəvvürlərimi tamam dəyişdi.

Bakı əvvəllər küləklər şəhəri kimi təqdim edilirdisə, indi tam haqqınız çatır deyəsiniz ki, Bakı bizim paytaxt şəhərimiz olmaqla dünyada həm də ən mühüm beynəlxalq tədbirlərin keçirildiyi mərkəzdir. Tərəflərin Konfransı (COP) noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək. Çox düşünürdüm ki, belə bir möhtəşəm tədbirin Bakıda keçirilməsinə səbəb nədir? Hətta 30 il Azərbaycanla müharibə edib torpaqlarını işğalda saxlayan Ermənistanın belə bir möhtəşəm tədbirin ölkənizdə keçirilməsinə razı olması məni çox düşündürürdü. Bakıda gözlərimlə gördüklərimdən sonra məni düşündürən suallara da cavab tapdım. Azərbaycanda sürətli inkişaf gedir. Həqiqətən fəxr edə bilərsiniz ki, ölkəniz nəinki regionda, dünyada öz gözəlliyi və inkişafı ilə rəqabətə tam hazırdır. Bakıdakı tarixi abidələr, müasir tikililər adamı heyran edir. Şəhərinizin təmizliyi, səliqə-sahmanı da bir ayrıdır... Hiss edirəm ki, təkcə Azərbaycan dövləti, hökuməti yox, bütövlükdə bütün Azərbaycan vətəndaşları COP29-a hazırlaşırlar. İnsanların necə həvəslə işlədiklərinin şahidi olmuşam. Xalqla dövlətin bu cür birliyi məni təəccübləndirdi. Bu birliyi gördükdən sonra 44 günlük Vətən müharibəsində qazandığınız qələbənizin səbəbini də anladım. Ölkənizə gəlməsəydim, "dəmir yumruq" fəlsəfəsini də anlamayacaqdım. Böyük xalq olmaqla, xüsusilə xalqınızın birliyi ilə fəxr etməkdə haqlısınız".

## Turistləri özünə "bağlayan" məkan

Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu Məhəmmədi-Digah şose yolunun sol istiqamətində yerləşir: Bakı şəhər mərkəzindən 27, kənd mərkəzindən isə təqribən 2 km məsafədə... Yanardağın əks istiqamətində yanan üç təpə olub. İndi həmin təpələr sönüb. Bakının rəmzi hesab olunan üç yanar alov dili və dəniz simvolu da Yanardağın mövcudluğuna istinadən qəbul edilib. Günün bütün saatlarında bura fasiləsiz olaraq turistlər gəlir. Azərbaycan Prezidenti 2007-ci il mayın 2-də Yanardağın ərazisinin dövlət tarix-mədəniyyət və təbiət qoruğu elan edilməsi haqqında sərəncam imzalayıb.

Qoruğun ərazisi isə 64,55 hektar təşkil edir. Bu əraziyə Qurd yuvası, min yaşı olan iki qəbiristanlıq və qədim məscid, Qotursu bulağı, Əli daşı, Kardaşı, Qırməki vadisi və Yanardağ aiddir. Sözsüz ki, qoruğun ən maraqlı yeri yanan torpaqdır...

Qoruqda fəaliyyət göstərən Yanardağ muzeyi qədim və maraqlı eksponatları ilə gələn turistləri özünə bağlaya bilir. Muzeydə interaktiv lövhə var. Müasir texnologiyanın köməyi ilə lövhənin qarşısına keçən istənilən insan alov dilləri şəklində öz əksini müşahidə edə bilər. Lövhənin qarşısında dayanıb dini ayin icra edən hindistanlı turistlərin rituallarını tamamlamaları üçün xeyli gözləməli oluruq. Onlara diqqətlə baxdığımızı hiss edən hindli qonaqlar bizə yaxınlaşırlar. Bhanu Mati Kalita və oğlu Hrishiraj Saharia Hindistandan gəldiklərini deyirlər.

## Müqəddəs torpağın gözəl insanları

"Siz belə bir müqəddəs yerdə yaşadığınız üçün xoşbəxtsiniz. Burada həyatın bütün əlamətləri - torpaq, od, su və hava var. Siz özünüzü Allahın sevimli bəndəsi hesab etməkdə tam haqlısınız. Bura möcüzəvi bir diyardır. Biz yanan alovun qarşısında dayanıb orada öz inancımızı görürdük. Oğluma da maraqlı gəldi ki, real odla təmasdan sonra interaktiv lövhənin qarşısında texnologiyanın yaratdığı görüntünün fərqini hiss etmək istədik. Burada hər şey çox gözəldir. Fərqi də o qədər hiss edilmir. Əsas odur ki, biz ruhumuzu inandığımıza təslim etmək imkanı qazandıq.

Siz bəlkə də düşünə bilərsiniz ki, biz sadəlövh insanlarıq. Min kilometrlərlə yol gəlib yerdən çıxan oda sitayiş edirik. Amma bu, bizim inancımızdır. Bu, Allahın istəyidir. Ulu Tanrı burada bu dənizin sahilində öz odunu, suyunu, havasını göstərməklə "Mən varam" deyir, "Sönməz alov mənim qüdrətimdən yaranır" mesajını verir. İnanmaq lazımdır. İnanclı olmaq gözəl hissdir. İnam insanı saflaşdırır, şeytandan uzaqlaşdırıb ruhunu təmizləyir.

Ölkənizi çox sevdik. Bakı çox gözəl şəhərdir. Buradan qayıdandan sonra deyəcəyik ki, müqəddəs bir diyardan gəlirik. O diyarın torpağı müqəddəs, insanları isə mələk kimi gözəldirlər.

## "Bakı məni özünə çox çəkdi"

Çex Respublikasından gəlmiş səyyah Antonin Mikşik deyir ki, dünyanın çox yerini gəzib. Azərbaycana gəlmək onun üçün çox maraqlı olub. İki gündür ki, burdadır. Bu qısa vaxtda gördükləri o qədər xoş təəssürat yaradıb ki, Bakıdan ayrılacağını düşünmək belə istəmir: "Qobustanda olmuşam. Gəncəyə, Qubaya, sonra Dağıstana, Mahaçqalaya gedəcəyəm. Dərbəndin də qədim tarixi Azərbaycan şəhəri olması haqqında məlumatım var. Zatən, bunu hər hansı kitabdan oxumağa ehtiyac yoxdur. Qobustan qayalarındakı qədim yazılar, ulularınızın daş kitabələrin üstündə qoyub getdiyi nişanlar, rəsmlər qədim tarixi olan xalq olduğunuzu göstərən əyani vasitələrdir. Qobustanda gördüklərimizlə Dərbənddə rastlaşırıqsa, bu tarixi həqiqəti danmaq olmaz.

Bakı əsrarəngiz şəhərdir. Dünən axşam Ağ Şəhərdə olmuşam. Gözəllikləri görüb çaşıb qalmışdım. Mən acgöz deyiləm. Məni qınamayın, az qalırdım ki, Bakını qucaqlayıb deyəm ki, bu gözəlliklərin mənim olmasını istəyirəm. Bakı məni özünə çox çəkdi.

Xatirimdə çox şey qalıb. Bakının gözəlliyi, insanlarınızın mehribanlığı və səmimiliyi. Heç düşünmədən deyərdim ki, bu müqəddəs torpaqlarda yaşayıb belə gözəl ruha sahib olmamaq mümkün deyil.

Özümlə çox şey aparıram. Təəssüratım zəngindir... Bilmirəm necə deyim, ya bu müqəddəs torpaqlar sizi gözəlləşdirib, ya da bu torpaqlarda belə gözəl insanların yaşadığı üçün müqəddəsləşib?

## "Özümü nağıllar aləmində hiss etdim..."

Söhbətimizi polşalı turist Simon Chudylə davam etdiririk:

- Bir neçə gündür ki, Bakıdayam. Ağ Şəhərdə, Heydər Əliyev Mərkəzində, Dağüstü parkda olmuşam. Oradan Bakını seyr etmək mənə çox xoş gəldi. Bura şəhərdən çox gözəlliklər mərkəzinə bənzəyir.

Azərbaycan, onun inkişafı haqqında çox eşitmişdim. Açığını deyəcəyəm. Eşitdiklərimin "nağıl" olduğunu düşünürdüm. Gözəllikləri görəndə özümü nağıllar aləmində zənn etdim.

İnsanlar çox mehribandır. Burada hər şey gözəldir... Siz bütün uğurlarınızla fəxr edə bilərsiniz. Ağ Şəhərdə olanda Hərbi Qənimətlər Parkına da baş çəkdim. Açığını deyim ki, qənimət götürdüyünüz hərbi texnika düşməninizin gücü haqqında tam təsəvvür yaradır. Bu cür silahlanmış bir ordunu məğlub etmək böyük qəhrəmanlıqdır. Mən sizə tövsiyə verə bilmərəm. Amma dövlətinizi, onun başçısını sevin. Bu gözəllikləri yalnız xalqını canı qədər sevən, ona gecə-gündüz xidmət edən lider yarada bilər.

Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açıq havada Daş muzeyi də fəaliyyət göstərir. Burada qədimdə yerli əhali tərəfindən istifadə edilmiş daşlar var. Qoruq ərazisində uşaq oyun meydançası, kafe və suvenir mağazası fəaliyyət göstərir. Suvenir mağazasındakı bütün əşyalar əl işləridir. Turistlər ölkələrinə aparmaq üçün buradan müxtəlif suvenirlər alırlar. Günün ikinci yarısı biz Yanardağda işimizi tamamlayıb geri dönürük. Axşamın düşməsinə baxmayaraq, turistlər bu qədim "məbədgah"ı görmək üçün növbə gözləyirlər...

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

*Türkiyəli bələdiyyə sədri Fatma ŞAHİN:*

# "Əminə Ərdoğanla bərabər COP29-da iştirak edəcəyik"

"Türkiyənin birinci xanımı Əminə Ərdoğanla bərabər COP29-da iştirak edəcəyik".



Bunu "Report"un Türkiyə bürosuna Türkiyənin Qaziantep vilayətinin böyük şəhər bələdiyyəsinin sədri Fatma Şahin bildirib.

F.Şahin deyib ki, Ə.Ərdoğan bütün dünya üçün böyük əhəmiyyət daşıyan bu tədbirin Azərbaycanda keçirilməsinə çox önəm verir:

"Bizim Azərbaycanla gözəl qardaşlığımız, sarsılmaz birliyimiz var ki, məhz bu da bütün dünyaya nümayiş olunacaq müsbət davranışdır. Bu baxımdan biz COP29-da da bərabər olacağıq. Hazırkı durumda COP29 iqlim dəyişmələrinə qarşı mübarizədə ən böyük əlacdır. Hər ölkə bu istiqamətdə həyata keçirdiyi tədbirlərdən bəhs edəcək. 1992-ci ildə Braziliyada qəbul edilən müqaviləyə əsasən, hər ölkə atmosferə atılan istixana qazlarının emissiyasını azaltmağa görə məsuliyyət daşıyır. Əminə Ərdoğanın Türkiyədə ətraf mühit mövzusunda vacib layihələrin həyata keçməsində önəmli xidmətləri var. Onun ətraf mühitlə bağlı dünyaya etdiyi çağırışlar da BMT tərəfindən təqdir olunur. Əminə xanım Türkiyə olaraq qardaş Azərbaycanı COP29-da dəstəkləyəcəyimizi bəyan edib".

Bələdiyyə sədri vurğulayıb ki, Qaziantep "yaşıl və ağıllı şəhər" kimi Türkiyədə nümunəvi yer tutduğu üçün COP29-a xüsusi hazırlaşır: "Qaziantep olaraq biz "ən yaşıl, ən ağıllı və ən əzmli şəhər" başlıqlı layihəmizlə COP29-da iştirak eddəcəyik. Bununla da qardaş Azərbaycan vasitəsilə bu cür həssas mövzunu dünyaya səsləndirmək üçün ciddi hazırlıqlarımız davam edir".

Qeyd edək ki, sentyabrın 14-dən başlayaraq Türkiyənin Mədəniyyət Yolu layihəsi çərçivəsində festival keçirilir. Tədbirə dünyanın müxtəlif ölkələrindən mətbuat nümayəndələri qatılıb. "Report"un Türkiyə bürosu da tədbirdə təmsil olunur.

# Sahilin başına "oyun açan" Xəzər

**Son 100 il Xəzər dənizində tez-tez qalxmalar və enmələr baş verir. Dənizin sahilin və sahildəkilərin başına açdığı bu oyun bəzən gözləntiləri üstələyib. 1930-1977-ci illərdə 3 metr aşağı düşən Xəzər 1977-1995-ci illərdə 2,5 metr sahilə "torpaq iddiası" irəli sürüb. 1996-cı ildən bu günədək isə dəniz 2 metr geri çəkilib.**

Belə enib-qalxmalar Xəzərin öz xüsusiyyətidir və mütəxəssislər buna dövri hadisə deyirlər. Onlar suyun səviyyəsində baş verən bu dəyişikliyin səbəbini dənizin dibinə təsir edən tektonik hərəkətlərdə və seysmik fəaliyyətdə görürlər. Bəzi alimlər isə bunu iqlim dəyişmələri ilə əlaqələndirirlər. Yağışın miqdarı azaldıqca buxarlanma baş verir, çaylarda suyun səviyyəsi enir və dəniz çay suyu ilə az qidalanır. Yeri gəlmişkən, qeyd edək ki, bu səbəblərdən dolayı dünyada quruyan su hövzələri çoxdur. Qazaxıstan və Özbəkistan sərhədində - Turan ovalığında yerləşən Aral vaxtilə dünyanın 4-cü böyük gölü sayılırdı. İndi isə gölün təkcə adı qalıb. Aral qurumaqla böyük ekoloji fəlakətə səbəb olub. Təbii ki, Xəzərin də belə bir fəlakətə qurban gedəcəyini düşünmürük. Sadəcə demək istəyirik ki, arxayınlaşmaq da olmaz. Mütəxəssislər, elm adamları tez-tez həyəcan siqnalı verməlidirlər ki, ictimaiyyətin diqqəti bu məsələdən yayınmasın.

Bəzən Xəzərdə sunamini xatırladan fırtınalar, şahə qalxan dalğalar olur. Bunun sunami olmadığını bilirik. Amma onu bilmirik ki, Xəzərin tarixində də vaxtilə sunamiyə bənzər hadisələr qeydə alınıb. Yazırlar ki, 957-ci ildə Dərbənddə baş verən zəlzələ nəticəsində dənizdə dalğanın hündürlüyü 150 metrə çatıbmış. Sunamiyə oxşar, lakin qismən zəif hadisə 1868-ci ildə Xəzərin Bakı sahilində də baş verib. Həmin vaxt Bakıdan 90 kilometr aralıda yerləşən adalardan biri su altında qalıb. Bunlar Xəzərin tarixində iz qoymuş hadisələrdir.

Dənizin səviyyəsində baş verən qabarmalar və çəkilmələrə gəldikdə onun da fəsadları çoxdur və Xəzərətrafı ölkələr bundan çox əziyyət çəkirlər. Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru, dosent Ənvər Əliyev deyir ki, Xəzər 200 milyon il bundan əvvəl əmələ gəlib və dənizin səviyyə sərhədi elə özünün yaşı qədərdir: "Səviyyə amplitudasının dəyişməsi isə 30-50 ildən bir baş verir. İndiki halda dənizin səviyyəsinin son 10 ildə 114 santimetr aşağı düşməsi hələlik Xəzəryanı ölkələrin heç birini təşvişə salmayıb. Çünki bu, qorxulu hədd deyil".

Məlumdur ki, qapalı göl olan Xəzərin dünya okeanlarına çıxışı yoxdur. Odur ki, səviyyəsi yalnız ətrafdakı çayların hesabına enib-qalxır. Alimlərin fikrincə, son illər baş verən enib-qalxmalar, əsasən quraqlıq və yağıntıların miqdarının az olması ilə bağlıdır. Xəzərlə daha yaxından maraqlananlar xatırlayarlar ki, ötən əsrin 70-ci illərində dənizin səviyyəsi çox enmişdi. O zaman çıxış yolu kimi Ural çayını Xəzərə yönəltmək kimi təklif irəli sürüldü. Amma çox keçmədi ki, dənizin səviyyəsi qalxdı və buna ehtiyac olmadı. Deməli, enmə prosesi o zaman uzunmüddətli baş verə bilər ki, Xəzəri qidalandıran Volqa, Araz, Kür və İrandakı çayların suyu azalsın. Bu halda isə insan sağlamlığı, təsərrüfat sahələri təhlükə altına düşər. Üstəlik, neft-qaz əməliyyatları, eləcə də dəniz nəqliyyatının, limanların fəaliyyəti pozulur. Artıq mütəxəssislər narahatlıqlarını bildirərək deyirlər ki, bu gün Xəzər dənizində yaşayan balıqların əksəriyyəti miqrasiya edən canlılar olduğu üçün çaylarda kürü tökürlər. Həm suyun səviyyəsinin azalması, həm də dənizə tökülən çayların mənsəbindən uzaqlaşması balıqların Xəzərə keçidini çətinləşdirib, ekosistemin pisləşməsinə səbəb olub.

Görəsən, bu enmə nə vaxta kimi davam edəcək? Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizi sahilləri və dibinin geomorfologiyası şöbəsinin müdiri, coğrafiya üzrə elmlər doktoru, professor Əmir Əliyevin fikrincə, çoxsaylı policoğrafi, arxeoloji, tarixi və müşahidə məlumatları göstərir ki, son 3,5 min il ərzində Xəzər dənizinin səviyyəsində təxminən 450-500 illik periodiklik müşahidə edilir: "200-250 il müddətində səviyyə qalxır və bu müddət ərzində də enir. Xəzərdə son ən böyük səviyyə dəyişkənliyi 1862-ci ildən başlayıb və bu prosesin təxminən 2050-ci illərə qədər davam edəcəyi güman olunur".

Bəs suyun səviyyəsi qalxarsa, hansı fəlakət baş verər? Alim buna da aydınlıq gətirir: "Xəzər geri çəkildikcə dənizin dibindəki torpaq sahələri üzə çıxır. Bu ərazilərdən istifadə etmək mümkündür. Amma həmin ərazilərdə fundamental layihələr, tikinti işləri aparmaq olmaz. Məsələn, Sumqayıtda dənizin səviyyəsinin düşdüyü ərazilərdə böyük yaşayış massivi salınır. Bundan əlavə, dənizboyu qurumuş sahillərdə hotel və istirahət kompleksləri tikirlər. Bu, doğru deyil. Yaxın gələcəkdə Xəzərdə suyun səviyyəsi qalxanda həmin ərazilər su altında qalacaq".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# REGİONLAR

## Hindistan səfiri Lənkəranda olub



**Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan Lənkəran rayonuna səfər edib. Səfər çərçivəsində xarici diplomat Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovla görüşüb.**

T.Qaraşov Hindistan səfirinə Lənkəranın tarixi, coğrafi mövqeyi, turizm potensialı, ictimai-siyasi həyatı və sosial-iqtisadi potensialı barədə ətraflı məlumat verib, rayonun Hindistanla qarşılıqlı iqtisadi və mədəni əməkdaşlığının perspektivləri barədə müzakirələr aparıb.

Səmimi görüşə və xoş sözlərə görə ŞİH-nin başçısına təşəkkür edən diplomat ölkələrimiz arasında iqtisadi münasibətlərin inkişafı baxımından böyük potensialın olduğunu vurğulayıb. Diplomat turizm sahəsində əməkdaşlığa toxunaraq, Azərbaycana xeyli sayda hindistanlı turistin səfər etdiyini, xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olduğunu bildirib, Lənkəranın böyük turizm imkanlarından danışıb. Səfir Lənkəranda "Yoqa festivalı"nın keçirilməsi, eləcə də Hindistan rəqslərinin lənkəranlılara canlı nümayiş etdirilməsi ilə bağlı arzusunu açıqlayıb.

Görüşdə Hindistan səfirinə xatirə hədiyyəsi təqdim olunub.

Hindistanlı diplomat səfər çərçivəsində Lənkəran Tarix Diyarşünaslıq Muzeyini, "Laran" MMC-nin qənnadı məhsullarının istehsalı müəssisəsini, İstisu qəsəbəsindəki "Yaşıl çay" plantasiyasını və fabrikini, habelə "Kiçik Bazar" məscidini ziyarət edib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## "Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsi yekunlaşıb

**"AzerGold" QSC-nin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə "Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsi icra edilib.**

Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) layihədə iştirak etmiş kartofçuluq təsərrüfatı sahiblərinin təltifolunma mərasimi keçirilib.

Tədbirdə "AzerGold" QSC, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daşkəsən Rayon İcra Hakimiyyəti, Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun rəsmi nümayəndələri, eləcə də layihəyə cəlb edilmiş mütəxəssis və kartofçu fermerlər iştirak ediblər.

Tədbirdə layihənin "AzerGold" QSC tərəfindən korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində Daşkəsəndə ənənəvi kənd təsərrüfatı sahələrindən hesab edilən kartofçuluğun inkişaf etdirilməsi, sahibkarlıq növü kimi təşviqi və dəmyə üsulu ilə kartof istehsalının artırılmasına töhfə vermək məqsədilə icra edildiyi bildirilib. Layihəyə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi"ndə qeydiyyatda olan, əkinəyararlı minimum 1 hektar torpaq sahəsinə malik Quşçu və Zəylik kənd sakinləri - 10 nəfər fermer cəlb edildiyi diqqətə çatdırılıb.

Layihə çərçivəsində fermerlərə Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən nəzəri və praktiki təlimlərin keçirildiyi, həmçinin 10 hektar sahəyə yerli iqlim şəraitinə uyğun "Telman", "Əmiri 600" toxumlarının səpildiyi, müvafiq aqro-texniki qulluğun göstərildiyi və cari mövsümdə havanın qeyri-sabit keçməsinə baxmayaraq, 100 tona yaxın məhsulun əldə edildiyi qeyd olunub. Məlumat verilib ki, layihə çərçivəsində yığılmış məhsulun 85 faizi fermerlərə təqdim edilib. Məhsulun 15 faizi isə Daşkəsən rayonunda yaşayan aztəminatlı ailələr arasında bölüşdürülüb.

Vurğulanıb ki, strateji məhsul sahələrindən hesab olunan kartofçuluq təsərrüfatının inkişaf etdirilməsi dövlət səviyyəsində daim diqqətdə saxlanılır, bu sahə üçün əlverişli bölgələrdə bu cür stimullaşdırıcı layihələrin icrası ümumi işə əlavə töhfələr verir.

Tədbirin sonunda təlim və praktiki məşğələləri uğurla tamamlayan kartofçu fermerlər sertifikatlarla təltif ediliblər.

## Meyvə festivallarının sırasına biri də əlavə edildi

### Göygöldə keçirilən Moruq festivalı bu bitkini iştirakçılara yenidən tanıtdı

**Göygöl rayonunun Keşkü kəndi ərazisində əsl bayram əhvali-ruhiyyəsi yaşanırdı. Yerli əhali və qonaqlar Azərbaycanda ilk dəfə keçirilən Moruq festivalına toplaşmışdı. Ətrafı bürüyən musiqi sədaları festivala xoş ovqat qatırdı.**

Təxminən 3 hektar ərazidə yaradılan çadır və alaçıqlarda, açıq havada moruqdan hazırlanmış məhsullar nümayiş etdirilirdi. Burada iştirakçılara hər növ moruqlu içkilər və təamlardan savayı, müxtəlif musiqi və rəqslərdən ibarət konsert proqramı, uşaqlar və böyüklər üçün müxtəlif əyləncələr təqdim olunurdu. Festivalda həmçinin sənətkarlıq məhsullarının sərgi-satış yarmarkası təşkil edilmişdi.

Göygöl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və Kənd Təsərrüfatı Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, Aqrar İşçiləri Həmkarlar İttifaqı Komitəsi, Aqrar İnnovasiya Mərkəzi, "Azərbaycan Dövlət Emal və İstehsalat Birliyi" MMC, "Göygöl Şərab Zavodu" ASC, "Aqronaft" MMC-nin, həmçinin dövlət və özəl qurumların tərəfdaşlığı ilə keçirilən festivalın məqsədi bölgənin turizm sektorunun rəqabət qabiliyyətini yüksəltmək və aqroturizmin inkişafına dəstək verməklə bərabər, Göygöl rayonunun unikal cəhətlərini, burada istehsal olunan kənd təsərrüfatı məhsullarını tanıtmaq, eləcə də moruq istehsalı ilə iqtisadiyyatın inkişafına töhfə vermək idi.

Moruq festivalının Göygöl rayonunda keçirilməsi də təsadüfi deyildi. Rayon ölkəmizdə ən çox giləmeyvə, o cümlədən moruq yetişən bölgələrdən biridir. Bu faydalı giləmeyvə əvvəllər rayonun dağlıq yerlərində, su mənbələrinin kənarlarında yetişdirilsə də, son illər müxtəlif ərazilərdə sənaye üsulu ilə də əkilib becərilir.

Fermerlər moruğun daha məhsuldar olan "Polka" və "Polana" sortlarına üstünlük verirlər. Rayonun 40-dan çox sakini hər il 13 hektardan çox ərazidə moruq yetişdirir. Onlar Topalhəsənli, Mollacəlilli, Çaykənd, Toğanalı, Quşqara, Aşıqlı, Yeni Zod, Göyçəkənd, Üçtəpə, Keşkü, eləcə də Göygöl şəhərinin sakinləridir. Festivalda iştirak edən fermerlər söylədilər ki, təbabətdə daha çox meyvələrindən, az hallarda isə yarpaqlarından istifadə edilən moruq xalq arasında dərman vasitəsi kimi də istifadə olunur. Bu ətirli bitki susuzluğun kəsilməsinə də kömək edir. Çay kimi dəmlənmiş moruq isə qədimdən soyuqdəymədə hərarət salan vasitə kimi istifadə olunur. Moruq tərkibində ən çox dəmir olan giləmeyvədir. 100 qramında 41 kalori enerji dəyəri olan moruq qlükoza və fruktoza ilə zənginliyinə görə ürək-damar və beyin patologiyası zamanı da faydalıdır.











İki gün davam edən festival keçmiş məhsul bayramlarını xatırladırdı. Amma bir fərq var idi ki, o da tədbirin moruq istehsalçılarına yeni işgüzar əlaqələr qurmağa imkan yaratmasıdır.

Nəhayət, tədbirin açılışını bildirən qırmızı lent kəsildikdən sonra festival açıq elan olundu. Tədbiri giriş sözü ilə açan Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev bildirdi ki, ölkəmizdə aqrar sahənin inkişafı prioritet istiqamətlərdən biri kimi qəbul edilmişdir. Kənd təsərrüfatının qeyri-neft sektorunun əsas sahələrindən biri olduğunu söyləyən RİH-in başçısı qeyd etdi ki, məhsul istehsalçılarına edilən güzəştlər və yardımlar aqrar sahənin dinamik inkişafını təmin edir: "Azərbaycanda kənd təsərrüfatı sahəsində müasir texnologiyaların tətbiqinə və davamlı inkişafına önəm verilir. Bugünkü festivalın keçirilməsi də məhz bu inkişafın göstəricisidir. Aqrar sahənin inkişafında mühüm paya malik olan Göygöl həm də zəngin turizm potensialına malikdir. Söz yox ki, hər il təşkil olunacaq festival həm aqrar, həm də turizm sahələrinin inkişafına mühüm töhfə verəcək".

Açılış mərasimində çıxış edən Türkiyənin Gəncə şəhərindəki Baş konsulu Rəcəb Öztop aqroturizm potensialından düzgün istifadə, məhsulların brendləşdirilməsi, satış marketinq işinin təşkili məsələlərindən danışdı. Əminliklə ifadə etdi ki, bu festival rayonun sosial-iqtisadi və mədəni həyatına öz müsbət təsirini göstərəcək. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Dövlət Turizm Agentliyinin Mədəni irs və regional turizm şöbəsinin müdiri Elgün Cavadov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Aqrar İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov və başqaları da festivalın əhəmiyyətindən, bu tədbirin rayonun turizm imkanlarının genişlənməsində mühüm rol oynayacağından danışdılar.

Sonra iştirakçılar moruq istehsalı ilə daha yaxından tanış olaraq yerli istehsalçılar tərəfindən təqdim edilən moruq sortlarının dequstasiyasında iştirak etdilər. Ölkənin müxtəlif bölgələrindən gələn qonaqlar nümayiş edilən məhsullarla və xalq tətbiqi sənətkarlıq nümunələri ilə tanış oldular, bəyəndikləri məhsulları sərfəli qiymətlərə almaq imkanı əldə etdilər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

**Əyalət teatrı**

## "Şeyx Alı"nın ayağı düşərli oldu

**Orta məktəbin 8-ci sinfində oxuyarkən fizika müəllimi unudulmaz şairimiz Səməd Vurğunun "Vaqif" dramından bir parçanı səhnələşdirməyi qərara alır. Bu məqsədlə şagirdlər arasında rol bölgüsü aparır.**

Vaqif rolu kolxoz sədrinin, Qacar rolu məktəb direktorunun oğluna həvalə edilir. Həmin obrazlarda özünü yaxşı görən yeniyetmə pərt olsa da, özünü sındırmır. Payına düşən Şeyx Alı obrazı üzərində həvəslə çalışıb nəyə qadir olduğunu göstərmək üçün rolunun sözlərini, həmin sözlərin mənasını dərindən öyrənir. Təklikdə sakit bir yerə çəkilib təkrar-təkrar məşq edir. Sözlərin mənasından doğan jestləri, hərəkətləri, mizanları özü üçün müəyyənləşdirir. Tamaşada Şeyx Alının dili ilə Qacara deyilən "Sizə kömək olsun böyük Yaradan, Bu müqəddəs kitab, müqəddəs Quran" sözlərini ifa edərkən pencəyinin altında, sinəsində gizlətdiyi kitabı çıxarıb Qacara göstərir. Bu epizod tamaşaçıların xoşuna gəldiyi üçün alqışlarla qarşılanır. Səhəri gün onu kənd camaatı "Şeyx Alı" deyə çağırır. Bundan sonra yeniyetmə Sücəddin Mirzəyevin ürəyində gələcəkdə aktyor olmaq arzusu yaranır.

İki il keçir. 1973-cü ildə Masallı rayon İkinci Yeddioymaq kənd orta məktəbini bitirib sənədlərini Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna verir. İmtahanlardan müvəffəq qiymətlər alaraq Dram və kino aktyorluğu fakültəsinə qəbul edilir. Bəxti gətirir, böyük sənətkar Adil İsgəndərovun qrupuna düşür. Amma bir müddət sonra A.İsgəndərov xəstələnib işdən ayrılmalı olur. Təhsil aldığı qrupa rəhbərlik etmək Ələmdar Quluzadəyə tapşırılır.

Semestr imtahanları bir-bir geridə qalır. Acılı-şirinli tələbəlik illəri sona çatır. İnstitutu bitirdikdən sonra səhnə danışığı kafedrasının müdiri ona institutda qalmağı təklif edir. Lakin Sücəddin aktyor olmağa üstünlük verir. Xahiş edir ki, onu Lənkəran teatrına göndərsinlər. Bundan xəbər tutan sevimli müəllimi Ə.Quluzadə ondan inciyir: "Niyə institutda qalıb müəllim işləmədin?" deyir. S.Mirzəyev isə ona "Ay sevimli müəllimim, mən burada müəllim olmaq üçün deyil, aktyor olmaq üçün oxumuşam" cavabını verir. Bir müddət keçəndən sonra Ələmdar müəllim Sücəddini başa düşür. Aralarındakı inciklik istiyə düşmüş qar kimi əriyib gedir.

1977-ci ildə Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında aktyorluğa başlayır. Ömrünü bu teatrla bağlayan Sucəddin burada da ailə həyatı qurur, necə deyərlər, lənkəranlı olur. Bununla onun həyatında aktyorluq üçün yeni üfüqlər açılır. Aktyor ona verilən rolların böyük-kiçikliyinə baxmayaraq, hər birinin üzərində böyük həvəs və şövqlə çalışır. Hər bir obrazın daxili aləmini, mahiyyətini tamaşaçıya çatdırmaq üçün istedadını, bilik və bacarığını əsirgəmir. Tamaşaçı alqışları S.Mirzəyevi yeni-yeni uğurlara səsləyir. 2003-cü ildə "Durnalar qayıtdı" bədii filmində, yenə həmin il "Tənha durna uçuşu" film-tamaşasında, 2010 -



2012-ci illərdə bədii serialda, 2013-cü ildə "Sevginin göz yaşları", 2016-2017-ci illərdə "Günəşim ol" seriallarında oynadığı rollar tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

Deyirlər, zəhmət istedadın lampasına neft tökür. Bu mənada Sücəddin Mirzəyev yorulmaq bilmədən öz üzərində çalışaraq yaratdığı hər bir obrazın xarakterini, daxili-mənəvi aləmini, psixologiyasını tamaşaçılara tam və dolğun şəkildə çatdırmağa nail olur - S.Mixalkovun "Bahalı oğlan"ında Timoxin, H.Abbaszadənin "Həzi Aslanov"unda Həzi Aslanov, H.İbsenin "Kukla evi"ndə doktor Rank, L.Korsunskinin "Fırıldaqçı"sında Ata, Ə.Nesinin "İntihar"ında Müştaq bəy, Anarın "Şəhərin yay günləri"ndə Namiq, C.Cabbarlının "Sevil"ində Balaş, N.Nərimanovun "Nadir şah"ında Şah Təhmasib, Ə.Haqverdiyevin "Bəxtsiz cavan"ında Fərhad, S.Vurğunun "Vaqif"ində Əli bəy, E. L.Voyniçin "Ovod"unda Ovod, H.Mirələmovun "Vicdanın hökmü"ndə Rəhim, İ.Əfəndiyevin "Büllur saray"ında Bayandur, M.F.Axundzadənin "Hacı Qara"sında Hacı Qara və onlarca başqa rollar kimi... Bu cür rollarla aktyor rəngarəng obrazlar qalereyası yaratmışdır.

Çəkilən zəhmət heç vaxt itmir. İncəsənət sahəsində qazanılan hər bir uğur xalq sevgisi ilə bərabər, həm də dövlət tərəfindən yüksək qiymətləndirilir. Bu gün Lənkəran Dövlət Dram Teatrında iki Xalq artisti, iki Əməkdar artist çalışır. Sücəddin də bu sıradadır. O, 2013-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə Əməkdar artist fəxri adına, 2020-ci, 2021-ci, 2022-ci illərdə isə Azərbaycan Respublikası Prezidenti Mükafatına layiq görülmüşdür.

Lənkəranda kimi dindirsən, S.Mİrzəyev haqqında xoş sözlər eşidərsən. Uzun illər teatrın direktoru işləmiş, hazırda isə təqaüddə olan Tofiq Heydərov deyir ki, Sücəddin yaxşı aktyordur, teatrı sevən, işinə məsuliyyətlə yanaşan adamdır. "Oynadığı rollara isə söz ola bilməz. Hər bir obrazın üzərində ciddi çalışdığından tamaşaçı alqışları həmişə onu müşayiət edir. Onunla birlikdə neçə-neçə tamaşa səhnələşdirmişik. Rejissorlar, tərəf-müqabilləri onun istedadını, işə yaradıcı münasibətini həmişə yüksək qiymətləndirirlər". Rəssam Ramazan Ağayevə görə, Sücəddin yaxşı aktyor olmaqla yanaşı, həm də yaxşı dostdur: "Tez-tez görüşüb çay süfrəsi arxasında dünyamızda, ətrafımızda baş verən hadisələrdən danışır, fikir mübadiləsi edirik. Nədən danışırıqsa danışaq, sözü gətirib teatrla bağlayır. Hazırladığı rollar haqqında həvəslə məlumat verib fikrimizi öyrənməyə çalışır. O həm də gözəl ailə başçısıdır".

Yeni teatr mövsümü başlayır. Nəcəf bəy Vəzirov adına Lənkəran DDT-nin kollektivi bu mövsüm də maraqlı, günümüzlə səsləşən əsərləri səhnəyə qoymağı nəzərdə tutur. Əməkdar artist Sücəddin Mirzəyev bütün kollektiv kimi, tətildən sonra yeni obrazlar yaratmağa köklənib. Bu yolda ona və həmkarlarına uğurlar arzulayırıq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Naxçıvanda ilk dəfə "tullantıları ekoçantaya dəyiş" aksiyası keçiriləcək

**Sentyabrın 21-də Naxçıvan şəhəri, Heydər Əliyev prospektində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə "Tullantını dəyərə, ekoçantanı vərdişə çevir" devizi altında aksiya təşkil olunacaq.**



Aksiya zamanı vətəndaşlar ümumi tutumu minimum 35 litr olan plastik butulka, 5 litr tutumu olan şüşə butulka/banka və ya işlənmiş 10 batareya təhvil verərək əvəzində ekoçanta əldə edə biləcəklər.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tullantıların düzgün idarə olunmasına yönəlmiş belə aksiyalarda hər kəsi fəal iştirak etməyə, tullantıların təkrar emalına dəstək olmağa çağırır.

## Zaqatalanın Muğanlı kəndində yeni məktəb binası istifadəyə verildi

**Xeyli vaxt idi ki, Zaqatala rayonunun Muğanlı kəndində də daha geniş, müasir tədris vasitələri və texnologiyalarla təmin olunmuş kompleksə ehtiyac yaranmışdı.**

Pedaqoji və şagird kollektivi 1985-ci ildə tikilmiş, həm 40 illik istismar müddəti, həm də davamlı zəlzələlər nəticəsində qəzalı vəziyyətə düşmüş binadan istifadə etmək məcburiyyətində idilər.



Yeni orta məktəbin inşasına ötən ilin dekabrında başlanıldı və inşaatçıların gərgin zəhməti sayəsində artıq yeni tədris ilinin ilk günü müəllim və şagirdlərin ixtiyarına verildi. Şəhid Oruc Rəsulov adına Muğanlı kənd tam orta məktəbin açılış mərasiminə təhsil ocağının pedaqoji və şagird kollektivi, rayon ictimaiyyətinin nümayəndələri, kənd sakinləri, şəhid ailələrinin üzvləri və digər qonaqlar qatılmışdılar. Məktəbin direktoru Xacay Əlizadə iştirakçıları salamlayaraq təhsil ocağının fəaliyyəti, ötən tədris ilində qazanılan uğurlar barədə məlumat verdi. Bildirdi ki, məktəbin 380 şagirdinin təlim-tərbiyəsi ilə 35 müəllim məşğul olur. Cari il birinci sinfə 24 şagird qəbul edilib. 432 şagirdlik yeni tədris binası isə 3 mərtəbə və 3 korpusdan ibarətdir. Sinif otaqlarından əlavə, fənn kabinetləri, tədris-təcrübə sahəsi və otaqları, idman zalı var.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 20 aprel (Bazar günü) tarixli 161-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 19 rəcəbül-mürəccəb sənə 1337.
20 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## DAĞISTANA İMDAD!

Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Mərkəzi Komitəsi tərəfindən intixab olunmuş [seçilmiş] xüsusi bir komisyon tərəfindən dağıstanlı qardaşlarımız üstünə hücumavər olan [hücum edən] hürriyyət və istiqlal düşməni Denikinin qara qüvvəsi ilə hərb etmək üçün Azərbaycan könüllü dəstəsi təşkil olunur. Yazılmaq istəyənlər hər gün Məclisi-Məbusan binasında, “Müsavat” fraksiyonu mənzilində gündüz saat 8-dən 2-yə və axşam saat 5-dən 7-yə qədər yazıla bilərlər.

## TƏKZİB

“Znamya truda” qəzetəsində və sonradan başqa qəzetələrdə bir xəbər yazılmışdı ki, guya Qafqaziyada olan Müttəfiq dövlət komandanı general Tomson Gürcüstan Şurayi-Vükəlası [Nazirlər Kabineti] sədri Jordaniyanı üç dəfə İngiltərə ərkani-hərbinə [qərargahına] dəvət edib və guya axırda Jordaniyaya demişdir ki, Sülh Konfransı Eçmiyədzin uyezdindən başqa Rusiyanı 1914-cü il sərhədlərində bərpa eyləmək əsası ilə Zaqafqaziya cümhuriyyətlərini təsdiq etməyir. Sonrakı xəbərdə deyilirdi ki, guya bu söz Jordaniyaya artıq təsir bağışladığından, Jordaniya bu xəbərin əqəllən [heç olmasa] mayın 1-nə qədər elan edilməməsini Tomsondan xahiş etmişdir.

Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsinin məlumat bürosu bu əhvalatın əsilsiz olduğunu xəbər verir. Jordaniya ilə Tomson arasında yuxarıdakı məsələlər haqqında heç bir məhəbbət [söhbət] olmamışdır.

**İdarədən:** Qəzetəmizin keçən nömrələrinin birində “Yalan şayiələr” ünvanı ilə fövqdəki xəbərin əsilsiz və uydurma olduğunu yazmışdıq. “Vperyod” qəzetəsi də bu xəbərin yalan olduğunu yazdıqdan sonra deyir ki, erməni siyasi dairələrinin Parisdən və İstanbuldan aldıqları məlumata görə, Sülh Konfransı Zaqafqaziya cümhuriyyətlərini təsdiq etməyə maildir.

## BÖHTANLARLA BÖYÜK İŞLƏR GÖRÜLÜR

Biz Qafqaz türkləri haqlı sədamızı, təbii haqqımızı yanımızda, aramızdakı Müttəfiqlər müməssili [nümayəndəsi] Tomsona yetişdirəmmədiyimiz, ona həqiqəti-halı anlatammadığımız halda, ermənilər yüz dürlü böhtan və qırmızı yalanlarını Parisə, Londona qədər çatdıraraq Qafqaz siyasətində böyük rol oynamaqdadırlar. Həm öylə dəhşət və əhəmiyyətli rol oynamaqdadırlar ki, ona qarşı bir saat səbr və sükut, ona qarşı bir tədbiri-siyasi aramamaq hüquqi-sərihəmizə [açıq-aşkar, danılmaz hüquqlarımıza], həyati-istiqlalımıza olan aşkar təcavüzü qəbul eyləmək deməkdir. Bu isə müstəqil yaşamağa əzm etmiş bir millət üçün deyil, adi bir cəmiyyət üçün belə bir eyib, bir nöqsandır.

Yalnız bir eyib və nöqsanmı? İş bununla qalsa yenə dərd yarı, yenə nöqsanı ikmal mümkün. Fəqət daşnaksaqanlar öylə qızıl iftira və ağulu dillərlə, öylə ustalıq və sərbazlıqlarla [cəsarətlə] Müttəfiqləri və onların buralardakı vəkillərini aldadırlar ki, nəticəsi vücudumuzun mühüm bir üzvünü xəncərlə kəsib aparmaq və bu surətlə həyati-istiqbaliyyəmizi [gələcək həyatımızı] bir daimi zə’f və mərəzə düçar etməkdədir.

Heyf ki, bəyanatım quru bir söz deyil. İştə, Ermənistan Xariciyyə nazirinin Parisdəki erməni mürəxxəslərinə [nümayəndələrinə] vurduğu teleqraf!

İştə bu teleqrafın nəticəsi olaraq Qars Cənub-Qərbi Qafqaz Hökumətinin dağıdılması.

Ehtimal ki, oxuyanların bir qismi bu teleqraf məzmununu bilməyir. Teleqrafın xülaseyi-məzmunu böylədir:

*“Qarabağ, Şərur, Naxçıvan, Sürməli və Qars tərəflərində Osmanlı zabitlərinin komandaları ilə böyük türk qüvvətləri toplanmaqdadır. Bunlar top və ataş qüvvətləri ilə yenidən erməni qanı axıtmaqla bu yerləri Azərbaycana zorla ilhaq etmək istəyirlər. Vəziyyət qayət ciddi və təhlükəlidir. Müttəfiqlər qüvvətinin müavinəti [köməyi] ilə bu qanlı qitalın [qırğının] qabağı saxlanmalıdır. Vəilla [yoxsa] yaxında böyük və qanlı faciələr üz verəcəkdir.”*

Parisə çəkilən bu həyəcanamiz [həyəcan doğuran] teleqraf Parisi vəlvələyə saldığı bir anda, Tiflisdə çıxan ingiliscə “Di Trans-Qafqazian-post” qəzetəsindəki “Türk intriqaları” məqaləsi də buradakı Müttəfiq komandanlarını şübhəyə buraxdı.

İştə bu şübhə səbəbiylədir ki, Müttəfiqlər komandanı Tomson, bir az əvvəl Qars Hökumətini təqdir və təsdiq etdiyi halda, bu həftə adi bəhanələrlə onu dağıtdı və aprelin 14-ündə bütün Kabinə əzasını [üzvlərini] dustaq edib təhtəlhifz [nəzarət altında] Batuma göndərdi. Yarım milyonluq türk demokratiyasını daşnaksaqanların, erməni sərmayədarlarının pənçeyi-intiqamlarına buraxdı.

İştə, safdil [sadəlövh] türklər görsünlər, sadədil Azərbaycan türk demokratları anlasınlar ki, daşnaksaqanların kiçik bir qeyrətləri, daha doğrusu hiylə və böhtanları nə böyük işlər, şayani-əsəf [təəssüf ediləsi] təbəddüllər [dəyişikliklər] vücuda gətirir!

Nasıl can alacaq damarı bilirlər! Nasıl əhvali-hazirə tilsimini qırırlar! İngilisləri nasıl “Qafqazda Osmanlı nüfuzu” ilə quşqulandırırlar [şübhələndirir, qorxudurlar]!

İştə, bu da bir siyasi hünər, bir hiylə müvəffəqiyyətidir. İngilislər əli ilə böyük məram və qayələrinə çatmaqdır. Zəhmətsizcə yarım milyonluq bir türk kütləsinin ittihadını [birliyini], siyasi müəssisatını [müəssisələrini, qurumlarını] dağıtmaqdır. Bu məgər az hünərmidir?

Bugün-yarın Qars şəhəri ermənilərə keçəcək. Daşnaksaqanaların əski hakimiyyətlərini quracaq. Bütün müsəlman füqərası uzaqlara, issiz [kimsəsiz, boş] yerlərə qaçacaq. Qayalara, dağlara, sığınacaq. Ac, çılpaq qalacaq. Minlərcə naxoşlayacaq, yüzlərcə qırılacaq.

Əvət, daşnaksaqan hakimiyyəti Qarsa köçəcək. Oradaki yüzlərcə top, minlərcə tüfəng, milyonlarca patronu əllərinə keçirəcək, müsəlmanlar əleyhinə işlədəcəklər.

Ermənistan hüdud və nüfuzu altında 486 müsəlman kəndinin ermənilər tərəfindən zəbt və işğal edilmələrinə rəğmən, Qarsdakı 86 erməni kəndinə sığınan yersiz müsəlman kəndliləri yerlərindən qovulacaq, dağlara, bayırlara sürüləcəklər. Bu il dağ otları ilə yaşasalar belə, gələn qışda aclıqdan ölümə məhkum olacaqlar.

İştə daşnaksaqan propaqandasının qızıl böhtanının nəticəsi!

İştə ingilisləri inandırmalarının, siyasi manevra və hiylələrinin səmərəsi!

İştə buna müqabil də bizim sükut və “təvəkkül”ümüz!

Əcəba, bizim bu sükut və təhəyyürümüz [çaşıb qalmağımız, mat qalmağımız] doğrudan uzun sürəcəkmi?

Zənn etməm, daha zənn etməm ki, türk demokratiyası əskisi kimi uzun yatsın!

Ümidvaram ki, tezliklə bu hiyləkarlıqların, ingilis səhvlərinin üstünü açsın və tələb etsin ki, Qars hökumət heyəti bacarıqsız idisə onu təməlindən pozmaq, dağıtmaq olmaz. Mövcud olan Məclisi-Məbusanı vasitəsilə təzələmək, əhvalı islah etmək mümkündür.

Ümumi demokat qanunu ilə vücuda gələn bir məmləkət Məclisi-Müəssisanını heçə saymaq, onun Kabinəsini tutub həbs eyləmək, qonşular təşviqatı ilə Məclisi-Məbusanı ilə bərabər bir hökuməti-mütəşəkkiləni [mütəşəkkil, təşəkkül tapmış bir hökuməti] dağıtmaq, millətlər müqəddəratını təmin üçün Qafqaza gələn ingilislərin mənfəətinə müvafiq olmasa gərək.

*Ümidvar*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**17 aprel 1919**

İclas saat 12.15 dəqiqədə açılır.

**Sədr** – Həsən bəy Ağayev.

**Katib** – Mehdi bəy Hacınski.

**Sədr** – Məclis açılır. Bugün ruznameyi-müzakirat [müzakirə gündəliyi] Divani-Rəyasət tərəfindən böylə tərtib edilmişdir:

1) Daxil olmuş kağızlar: o cümlədən:

A – Daxiliyyə Nəzarəti tərəfindən təqdim olunmuş Salyan qışlaları [kazarmaları] təmiri üçün istida olunan [tələb edilən] məbləğ xüsusunda layiheyi-qanuniyyənin [qanun layihəsinin] eyni Nəzarətə təshih və müəyyən eyləmək üçün iadəsi;

B – Ləvazimat Komisyonunun üzvlərinin diyətəsi (məvacibi) təzayüdü [artırılması] haqqında layihəsi;

C – Ziraət və Əmlak Nəzarətinin Nuxa şəhəri ilə Nuxa-Yevlax şose yolunu Kiş çayının daşqınından mühafizə etməkdən ötrü mövcud olan daş və çəpərdən mürəkkəb [ibarət] yarımsəddin təmiri üçün lazım olacaq məbləğ haqqında layiheyi-qanuniyyəsi;

Ç – Sabiq Parlaman üzvü Bağır Rzayevin istidası [ərizəsi];

D – “Əhrar" fraksiyonunun bəyannaməsi.

2) Mükəlləfiyyəti-əsgəriyyədən maarif yaxud sənət cəhətilə azad olunması haqqındakı imtiyazat qanununun tövsisi [genişləndirilməsi] xüsusundakı layiheyi-qanuniyyənin üçüncü qiraəti.

3) Şimali Cibaliyyun [Dağlılar] Hökumətinə 30 milyon rublə qərz [borc] buraxılması layihəsi;

4) Kür nəhri sahillərində sədlər inşası üçün müəyyən məbləğ buraxılması haqqında layiheyi-qanuniyyə.

Buna əlavə etmək istəyirəm ki, Ziraət və Əmlak Nəzarəti tərəfindən gələn layihə Maliyyə-Büdcə komisyonuna göndərilir. Ləvazimat komisyonundan təqdim olunan layihə də eyni komisyona gedir. Bunu da ərz edirəm ki, Parlaman qulluqçularının məvaciblərinin təzayüdü xüsusunda gələn pəncşənbə [cümə axşamı] günü başqa bir layihə gələcəkdir. İcazə versəniz, bu layihəni də Parlamana gəlmədən birbaş Maliyyə-Büdcə komisyonuna göndərərəm ki, ikisi də bir yerdə müzakirə edilsin. Bağır Rzayevdən gələn kağız bu məzmundadır. *(Katibə)* Oxuyun!

**Katib** *(Oxuyur)* – Azərbaycan Məclisi-Məbusanı Rəyasəti-Aliyyəsinə sabiq Məclisi-Məbusan əzası Bağır Rzayev tərəfindən.

“Möhtərəm əfəndim həzrətləri! Acizləri Məclisi-Məbusan açıldığından yanvar ayının 21-nə qədər keçmiş Seym əzası olduğum kimi, Məclisi-Məbusan əzalığında da qalaraq türklər Qafqazyadan çəkildikdən sonra İrəvandan Naxçıvana çəkilməyə məcbur oldum. Ermənilərlə Naxçıvan Şərur islamları arasında davam etməkdə olan hərb qarğaşalığına məruz olub da böyük bir müşkülat qarşısında qaldım və heç bir vəsilə ilə Bakıya Məclisi-Məbusana gəlməyə müvəffəq olammadım. Hətta Məclisi-Məbusanın açılmasına dair də heç bir məlumata dəstrəs olammadım [əlim çatmadı]. Bunun üçün naqabili-rədd [aradan qaldırılması mümkün olmayan] səbəblərdən naşi [ötrü] gələmmədiyimi nəzərə alaraq, hüquqi-şəxsiyyəmin müdafiə edilib də sabiq əzalıq yerimin təkrar kəndimə verilməsini Məclis əzayi-möhtərəməsindən [möhtərəm üzvlərindən] rica və istirham eylərəm.”

*Bağır Rzayev*

**Sədr** – Divani-Rəyasət təklif edir ki, bu istida Etibarnamə (Mandat) komisyonuna verilsin. Etiraz yoxdurmu?

**Səslər** – Etiraz yoxdur.

**Sədr** – “Əhrar" fraksiyonunun bəyannaməsi. *(Katibə)* Oxuyun!

**Katib** *(Oxuyur)* – El [xalq] fraksiyası "Əhrar" tərəfindən Azərbaycan Parlamanına məruzədir.

“İşbu nisan 14-ündəki Parlaman iclasında yeni Kabinə təşkili haqqında "Əhrar" fraksiyası özündən asılı olmayan səbəblərdən naşi öz nöqteyi-nəzərini söyləyəmmədiyindən, hökumətə etimad məsələsi səsə qoyulduqda bitərəf qalmağa məcbur olmuşdu.

Vətənin hər yerində hökumətin mexanizmasının hər şöbəsində pozğunluq, nizamsızlıq, başsızlıq və rüşvətxorluq tabəhal [indiyə qədər] hökmfərma olduğundan [hökm sürdüyündən], yollarımızın təmiratına layiqincə iqdam edilmədiyindən [təşəbbüs edilmədiyindən], torpaq məsələsinin həlli üçün heç bir tədbir görülmədiyindən, ədliyyə işlərimiz nizam altına alınmadığından, məktəblərimiz, mədrəsələrimiz fəna hallar keçirdiyindən; maliyyə, ərzaq, posta-teleqraf işlərimiz təmamilə yoluna qonulmadığından aşkardır ki, sabiq hökumətin verdiyi və’dlər əncampəzir olmamışdır [nəticə verməmişdir].

Yeni hökumətin verdiyi vədlər sabiqki kimi kağız üzərində qalmayıb, qövldən feilə [sözdən işə] keçəcəyinə ümid edərək, ona müzahirət [kömək] edəcəyimizi vəd ediriz. Siyasətimizin əhəmiyyətini və incəliyini dərk edən fraksiyamız Kabinə təşkilini təxirə uğratmamaq üçün iştirakdan vaz keçmiş idisə də, bilaxirə [daha sonra] Rəisi-Vükəla [Baş nazir] cənablarının rəy və tənsibi [münasib görməsi] üzərinə Kabinəyə dəvət olunan [Aslan bəy] Qardaşov cənablarının iştirakına da fraksiyamız mane deyildir.”

*Sədr: A[bdulla bəy] Əfəndizadə*

**Katib** *(Oxuyur)* – Azərbaycan Məclisi-Məbusanı Divani-Rəyasətinə.

1919 sənəsi aprelin 16 tarixli "Əhrar" fraksiyasının qətnaməsi surəti.

Məclisi-Məbusan Rəyasətinə bəyan olunur ki:

1-ci maddə: Məclisi-Məbusanda söylənən rusca nitqlər türkcəyə bəhəməhal [dərhal] tərcümə edilməlidir.

2-ci maddə: Məclisi-Məbusan nizamnaməsi təshihi ilə təb [çap] etdirilib səriyyən [qısa müddətdə] fraksiyalara tövzii [paylanması].

3-cü maddə: Məclisi-Məbusan komisyonları müzakirələrində rusca müzakirə davam etdiyi müddətcə fraksiyalarımız nümayəndələri komisyonlara iştirak etməyəcəkdir.

*Sədr: A[bdulla bəy] Əfəndizadə*

**Sədr** – Bu xüsusda Divani-Rəyasətin rəyi belədir: Əvvəlinci maddə nakaza (nizamnaməyə) aiddir ki, rusca danışılmış nitqlər türkcəyə tərcümə edilsin. Nakazda dil xüsusunda bir şey yazmamışdır. Ona görə də bu maddə nakazın təğyir-təbdilinə [dəyişdirilməsinə] aid olduğu üçün komisyona verilməlidir. Keçən dəfə məlumunuzdur elan olundu ki, Nakaz komisyonu işlərini bitirdiyindən ləğv olunur. İndi təzədən ayrı bir komisyon seçilməsi lazımdır ki, əlavə maddələrə baxıb işləsin. İki son maddələr xüsusunda Divani-Rəyasət bir şey söyləməyir. Bunu nəzərdə tutun və özünüz etilafa [razılığa] gəlin. Növbədəki məsələyə keçmədən rica edirəm ləğv olunmuş Fəhlə Komisyonu əvəzinə təzədən komisyon seçəsiniz. Çünki Fəhlə Komisyonu üzvləri üç dəfə iclasa gəlməmişlərdir. Nakaza görə də bir komisyon üzvləri üç dəfə iclasa gəlməsələr, 23-cü maddəyə görə o komisyon ləğv olur. İclasın axırında qapalı olaraq yeni komisyon seçilməlidir. Növbədəki məsələ Mükəlləfiyyəti-əsgəriyyə [Hərbi mükəlləfiyyət] qanun layihəsinin 3-cü qiraətidir. Məruzəçi Musa bəy Rəfiyev.

*(Qanun layihəsi maddəbəmaddə oxunub səsə qoyulur. Hər maddə əksəriyyətlə qəbul olunur. Sonra layihə tamamən səsə qoyulur, əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur və Təshihiyyə Komisyonuna [Redaksiya Komissiyasına] verilir.)*

**Sədr** – Növbədəki məsələ Cibaliyyun [Dağlılar] Hökumətinə 30 milyon faizsiz qərz verilməsi layihəsidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**[Musa bəy] Rəfiyev** – Şimali Qafqaziya Hökuməti Azərbaycan Hökumətinə müraciət edib 30 milyon faizsiz qərz [borc] istəyirlər. Bu barədə varid [daxil] olan layihəni Büdcə-Maliyyə Komisyonu müzakirə edib və Dağıstan Hökumətinə müavinət [kömək] lazım olduğunu nəzərə alıb, dəyişiksiz qəbulunu Parlamandan rica edir. Layihə üç maddədən ibarətdir. *(Oxuyur)*

Layihə:

1) 1919 sənəsinin fövqəladə smetasına salınaraq Şimali Qafqaziya İttihadi-Cibaliyyun Cümhuriyyəti [Birləşmiş Dağlılar Respublikası] Hökumətinə otuz milyon rublə faizsiz qərz vermək üçün Maliyyə nazirinə izin verilsin.

2) İttihadi-Cibaliyyun Cümhuriyyəti Hökuməti Azərbaycan Hökuməti ilə birlikdə para çıxarmaq haqqında saziş əmələ gələrsə, məzkur qərz [deyilən borc] birlikdə para buraxıldıqdan sonra ödəniləcəkdir.

Birlikdə ümumi para buraxmaq haqqında xüsusi saziş olmazsa, İttihadi-Cibaliyyun Cümhuriyyəti Hökuməti kəndisinə verilmiş borcu iki il müddətində aşağıdakı qayda üzrə üç növbədə verməlidir:

1 - On milyon, qərz verildiyi gündən bir il sonraya qədər;

2 - On milyon, bir il altı ay sonraya qədər;

3 - Mabaqisi [qalanı] iki il sonraya qədər ödəməlidir.

3) İttihadi-Cibaliyyun Cümhuriyyəti hökumətinin vəkilinə qərz verilənə kimi onun ödənilməsi haqqında işbu layiheyi-qanuniyyənin 2-ci maddəsində göstərilən şərtlərlə müqavilə bağlamaq Maliyyə nazirinə tapşırılsın.

**Sədr** – Kim bu barədə danışmaq istəyirsə, vərəqə ilə bildirsin.

**Məhəmməd Əmin Rəsulzadə** *(yerindən)* – Bu barədə danışmaqdamı lazımdır?

**Sədr** – Söz istəyən yoxmu?

**Səslər** – Yoxdur, yoxdur, səsə qoyun!

**Sədr** – Onda səsə qoyuram. Layihəni maddəbəmaddə səsə qoyuram.

*(Layihə maddəbəmaddə oxunub səsə qoyulur. Əksəriyyətlə qəbul olunur. Sonra tamamən səsə qoyulur, əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.)*

**Sədr** – Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ Kür nəhri sahillərində sədlər inşası üçün məbləğ buraxılması haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Abuzər bəy Rzayevdir.

**[Abuzər bəy] Rzayev** – Möhtərəm məbuslar! Ozünüzə məlumdur ki, yaz fəsli seylab [sel, daşqın] vaxtı Kür çayı daşıb çox zərər verir. Camaatın əkin və malını məhv eyləyir. Əlbəttə, hökumətin borcudur buna bir çarə etsin, məsələn mühəndislər göndərsin, proje hazırlasın, milyonlarla pul buraxıb bu fəlakətin önünü alsın. Fəqət, hələlik bunların həpsini etmək mümkün deyildir. 1915-ci ildə Kür nəhri daşıb xalqa nəhayət dərəcədə böyük zərər yetirmişdi. O vaxt rus hökuməti tələsik bir layihə qayıraraq camaatın zəhmətindən istifadə edərək çay boyu torpaq tökdürməyə başladı. Həman layihəyə görə 90 min sajın torpaq tökülüb sədd qayrılmalıydı. Fəqət iş qurtarmamış iğtişaş düşüb 70 min sajın torpaq töküldükdən sonra camaat dağıldı və iş yarımçıq qaldı. İcarədar dəxi işdən əl çəkdi, amma o vaxt bir neçə xətalı yerlər sədsiz qaldı. Ona görə də sonradan hökumət öz xərci ilə oraları düzətməyə başladı. Fəqət yenə başa vurulmadı. Böylə ki, cümlətanı 226 sajın torpaq töküldükdən sonra iş yenə yarımçıq qaldı. İndi iki ildir ki, həman işlərə bilmərrə [yerli-dibli] qulaq asan olmayır. Yağış yağır, sədləri xarab edir. Böyləliklə, təzəsi qayrılmadığı halda, qayrılmış olanı da sökülüb dağılır. Şimdi bu sədləri təmir etmək lazımdır. Yenidən təmir ediləcək olan yer təqribən 7 verstə qədərdir ki, bura da cümlətanı 262 sajın torpaq tökülməlidir. Təxminən hər sajına bir neçə fəhlə lazımdır. Fəhlənin gün muzdu 20 manatdan hesab edildikdə, cümlətanı 500 min manat lazım olur. Bundan əlavə, texniçeski nadzor [texniki nəzarət] dəxi lazımdır ki, bunun xərci təqribən 3 faiz götürülərək onun da məsarifi hesab edildikdə cümlətan yekunu 641 min manat lazım olur. Nəzarət bu xüsusda Məclisi-Məbusana tələsik bir qanun layihəsi təqdim etmişdir. Maliyyə Komissiyası məzkur [deyilən] layihəyə baxıb heç bir irad tapmayaraq tamamilə qəbul etmişdir. Qanun layihəsi də budur. (Oxuyur) Maliyyə-Büdcə Komisyonu bu layihənin qəbulunu və Ziraət [Əkinçilik] naziri binagüzarlığına [sərəncamına] 641 min manat buraxılmasını təklif edir.

**[Sultanməcid] Qənizadə** – Əlbəttə, Kürün daşmasından çox böyük zərər hasil olur. Şübhəsiz bu xüsusda təşəbbüslər edilib sədd çəkmək lazımdır. Çünki əhalinin mənfəəti gərək gözlənsin. Amma əsl mətləb buradadır ki, Kürün daşmağın vaxtı keçidbir. Həmişə daşqın təqribən aprel ayının əvvəllərində olurdu. Bəzi illər əbədən daşmazdı. Şimdi bu vaxtadək daşmayıb və bu ziyanın olacağı da gözlənməyir. Daşqının vaxtı keçibdir. Ona görə də sədd üçün 600 min manat buraxmaq nahaqdır. Çünki pul hədər gedər. Binaənileyh [ona görə], mən layihənin qəbulunu lazım bilməyirəm.

**Mahmudov Mustafa** – Məruzəçinin dediyi kimi, Kür sahilindəki səngərlər neçə ildən bəridir ki, qayırılır. Fəqət bu axır vaxtlar şuluqluq olduğuna görə, oraya heç fikir verilməyib, qulaq asılmayıbdır. Mən zənn edərdim ki, bu barədə heç danışıq olmayacaq. Amma bizə indi deyirlər ki, lazım deyil, çünki vaxt keçibdir. Fəqət bu doğru deyil. Çünki çayın daşmağı hələ bundan sonradır. Kür hələ daşqın halına gəlməyibdir və biləks [əksinə] bu il daha yaman daşqın gözlənilir. Bir də, hökumət qabaqcadan bu barədə sərəncamda bulunmuşdur, hətta səddin təmirinə 200 min manat buraxmışdır, bu ümidlə ki, bu layihə qəbul edildikdən sonra həman kreditdən o 200 min manat dövlət xəzinəsinə qaytarılacaqdır. İş çoxdan başlanıbdır. Mən təklif edirəm, başlanmış iş yarımçıq qoyulmasın və layihə qəbul edilib istənilən pul buraxılsın.

**[Sultanməcid] Qənizadə** – Görünür ki, iş başlanıbdır. Əgər böylə isə, əlbəttə, lazımdır pul buraxılsın. Ancaq mən iltimas edərdim layihə oxunanda ətraflıca məlumat verilsin, tainki natiq işə yaxşı bələd olsun. Şimdi mən də deyirəm ki, pulu buraxmaq vacibdir.

**Hacı Hüseyn Əfəndizadə** – Kür sahilinə, əlbəttə, sədd çəkmək lazımdır. Bunun üçün 641 min manatın da buraxılması fərzdir [vacibdir]. Fəqət mən təklif edərdim ki, bu pul buraxılanda kəndlərə təqsim olunsun [bölünsün]. Çünki pul buraxılır, amma desyatnik [briqadir] və sairləri öylə adamlardan olur ki, camaatı pulsuz (iməci) işlədirlər. Pul da qalır bəzi adamların cibində.

**Sədr** – Bu barədə daha kim danışmaq istəyir? Səsə qoyuram. Hər kəs layihənin komissiya təklif etdiyi kimi qəbulu tərəfdarısa, əlini qaldırsın. *(Əllər qalxır.)* Deməli layihə əksəriyyətlə qəbul olunur.

Ruznameyi-müzakirat bitmiş olduğundan, iclası qapayıram.

*(İclas saat birdə qapanır.)*

## TELEQRAF XƏBƏRLƏRİ

**London hücumuna dair**

London – Londona və ətrafına müharibə zamanı almanlar 857 bomba tökmüşlərdir. Bunlardan 573 nəfər dərhal tələf olmuşdur. 1115 nəfər də yaralanmışdır ki, onların da əksəri vəfat etmişlər. 1192 ev də xarab olmuşdur.

**Fransa Lloyd Corc barəsində**

Fransanın ali idarələri tərəfindən Lloyd Corcun zəhməti təqdir edilərək “Lloyd Corc böyük sülhçüdür” namı verilmişdir. Fransa, Avropa və bütün cahan Lloyd Corca minnətdardır. Xüsusən Fransa ona mədyundur [borcludur]. Lloyd Corc Avropanın sair fəal şəxslərindən ziyadə Fransanın halını düşünür və bizim halımızı təqdir edir. Biz həmişə onunla razı olmayırdıqsa da, fəqət heç vaxt onun Fransaya olan həmiyyət və sədaqətini yaddan çıxarmarız.

**Rusiya Şurasının Almaniyaya təklifi**

“D. T. Z.” qəzetəsi yazır ki, düşənbə [bazar ertəsi] günü Rusiyanın Almaniyaya etdiyi təklif elan ediləcəkdir. Rusiya Şurası Almaniya hökumətinə təklif edir ki, Rusiya ilə Almaniya ittifaq bağlasın. Rusiya Almaniyanı 1914-cü il sərhədi ilə təmin edir. Rusiya və Macarıstan Almaniyaya yarım milyon qoşun kömək verir. Bu şərtlə ki, Almaniya da Rusiyanı əzmək istəyən Etilaf [Antanta] dövlətlərinin hərəkatına mane olsun. Almaniyada sosialist hökumət olsun və zavodlar da ümumiləşsin.

* Paris – Saksoniya Hərbiyyə naziri Nyurerin qətl edildiyi Odessadan xəbər verilir. Yaralı saldatlar nümayəndələrini nazir hüzuruna qəbul etməyi rədd etdiyi üçün əhali həyəcana düşüb, orada olan pulemyot rotasını tərksilah etdirərək silahlarını özləri alıb, sonra Nəzarətə girib, naziri tutub, dışarı çıxıb Fridrix Avqust körpüsünə çəkib, onu Elba çayına atmışlardır. Nazir üzməklə xilas olmaq istəsə də, bir qurşun ilə qətl edilmişdir.

**Saksoniyada idareyi-əsgəriyyə**

Saksoniya hökuməti bütün Saksoniya qitəsini [ərazisini] idareyi-əsgəriyyə [hərbi rejim] altına almışdır. Komandanlıq hərbi komandana vagüzar edilmişdir [tapşırılmışdır].

**Bolşeviklər haqqında Avamlar Kamerasında**

Londondan teleqrafla xəbər verirlər ki, Avamlar Kamerasında Edvards ümumun nəzər-diqqətini sülh haqqında Lenindən alınan təklifə cəlb etmişdir ki, bu da kəskin münaqişata bais olmuşdur. Bir çoxları bolşeviklərlə müzakirat əleyhinə danışmışlardır. Şort hökumət namından [adından] danışarkən demişdir ki, biz Rusiya ilə müzakiratda bulunmaqdan imtina etməyə çalışmırıq. Lakin biz bütün Rusiyanı dəhşət içrə saxlayan quldur dəstəsi ilə əlaqədar olmaq istəməyirik. Biz Rusiya camaatına deyə bilərik ki, hərəkatı [hərəkətləri] mədəniyyəti təhdid edən hökumətlə iş görmək arzusunda deyiliz. Şort demişdir ki, Leninin müzakirat başlamağa hazır olması Almaniyanın işidir ki, bununla da bolşeviklərin dinc və mədəni adamlar olduğunu inandırmaq qəsdindədir. Almaniya mümkün olan yerdə bolşevizmi nəşr edir [yayır]. Bolşevizm onların yeganə ümididir, çünki bolşevizm olan yerdə hökumət zəifləşir.

## SÜLH ƏTRAFINDA

**Türkiyə ilə sülh**

Konfransın məsaisindən [işindən] bəhs edən son “Tayms” qəzetəsi xülasətən deyir ki:

*“Fransa Rusiyanı qeyb etdi. Biz də Fransa ilə bərabər qeyb etdik, çünki Rusiya ikimizə də müqtəzi [lazım] idi. Bu dövlət yerinə bir yeni qüvvət iqamə etmək [qoymaq], eyni zamanda Şərq ilə Qərb arasında bir sədd vücuda gətirmək lazımdır. Rusiyanın inhilalı [çöküşü] üzərinə Fransa Rusiyada yeni bir hökumət istədiyi kimi, biz də Türkiyənin inhilalı üzərinə onun yerinə qaim olmaq üçün Hindistan şəklində bir hökumət istəyiriz. Suriya işində də böylə. Suriya da bizim Misir yolumuzdur. Suriyada Fransanın şədid [güclü] əlaqəsini də təsdiq edəriz.”*

*“Zaman”*

**Paris** – Lloyd Corc katiblərindən birisi Klark demişdir ki, sülh müahidənaməsi [sazişi] üç həftə müddətində qurtaracaqdır. Sonra Almaniya nümayəndələri də Versala dəvət ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

**Cənub-Qərb Qafqaz Hökumətinin həbsi**

İngilis komandanlığı Qarsda Cənubi-Qərbi Cümhuriyyəti hökumətini həbs eyləyib Tiflisə gətirmişdir. Məhbuslar Tiflisdə qarovul təhtində [altında] xüsusi vaqon içində saxlanırlar.

**Sərvər bəyin qətli haqqında**

Tiflisdə alınan məlumata görə Cənubi-Qərbi Qafqaziya hökumətinin sədri Sərvər bəy Atabəyov kəndçilər tərəfindən qətl edilmişdir.

Əhməd bəy Ağayevin həbsi

İstanbulda həbs edilən Əhməd bəy Ağayevin həbsdən azad edilməsi haqqında şaye olan [yayılan] xəbərlər hələ təsdiq edilməyir.

**Vəhib paşa**

Keçənlərdə xəbər verilmişdi ki, sabiq Qafqaziya cəbhəsi Baş komandanı [Məhməd] Vəhib paşa ilə İstanbul siyasiyyunundan [siyasi xadimlərindən] mühərrir [yazıçı] Hüseyn Cahid bəy qurşuna dizilməklə edam edilmişlərdir. İdarəmizə yetişən mötəbər xəbərlərə görə Vəhib paşa və Hüseyn Cahid bəy edam edilməmişlərdir, ancaq onları tutub həbs etmişlərdir və istintaq davam edir.

**Batumda**

* Odessadan və Krım kənarlarından fərarilərlə [qaçqınlarla] paroxodlar gəlir. Axırıncı paroxodla Odessadakı Blaqorodnı institutun qızları gəlmişlərdir.

* Pasxa bayramı münasibətilə ingilislər əhaliyə girvənkəsi 8 manatdan ət, 2 manatdan lobya, yarım girvənkə qənd vermişdir. Burada bahalıq çox artıqdır. Otaq böhranı da şiddətlidir.

* Bakı-Batum dəmiryolunun açılması xəbəri burada məmnuniyyətlə qarşılandı.

* Həbs edilmiş Tətil Komitəsi üzvlərindən 25 nəfər azad edilmişdir. Məhbuslardan birisi “Tezeus” kruvazöründə [kreyserində] füccətən [qəflətən] vəfat eyləmişdir. Beş nəfər hələ də həbsdədir.

Yekaterinodar – “Mariya” nam [adlı] drednout [zirehli gəmi] dənizin dibindən qaldırılmışdır.

## DAĞISTAN ƏHVALI

**Təkzib**

*(Rəsmi)*

Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi Kantemir cənablarından:

“Yedinaya Rossiya” qəzetəsinin 15 aprel tarixli 79-cu nömrəsində Qudermes ilə Xasavyurtun Könüllü ordu əsgərləri tərəfindən alınması, Şamilqala (Petrovsk) ilə Teymurxanşura arasındakı dəmiryol hərəkatının dayandırılması və Şamilqalada general Prjevalski tərəfindən qanun və qaydalar qoyulması haqqında dərc edilən irticai xəbərlər əsilsizdirlər. Xasavyurt Dağıstan hökuməti əlindədir. Qudermes üç günlük müharibədən sonra Dağıstan əsgərləri tərəfindən alınmışdır. Şamilqalada zəbtiyyə [asayiş] və hərbiyyə işləri polkovnik Məhəmmədov başda olmaq üzrə Dağıstan hökuməti ixtiyarındadır. Polkovnik Məhəmmədov eyni zamanda qarnizon naçalnikidir. Beş gün bundan əqdəm [qabaq] Müttəfiqlər müvəqqətən Şamilqalada dayanmış olan Prjevaliski dəstəsinə Şamilqalanı tərk etməyi təklif etmişlərdir. İndiyə qədər Prjevaliskinin hökmü ancaq öz dəstəsinə şamil idi. Dağıstan hökumətinin heç bir əsgəri dəstəsi Çeçenistana Denikin əleyhinə getməkdən imtina eyləməmişdir. Çeçenlər Denikinə tabe olmayıb, Dağıstan hökumətinə sadiqdirlər.

“Yedinaya Rossiya” qəzetəsi dediyi kimi, Qroznıda ictima [yığıncaq] deyil, ancaq Denikin iştirakı ilə konfrans davam edir. Bu konfransda Dağıstan hökuməti nümayəndələri və general Briks başda olmaq üzrə Müttəfiq dövlət nümayəndələri də iştirak edirlər.

**Şimali Qafqazda**

Könüllü ordu ştabında xüsusi bir Təbliğat şöbəsi açılmışdır. Bu şöbənin başında Rostov milyonerlərindən məşhur Paramonov durur. Bu Təbliğat şöbəsinin külli pulu vardır. Bu Təbliğat şöbəsinin xüsusi Dağıstan şöbəsi də vardır. Bu şöbənin başında Sergey Qadjimukov nam bir zat əyləşir. Dağıstanlılar arasında Könüllülərin irticakaranə ideyasını təbliğ etmək üçün Denikin tərəfindən 25 milyon pul təxsis edilmişdir [ayrılmışdır].

**İrtica dəhşətləri**

Mədən Sularından gələn xəbərlərə nəzərən Könüllü ordu Kislovodsk və Pyatiqorsk şəhərlərinə daxil olduqdan sonra bu şəhərlərdə böyük qanlı hadisələr vaqe olmuşdur [baş vermişdir]. Könüllü ordu bu yerlərdə asudəlik bərpa etmək deyil, intiqam alırdı. Kislovodskda gün vannası yanında üç həftə müddətində qurulan dar ağacları gecə və gündüz dayanmadan işləyirdi. Şəhər kənarında olan qəbristanda çox adamlar edam edilirdi. Kislovodskda Könüllülər məşhur professor Neçayevi öldürmüşlərdir.

**Şimali Qafqaza heyət gedir**

Azərbaycan Parlamanı fraksiyaları əksinqilabçılarla mübarizə edən dağıstanlıları təbrik və Şimali Qafqazın əhvalına bələd olmaq üçün Şimali Qafqaza bir heyət göndərirlər. Heyət işbu zatlardan ibarətdir: Rəhim Vəkilov (Müsavat), Sul-tanməcid Qəniyev (İttihad), Vəzirov (sosialist), Bakı zəhmətkeş inteligensiyasından A. B. Abaşidze gedir. Heyət bu gün Teymurxanşuraya, oradan da cəbhəyə əzimət edəcəkdir [yola düşəcəkdir].

**Denikin ordusu**

Aprelin 9, 10 və 11-də Qudermes altında Dağıstan əsgərləri ilə Denikin ordusu arasında inadlı müharibələr olmuşdur. Bu müddət ərzində Qudermes dəfələrlə əldən-ələ keçmişdir. Aprelin 11-də Dağıstan əsgərləri qəti surətdə Qudermesi işğal etmişlərdir. Həman gün saat 3-də Könüllü ordu əsgərləri Qudermesi almaq üçün hücum etmişlərsə də, dəf edilmişlərdir.

Aprelin 11-də Dağıstan əsgərləri düşməni Ustar-Qardoy kəndindən də çıxarmışlardır. Hal-hazırda Məskər-Yurt hərəkati-hərbiyyə mərkəzidir. Burada ciddi və inadlı müharibələr vaqe olmaqdadır. Hər iki tərəfdən tələfat vardır. Könüllü ordu əsgərləri Qudermes və Ustar-Qardoy xəttində geri çəkilirlər. Bir para yerlərdə xəndəklərdən kazak səsləri eşidilmişdir. Səslər deyirmişlər ki: “Dağıstanlı qardaşlar, bəsdir müharibə, gəliniz barışaq.”

**Dağıstan hökuməti rəisi Kotsev**

Dağıstan hökuməti rəisi Kotsev aprelin 15-də Dağıstan səfərindən Teymurxan şuraya qayıtmışdır. Andi, Qunib və Avar nahiyələri Uzun Hacını vəkil etmişlər Dağıstan hökumətinə xəbər versin ki, onlar Denikin əleyhinə 15 mindən ibarət bir partizan dəstəsi çıxarıb axırıncı imkana qədər öz vətənlərini irticadan mühafizə edəcəklərdir.

**Həbslər**

Dağıstan hökumətinin Çeçenistanda olan hərbi idarəsi iki zabit həbs etmişdir. Bunlar mart ayının axırlarında Qroznıda Lyaxovdan pul və məktub almışlarmış. Zabitlərdən tutulan sənədlərə görə, bu pullardan 27 min manatı bir nəfər nüfuzlu çeçenə rüşvət verilmək üçün imiş. 30 min rubləsi də bazar natiqlərinə təxsis edilmiş imiş.

**Düşmənin qüvvəsi**

Verilən xəbərlərə görə, axırıncı müharibələrdə Könüllü ordu səflərində [sıralarında] Birinci plastun, Birinci Kuban firqələri [diviziyaları], Tersk könüllüləri və sunjenlilər iştirak edirmişlər. Könüllü ordunun əhvalı gün-gündən fənalaşmaqdadır.

## SOSİALİSTLƏRİN KÖNÜLLÜ BÖLÜYÜ

Sosial-demokrat “Hümmət” firqəsi konfransının qərarına görə firqənin Bakı komitəsi Dağıstanda Denikin qüvvələri ilə mübarizə etmək üçün sosialist bölüyü təşkil edilməsi üçün hərbiyyə komisyonu tərtib etmişdir. Parlaman idarəsində “Hümmət” firqəsi odasında hər gün saat 10-dan 2-ə qədər könüllü qəbul olunur.

“Hümmət” firqəsinin hərbi təşkilatı fəhlə və kəndlilərə müraciət edərək aşağıdakı bəyannaməni nəşr etmişdir.

**Cümlə cahan füqərayi-kasibəsi [proletarları] toplaşın!**

Yoldaşlar!

Hürriyyət günəşinin qabağını qara buludlar tutmaqdadır. Tac və taxtı sərnigun olmuş [başaşağı olmuş, devrilmiş] Nikolay Romanovun cəllad və xunxar [qaniçən] yaranalları [generalları] əllərindən getmiş şövkət və əzəmətlərini qaytarmaq arzusu ilə əsrlərlə Rusiya demokratiyasını [xalqını], Rusiyada yaşayan qeyri-rus millətlərini əsarət zəncirində saxlayan çarizmanı təzədən bərpa etmək istəyirlər.

İki il müddətində Rusiya demokratiyasının qanın[ı] tökən, daxili Rusiyada Qızıl ordu qarşısında davam edə bilməyib tülkü kimi qaçan Kolçak, Denikin və Lyaxovlar bu dəfə də cümlə hücumlarını Dağıstan demokratiyasının tərəfinə keçirib hürriyyətin bəxş etmiş istiqlal, hüquqi-milliyyə və bəşəriyyələrini payimal etmək [tapdalamaq] istəyirlər.

Dağıstan demokratiyası bu qaragüruhun təcavüzü qarşısında qəhrəmananə durub çarpışır, lakin Lyaxovların müsəlləh [silahlı] və müntəzəm [nizamlı] cəlladlarının qabağında qeyri-müntəzəm surətdə davam etmək dağıstanlı yoldaşlarımıza nə qədər çətin olduğu aşkardır. Ona görə də üzlərini bizə tutub bizdən kömək istəyirlər, bizi çağırırlar.

Yoldaşlar! Hürr və azad yaşamaq istəyən, Rusiya inqilabı[nın] bəxş etmiş hüquqlarını əldə saxlamaq arzusunda olan bəninövi-bəşəri [bəşər övladlarını, insanları] mütləqiyyət və sərvətin istibdad və zülmündən xilas etmək istəyən hər kəs Dağıstan demokratiyasına yardım etməlidir.

İştə, yoldaşlar! “Hümmət” firqəsi sizi dağıstanlı yoldaşlarımıza yardım etməyə çağırır. Onu gözəlcə düşünməlisiniz ki, bu gün dağıstanlılar məğlub olarsa, sabah növbə bizə çatacaq və o qaragüruhlar bizim üstümüzə hücum edəcəklər. Onu yaxşı bilməlisiniz ki, Rusiya demokratiyası məğlub olarsa, biz də məğlub olarız. Onu yaxşı biliniz ki, dünya səhneyi-mübarizəsində istibdad ilə hürriyyət, sərvət ilə zəhmət, zülüm ilə ədalət çarpışmaqdadır. Denikin və Lyaxovlar beynəlmiləl istibdad və sərvətin bir cinah, bir hissəsidir. Dağıstan demokratiyası isə beynəlmiləl demokratiyasının bir qismidir.

Dağıstan demokratiyasına yardım etməklə, biz Rusiya demokratiyasına yardım edirik. Rusiya demokratiyasına yardım etməklə, beynəlmiləl demokratiyasına yardım etmiş oluruz. Bununla da öz istiqlaliyyətimizi, hüququmuzu, hürriyyətimizi əldə saxlamış oluruz.

İştə, dünya füqərayi-kasibəsi hər yerdə olursa-olsun, bir ordunun əfradıdırlar [əsgərləridir] və bir bayrağın altına toplaşmalıdırlar. O bayraq isə inqilabın qırmızı bayrağıdır. İştə, sosial-demokrat fəhlə firqəsi “Hümmət” sizi bu qırmızı bayrağın altına toplaşıb Dağıstan demokratiyasına yardıma getməyə çağırır.

“Hümmət” firqəsi Parlaman binasında olan otağında dağıstanlı yoldaşlarımıza kömək etmək üçün könüllü əfradı cəm edir.

Haydi, yoldaşlar! Gəliniz bu əfradlara yazılınız. Yoldaşlıq, əhrarlıq [azadlıqsevərlik] və inqilabiyyunluq [inqilabçılıq] vəzifənizi ifa ediniz.

Yaşasın cahan demokratiyasının birliyi!

Yaşasın Dağıstan demokratiyasının əksinqilabla müharibəsi!

Yox olsun o istibdadpərəstlər ki, Dağıstan demokratiyasının əlindən al bayrağını alıb ayaq altına salmaq istəyir.

Könüllü əfradlar qəbul olunur Parlaman binasında, sosial-demokrat fəhlə firqəsi “Hümmət” idarəsində saat 10-dan 2-yə kimi, axşam saat 6-dan 7-yə kimi.

*“Hümmət” firqəsinin*
*Hərbi Təşkilat Komisyonu*
*15 aprel 1919*

## İRANIN HÜQUQU

Sülh konfransında İranın hüquq və mənafeyini müdafiə etmək üzrə İrandan Xariciyyə nazirinin rəyasəti altında bulunan bir heyətin İstanbuldan keçərək Parisə əzimət etdiyi [getdiyi] məlumdur.

“Tan” qəzetəsi heyətin Fransa paytaxtına müvasiləti [çatması] münasibətilə “İranın hüququ” sərlövhəsi altında uzun bir məqalə nəşr etmişdir. “Tan” bu məqaləsində İranın hərb əsnasında ittixaz etdiyi [tutduğu] xətti-hərəkəti tədqiq edərək pək xalisanə bir lisan qullanmaqdadır.

“Tan” qəzetəsi deyir ki:

*“Müharibə əsnasında Rusiyanın və bizim başımıza gələn fəlakətlərin başlıca səbəbi Rusiya ilə aramızda doğrudan-doğruya təmas təmin edəcək bir yol bulunmaması idi. 1914 sənəsi ağustosun 5-ci günü Boğazların qapanması ilə başlayan Rusiyanın ablukası [blokadası] 1915 təşrini-əvvəlində [oktyabrında] almanlarla bolqarların Serbistanda ittisal peyda etmələri [birləşmələri] üzərinə ikmal edilmişdi [tamamlanmışdı]. 1915 sənəsi sonlarına doğru bizim üçün Rusiya ilə münasibətdə bulunacaq ancaq bir yol qalmışdı ki, o da qışın əksər aylarında buzlayan Arxanjel [Arxangelsk] təriqi [yolu] idi. O zaman dəmiryollar da hənüz sahilə qədər varmadığından, böyük ehtiyacı təminə kafi deyildi. Bəhri-mühiti-kəbir [Sakit okean] təriqi ilə gəliş-gedişin təmini üçün isə dünyanın yarısını qət etmək lazım gəlirdi. İştə bu sırada yeni bir yol açıldı. Tehran hökuməti Etilaf [Antanta] dövlətlərinə iltihaq etməyi [qoşulmağı] təklif eylədi. İran Xariciyyə naziri Müşavirül-Məmalik Rusiya və İngiltərəyə bir ittifaq müahidənaməsi əqdini [ittifaq sazişi imzalamağı] təklif etdi. İttifaq 15 sənə sürəcək, İran bütün qüvvəti ilə Etilaf dövlətlərinin tərəfinə keçəcəkdi. İran hökuməti bu ittifaqı təklif edərkən, Etilaf dövlətlərinin mənafeyinə xidmət etməklə bərabər, İranın mənafeyi-milliyyəsini də müdafiə etmiş olurdu.”*

“Tan” qəzetəsi İran hökumətinin əvvəlcə bitərəfliyini elan etdiyi halda rusların İran daxilində irəliləməyə başlamaları, türklərin də rus qüvvətlərini qovmaq üçün İran hüdudunu təcavüz etmələri üzərinə bitərəf qalammayacağını anlayaraq Rusiya əleyhindəki kin və xüsumətinə [düşmənçiliyinə] rəğmən Etilaf tərəfini iltizam etdiyini [tutduğunu] söylədikdən sonra deyir ki:

*“Həqiqətdə İran hökuməti pək nöqsan vəsaitlə ittifaq təklif edirdi. Nə ordusu, nə jandarması, nə maliyyəsi, nə dəmiryolu, nə də sürətlə təşkilatını ikmal etməsinə müsaidə edə biləcək təşkilat idarəsi yoxdu. Fəqət əcəba bunun səbəbi nə idi?*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 20 aprel (Bazar günü) tarixli 161-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Buna səbəb iranlıların zəkaca dun [aşağı] bir səviyyədə bulunması və ya kafi dərəcədə vətənpərvər olmamaları deyildi. Hərbdən əvvəldən İranda yaşamış olan hər kəs rus məmurları ilə görüşməkdənsə, iranlılarla qonuşmaq daha ziyadə xoşa getdiyini bilir. Açıq söyləyəlim. Əsl səbəb Rusiyanın İranın şimalını rus himayəsi altına almağı hazırlamaq üçün İranı bir anarşi içində bulun-durması idi."*

"Tan" qəzetəsi İran maliyyəsini islah etmək üzrə Amerikadan gətirilən heyətə qarşı Rusiyanın çıxardığı müşkülatı, bu səbəblə İranın Etilaf dövlətlərinə qiymətdar xidmətlər ifa edə biləcəyi bir sırada lazım gələn vəsaitə malik olammadığını izah etdikdən sonra şu surətlə məqaləsinə davam edir:

*"Bütün bu əhvala rağmən İrana müavinət etmək qabil idi. Halbuki, heç bir şey yapılmadı. Hətta İranın ittifaq təklifinə cavab belə verilmədi. Nəhayət 1916 ağustosunda Rusiya və İngiltərə hökumətləri tərəfindən verilən bir nota ilə İran hökuməti maliyyəsini bu iki dövlətin müraqibəsinə [nəzarətinə] verməyə və biri şimalda rus komandanlarının, digəri cənubda ingilis komandanlarının idarəsi altında iki ordu təşkil eyləməyə dəvət edildi. Əsasən daha 20 mart 1915 tarixində Rusiya Xariciyyə naziri [Sergey Dmitriyeviç] Sazonov tərəfindən Paris səfiri [Aleksandr Petroviç] İzvolskiyə göndərilmiş bir notada İranda bitərəf məntəqənin ortadan qaldırıldığı bildirilmişdi. Binaənileyh [ona görə], o zamandan bəri İranın təqsimi [bölünməsi] təqərrür etmişdi [qərarlaşdırılmışdı].*

*Əski rus idarəsinin yıxılışı bu gizli müahidələri [sazişləri] hökümsüz buraxdı. Rusiya, ətrafında qeyri-məmnunlar ehdas edən [meydana gətirən], kor-koruna təqib etdiyi politikanı bahalı ödədi. İngiltərə Hindistanın sükunəti üçün artıq bu qabil etilaflar əqdinə möhtac bulunmayır. Binaənileyh, sülh əqd edilərkən İranın məruz qaldığı məşəqqətlər təlafi etdirilməlidir. Hərbə girən hər hangi bir hökumətdən ziyadə fəlakət görən, ittifaqımıza girmək istədiyi halda xaricdə buraxılan İran Paris Konfransına iştirak etməyə dəvət edilməlidir. İştə, İran Xariciyyə naziri – vaxtilə bizə ittifaq təklif etmiş olan Müşavirül-Məmalik bunu tələb etmək üzrə Parisə gəlmişdir."*

"Tan" qəzetəsi xatimə olaraq İngiltərə və Fransanın İranın konfransa iştirakına tərəfdar olduqlarını bəyan etməkdə və İranın tələblərinin is'afını [yerinə yetirilməsini] təmənna [xahiş] eyləməkdədir.

## "ERMƏNİ İMPERATORLUĞU"

**Dörd milyon müsəlmana qarşı bir milyon erməni**

Fransızca "Monitor Oriental"dan:

Poqos Nubar paşa böyük bir Ermənistan imperatorluğu təşkil etmək xülyası ilə Türkiyənin Anadolu vilayətlərindən bir qismini tələb etdiyi və bu müfrit mətalibin [ifrat tələblərin] erməni mühibbi olan [ermənilərə məhəbbət bəsləyən] məşhur "Tan" qəzetəsi tərəfindən belə düçari-hücum olduğu [hücuma məruz qaldığı] məlumdur.

Türk torpaqlarına mətuf olan [yönələn] erməni mətalibinin nə dərəcə qeyri-mühiqq [haqsız] olduğunu aşağıdakı rəqəmlərə görə yazırız. Erməni mürəxxəsləri [nümayəndələri] Sülh Konfransının Əncüməninə [Şurasına] ərz etdikləri tələblərində türklərin 6 vilayətlərini kamilən, 2 vilayətlərini isə qismən istəmişlərdir. Tamamən istədikləri vilayətlər: Ərzurum, Van, Bitlis, Xarput, Diyarbəkir, Sivas; qismən istədikləri isə Trabzon ilə Adanadır.

Əvvəla, bu vilayətlərin məsaheyi-səthiyyələri [ərazilərinin sahəsi] ilə bu vase [geniş] məmləkətdə nə qədər erməni və müsəlman olduğunu tədqiq edəlim.

| Vilayətlər | Mürəbbe-kilometr [kvadrat-kilometr] | Müsəlman | Erməni |
|---|---|---|---|
| Van | 39.300 | 179.000 | 67.000 |
| Ərzurum | 49.700 | 537.000 | 111.000 |
| Bitlis | 27.100 | 209.000 | 87.000 |
| Xarput | 36.900 | 446.000 | 87.000 |
| Diyarbəkir | 37.500 | 439.000 | 73.000 |
| Sivas | 62.100 | 939.000 | 151.000 |
| Trabzon | 16.600 | 931.000 | 40.000 |
| Adana | 20.000 | 341.000 | 57.000 |

Bu rəqəmlər Türkiyənin rəsmi istatistiklərindən alınmışdır. Baladakı [yuxarıdakı] rəqəmlərə nəzərən ermənilərin istədikləri ərazidə 4.175.000 müsəlman və 694.000 erməni nüfusu vardır. Bu ərqam [rəqəmlər] hərbdən əvvəlki təhriri-nüfuslara [əhalinin qeydə alınmasına] istinadən yapılmış olduğu halda, hərbin müxtəlif surətlərlə mövcib olduğu zayiatı [əmələ gətirdiyi itkiləri] unutmamaq lazımdır.

"Tan" qəzetəsi tərəfindən tamamən ermənilər lehində olduğu etiraf edilən mister Braysın hesabatına nəzərən hərbdən müqəddəm [əvvəl] Türkiyədə 1.600. 000 erməni varmış. Hərbdən sonra isə bu miqdar 1.200.000 nüfusa tənəzzül etmişdir [geriləmişdir]. Şu halda Türkiyədə sakin bütün ermənilərin həpsi Poqos Nubar paşanın tələb etdiyi əraziyə sövq və cəm edilsə dəxi, yenə əksəriyyət türklərindir. Çünki o zaman da Ermənistanın nüfusu 1.200.000 erməniyə qarşı 4.175.000 müsəlmandan ibarət olacaqdır. Poqos Nubarın bu yekuna, məsələn Amerika və sair məmləkətlərdə sakin olan və oturduqları yerləri buraxıb şübhəsiz yeni Ermənistana gəlməyəcəyi mühəqqəq [şübhəsiz] bulunan və mübaliğəli bir surətdə 800.000 təxmin edilən dünyada digər erməniləri dəxi əlavə etsək əraziyi-məzkurədə [deyilən ərazidə] 2.000. 000 erməniyə qarşı 4.000.000 müsəlman bulunacaqdır.

Binaənileyh [ona görə], görülür ki, Qafqaziya ilə Türkiyənin böyük bir qismində vase [geniş] bir ərazi imperatorluğu təşkil etmək xülyasına qapılıb da bu ərazidə əqəliyyəti haiz olmaqdansa [azlığa malik olmaqdansa], "Tan"ın dəxi dostanə tövsiyə etdiyi vəchlə "yorğana görə ayağını uzatmaq" ermənilər üçün daha müvafiq və xeyirli olar.

Əsasən İstanbulun erməni patriki [patriarxı] Zaven əfəndinin də şayani-təqdir [təqdirəlayiq] bir bəsirət və durəndişilə [uzaqgörənliklə] tövsiyə etdiyi "Türklər və Türkiyə ilə eyi keçinmək qayəsinə vüsul [çatmaq], erməniliyin hüququnu istehsal edərkən [əldə edərkən] türklüyün və islamiyyətin hüququna təcavüzdən ictinab eyləməklə [saqınmaqla] mümkün ola biləcəyi" unudulmamalıdır.

Xülasə, ermənilərin pək çox xəyalpərəst olmamalarını kəndi mənafeləri nöqteyi-nəzərindən dəxi tövsiyə eylərız.

## BÖYÜK YERİŞ YERİMƏK İSTƏYƏN ÇOCUQLARA ÖYÜD

Lloyd Corcun bəyanatı

İngiltərə Rəisi-nüzzarı [Baş naziri] mösyö Lloyd Corc kiçik dövlətlərə dair əxirən [son vaxtlarda] mühüm bir nitq irad eyləmişdir [söyləmişdir].

"Monitor Oriental" qəzetəsində mündəric [dərc edilmiş] nitqin mühüm qisimlərini aşağıda yazırız:

*"Paris Konfransı şayani-təqdirdir [təqdirəlayiqdir]. Fəqət əsil şayani-heyrət [heyrətamiz] olan cəhət əsrlərcə təhti-əsarətdə mədfun [əsarət altında dəfn edilmiş] kimi nəzərlərdən nihan [gizli] qalan kiçik millətlərin birdən-birə bəsübədəlmövt [ölümdən sonra diriliş] sirrinə məzhər [nail; malik] olmuş kimi ərzi-əndam eyləmələri [meydana çıxmaları, özlərini göstərmələri] keyfiyyətidir. Vaqeən [doğrudan da] bu millətlər yek-digərini mütəaqibən [bir-birinin ardınca] hüzurumuza çıxıb mazidə [keçmişdə] düçar olduqları haqsızlıqları izah və bunların təzmin və təlafisini [əvəzinin ödənilməsini] tələb edirlər. Bu kiçik millətlərə bir qaç nəsihət irad etmək zamanının hülul edib-etmədiyini [vaxtının çatıb-çatmadığını] bilməyirəm. Fəqət səmimi bir mühibb [dost, məhəbbət bəsləyən] sifəti ilə bir qaç söz söyləməyi də kəndimə vəzifəədd [hesab] eyləyirəm.*

*Kiçik millətlər bir zəfər, pək əzim [böyük] bir zəfər ehraz eylədikləri [qazandıqları] şu sırada böyük dövlətlərin xətalarını təqlid etmək təhlükəsinə düçar olurlar. Miləli-məzkurə [deyilən millətlər] kəndi millətlərinə mənsub olanların hüdudu xaricində ərazi fəth və zəbt etməyə təmayül edir və kəndilərinə aid bulunmayan bəzi yerləri ələ keçirmək istəyirlər. Kiçik millətlərə böyümək, tövsi etmək [genişləmək] fikri hakim olmağa başlayır. Halbuki, böyük-kiçik hər hangi hökumətlərin irtikab edə biləcəyi [işləyə biləcəyi] xətalarının ən təhlükəlisi budur. Kiçik millətlərin bugünkü və yarınkı qüvvət və qüdrətləri kəndi irqlərində mündəmicdir [öz köklərində cəm olmuşdur]. Bir millətin maziyyən [tarixən] cahanda haiz [sahib] olduğu nüfuz və qüdrət, tarixin isbat eylədiyi vəchlə [surətdə], işğal eyləməkdə olduğu sahələrə tabe olmamışlardır. Bu kiçik millətlər əlyövm [hal-hazırda] sadəcə ərazilərini tövsi surəti ilə nüfuz və qüdrətlərini təzayüd etdirəcəklərini [artıracaqlarını] fərz eyləməklə eynilə milliyyətini qırmağa qadir olacaqlarını təxmin eyləmiş olan böyük imperatorluqların xətalarını irtikab eyləmiş olurlar. Zira milliyyət, bəşəriyyət məfkurəsində layəmut [ölməz] bir düstur hökmündədir."*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Hərbiyyə nazirinin; xidmətlərindəki yararlıqdan dolayı Üçüncü Şəki süvari alayı komandanı minbaşı Xosrov Mirzə Qacar, Hərbiyyə məktəbi müdiri Kəsəmənski və Zaqatal taboru komandanı Dibirovun miralaylığa tərfiləri [polkovnik rütbəsinə qaldırılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə naziri tərəfindən pişnihad [təqdim] edilən tərfiləri təsdiq etməli.

* Hərbiyyə nazirinin; Kəlbəli xan Naxçıvanski və Kərim xan İrəvanskinin Şərur və Naxçıvan qəzalarını azad etməklərindən dolayı tərfiləri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə nazirinin qərarı təsdiq edilsin.

* Hərbiyyə nazirinin; kapitan Mağrubovu xidmətindəki yararlıqdan dolayı tərfii haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə naziri tərfiini təsdiq etməli.

* Səhhəti-Ümumiyyə nazirinin Bakının hifzüssihhəsi [gigiyenası] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bələdiyyə İdarəsinin şəhər arabalarını fəaliyyətə cəlb etmədiyindən dolayı Səhhəti-Ümumiyyə Nəzarətinə tapşırılsın ki, şəhərə veriləcək qərz [borc] hesabına olaraq şəhər arabalarını fəaliyyətə cəlb etməli.

Səhhəti-Ümumiyyə nazirinə tapşırılsın ki, şəhər hifzüssihhəsi cəhətincə bilavasitə nəzarət yetirsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən Quliyev dəyirmanı müdiriyyəti ilə xidmətçilər miyanındakı [arasındakı] ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] qəsdi ilə göndərilmiş Rəhim Hüseynzadə cənabları nazirə bir məruzə pişnihad ilə [təqdim etməklə] məlum etmişdir ki, müdiriyyət həqiqətən fəhlələrlə fəna müamilədə bulunmaqla [pis rəftar etməklə] müştərək müqavilənamə [kollektiv müqavilə] maddələrinə əməl etməkdən imtina edir.

[Ağabala] Quliyev şəxsən fəhlələrlə fəna müamilədə bulunur. Hüseynzadə cənabları vasitəsi ilə fəhlələrə un haqqı və mənzil kirayəsi verilməyi qət edildiyindən, ixtilaf bərtərəf edilmişdir.

## ZAQATALADA GÜRCÜLƏRİN PROPAQANDASI

20 martda Bakıdan hərəkət edib 24-ündə Zaqatalaya vasil oldum. Bura əhalisini payızda qoyub getdiyim halda bulmayıb, başqa bir halda gördüm. Əhali artıq istiqlaliyyət, cümhuriyyət, millət və milliyyət nədən ibarət olduğunu düşünmüşdür. Dost ilə düşməni fərq etməyə əksəriyyətlə istedad kəsb etmişdir [qazanmışdır]. Bu əhvalı Zaqatala Azərbaycanın ayrılmaz bir cüzü [hissəsi] olduğunu pək doğru və pək haqlı iddiada bulunan həmfikir arxadaşlarıma təbşir etməyimi [müjdələməyi] kəndimə bir vəzifeyi-milliyyə ədd [hesab] edirəm.

Fəqət zahirən bizimlə hüsn-münasibatda bulunan gürcü hökuməti bu vilayət əhalisinin meyil və arzusunu nəzəri-etibara almayaraq yaxud almaq istəməyərək, XV-XVI əsr tarixinə, üç cift bir tək ingiloyların mövcud olmalarına istinadən Zaqatala vilayətini yədi-təsərrüflərinə keçirmək [zəbt etmək] üçün hər bir dürlü nalayiq hərəkətlər və həyasız rəftarlar irtikab etməkdən çəkinməyirlər.

25 martda arxadaşlarım vilayət Milli Komitə və Hilali-Əhmər [Qırmızı Aypara] cəmiyyətinin sədri və məhkəmeyi-şəriyyə əzası [şəriət məhkəməsinin üzvü] Nurulla əfəndi Qazızadə, xalq məkatib müfəttişi [xalq məktəbləri müfəttişi] İslam bəy Qəbulov və məhkəmeyi-şəriyyə kargüzarı İbrahim bəy Qəbulov cənabları ilə məsqəti-rəsim [doğulduğum yer] olan Faldar kəndinə gedərkən Əliabad nahiyəsinin mərkəzi olan Əliabad kəndində bir-iki saat istirahət niyyəti ilə əyləşdik. Bu əsnada xoşamədiyə [xoş gəldiniz deməyə] gəlmiş Əliabad əyan və əşrafı bir az müsahibədən sonra Gürcüstandan bir neçə zabitin propaqanda üçün gəldiklərini söyləyib qayət mütəəssir olduqlarını bəyan etdilər.

Lisanları gürcü lisanı olan Əliabad kəndi əyanının sələbətidiniyyələrini [dini baxımdan mətanətlərini] görüb Zaqatala vilayətində Gürcüstana qoşulmaq istəyən heç bir fərd olmayacağına qəti surətdə hökm edərək, propaqanda haqqında məlumat toplamağa girişdim. Mart əvvəllərində Tiflisdən rəsmi surətdə Zaqatalanın sövqülceyş nöqteyi-nəzərindən [stratejik baxımdan] qolay yollarını bilmək üçün hərbi topoqraf Pavliyev Zaqatalaya göndərilir.

Pavliyev Laqodexə yetişdikdə, Zaqatalaya keçmək üçün bir çox yollar aradıqdan sonra ən-əsil [əslən] Zaqatalanın Qax kəndindən olub da Gürcüstanın Telav qəzasında məntəqə komandanı olan Tartaraşvilini və yenə həman Qax kəndindən olub da Gürcüstana hicrət etmiş Xutsiyevi Laqodexə dəvət etdirib Laqodex məntəqə komandanı Nadirov və 4 nəfər jandarma ilə Qax qəsəbəsinə qonaqlıq bəhanəsi ilə 21 martda Laqodexdən Zaqatala vilayətinə gəlmək üzrə hərəkət edirlər. Zaqatala şəhərinə yetişdikdə, ziyalılarımızdan bir çoxu bunlardan şübhələnib məhəlli [yerli] məmurlara, sonki günü vali [Əliyar bəy] Haşımbəyova müraciət edib bu çağırılmayıb gələn qonaqları[n] Qax və başqa istədikləri kəndlərə heç olmasa nəzarət altında göndərilməsinin lazım olduğunu təklif etsələr də, nədənsə sözləri eşidilməmişdir və bu qonaqlar da nəzarətsiz olaraq kəndi müsəlləh [silahlı] jandarmaları ilə vilayət daxilinə sərbəst buraxılırlar. Qonaqlar ilk əvvəl ingiloylar mərkəzini təşkil edən Qax qəsəbəsinə yetişdikdə, arxadaşları Tartaraşvili vəfat etsə də, yollandığı işi ifa etmək üçün bəzi xristian və müsəlman gürcü kəndlərinə getmişlərdir. Əzancümlə [o cümlədən] Əlibəyli (xristian kəndi), Qorağan, Tasmalı, Əliabad (müsəlman) kəndlərini dolaşmışlardır. Getdikləri yerdə Azərbaycandan bir şey çıxmayacağını, Zaqatala əhalisinin siyasətən və iqtisadən mənafeyi ancaq Gürcüstan hökumətinə tabe olmaqda olduğunu və tez bir zaman içində Zaqatalanı istila üçün gürcü əsgərləri göndəriləcəyini dərmiyan etmişlərdir [irəli sürmüşlər]. Bu sözləri təbii camaat içində açıq-açığına deyil, xüsusi etibar etdikləri və camaat içində etibarı olan adamlara söyləmişlərdir. Bunların Zaqatalaya gəlmələri ilə hüdudun üç verstlik məsafəsində olan Laqodex və 12 verstliyində olan Haçaqaya qəsəbələrinə Gürcüstan hökumətinin əsgər toplamasının qayət sıxı münasibəti vardır.

İştə, bu yazdıqlarım şayiat olmayıb, xüsusi surətdə Laqodex və Haçaqaya qəsəbələrinə göndərdiyimiz mötəbər adamların verdiyi məlumatlarıdır. Bina-ənilyeh [ona görə], gürcü hökuməti Məvarayi-Qafqaz [Zaqafqaziya] cümhuriyyətlərinin hüdud məsələsini həll edəcək komisyondan əvvəl Axıska və Axalkələk kimi Zaqatalanı işğal edib, hökumətimizi əmri-vaqe [fakt] qarşısında qoymaq istədiyi anlaşıldığından, hökumətimizin bu işdə ciddiyyətlə davranmasını arzu edirəm.

*Bayram Niyazi [Kiçikxanov]*

## VAĞZALLARDA BİLET TİCARƏTİ

Dəfəatla [dəfələrlə] Bakı vağzalındakı jandarmaların əmal [əməllərindən] və hərəkətindən bəzi şikayətlər eşitmişdik. Şikayətlərin ən böyüyü bundan ibarət idi ki, vağzalın kassasından üç-dörd bilet satılar-satılmaz dərhal kassa bağlanır və yüzlərlə növbətə dayanmış sərnişinlər naəlac qalıb jandarmalara müraciət edirlər. Hardansa bunların ciblərində hər cürə sərnişin biletləri olurmuş. Söz yoxdur ki, jandarmalar bu biletləri birə-iki qiymətə satırmışlar. Şikayətçilərin rəvayətinə görə, jandarmalar kassaçı ilə əlbir olub biletləri kassadan məxficə qəbul edərək, xahişmənd [istəyən] müştərilərə istədikləri qiymətə satırlar və bu "ticarətdən" hasil olmuş mənfəəti də öz aralarında bölürlər.

İştə bu minval şikayətlərin ardı-arası kəsilməyirdi. Şikayətlərini mühərrirlərə [qəzetçilərə] söyləyən cənabların məqsədi də bu idi ki, sərnişinlərin halına dair qəzetələrdə bir şey yazılsın, ta ki Dəmiryol İdarəsi əhvalatdan xəbərdar olaraq müqəssir kassaçı və jandarmaların şərarətindən [yamanlığından] naəlac sərnişinləri qurtarsın. Bu növ şikayətləri qəzetədə dərc etmək üçün buna dair xüsusi dəlil və sübutlara ehtiyac var idi. Lakin böylə dəlilləri şikayətçilər göstərə bilmədiyi üçün şikayətlərini də qəzetəyə yazmaq mümkün deyildi.

"Azərbaycan" (rusca) qəzetəsinin 77-ci nömrəsində sərnişin A. Sultanov cənabları mətlub [tələb olunan] dəlillərdən birini bugünlərdə oxuculara təqdim etmişdir. Bu barədə Sultanovun idarəyə göndərdiyi məktubunda yazır ki:

*"Mart ayının 31-də vağzala gedib bilet almaq üçün növbətə dayandım. Məndən geridə bir neçə nəfər kəndlilər dayanmışdılar. Bir vaxt jandarmalar gəlib bunları növbətdən xaric edirlər və yerlərinə də faxir [gözəl, parlaq] libaslı sair şəxsləri durğuzurlar. Bir neçə saatdan sonra özümə məxsus bileti alıb qayıdarkən növbətdən qovulmuş kəndlilərə rast gəldim. Məlum oldu ki, bunları növbətdən kənar etmiş jandarmalar biri 20 manat mənfəətinə neçə bilet satmışlardır. Həman jandarma hərəkatına məxfi diqqət yetirib anladım ki, bu cənablar aşkara bilet alış-verişi ilə məşğul olur."*

İştə, Sultanovun bu məktubundan apaçıq məlum olur ki, jandarmalarla kassaçının arasında sıxı bir ticarət əlaqəsi vardır. Odur ki, əllərdə yüzlərcə bilet satıldığı halda, kassadan ancaq dörd-beş bilet satılır. Təbiidir ki, bu hərəkatın ən böyük zərbələri biçarə, əlsiz-ayaqsız füqəra qisminə dəyir. Zira onsuz da bahalıq cəhətinə nırxı qalxmış biletləri bir də 20 manat mənfəət verib sair adamlardan almaq füqəra qisminə heç də müyəssər deyil. Odur ki, həftələrlə bu biçarələr vağzala yol döyüb bilet tapmayaraq məyusanə geri qayıdırlar.

Bu bəlaları jandarmalar ancaq şikayət üçün idarələrə yol tapa bilməyən avam camaatın başına gətirirlər. Xəvass [seçilmiş, sayılıb-seçilən] siniflərlə ehtiyat-karanə rəftar etdikləri üçün bunlardan hələ heç bir şikayət əlaməti indiyə qədər görülməmişdir. Lakin insanın fədakarlığı öz halına deyil, özgənin və ələlxüsus şikayətin yolunu anlamayan füqəranın halına yanmaqdan ibarətdir.

İndiyə qədər vağzallarda füqəranın başına nə oyunlar gətirilir, bunu bir Sultanov deyil, yüzlərcə onun kimiləri müşahidə etmişlərdir. Amma çifayda bunca ayın ərzində böylə fədakarlığa doğru və birinci qədəmi Sultanov cənabları atmışdır. Filhəqiqə [doğrudan da], müsəlman əhalisi arasında özgə dərdinə ağlayan göz çox az tapılır. Hamı "bemənçe" [mənə nə] deyib qonşu müsibətini qulaq ardına vurur. Heç kəs məzlumu zalımın çəngalından [caynağından] qurtarmaq istəməyir. El üçün ağlayan göz kor olar. Böylə xudpərəstanə [eqoistcə] sözlərlə özlərini salamətə çıxarırlar. Halbuki qəbahətin ən böyüyü həqiqəti pərdələyib faş etməməkdən ibarətdir.

Sultanov cənabları jandarmaların kəndli sərnişinlərlə nə gunə [nə cürə] rəftarını qəzetə vasitəsi ilə aləmə bildirdi. O cənabın bu fəaliyyəti qoy sair ziyalılarımız üçün bir ibrət sərməşqi [nümunəsi] olsun ki, hər yerdə məzlumun fəryadına imdad göstərsinlər.

Kassaçı və jandarmaların əmalına [əməllərinə] gəldikdə, söz yoxdur ki, bu məsələ hökumət tərəfindən ətraflıca gərək təhqiq olunsun. Sultanovun iddiası təsdiq olunarsa, gərək müqəssirlər işlərindən kənar edilib məhkəməyə verilsinlər.

Xülasə, bu barədə hökumətin ən şədid [şiddətli] cəza və ən aqilanə tədbirini bəkləyiriz ki, daha bir də vağzallarda heç bir vəchlə bilet ticarətinə yol verilməsin, hər sərnişin biletini kassadan bilavasitə özü ala bilsin.

*Fərhad Ağazadə*

## "İRAN CAMAATININ NƏZƏR-DİQQƏTLƏRİNƏ"

Möhtərəm İran camaatı, hamınıza məlumdur ki, Bakı küçələrində ac, çılpaq iranlı balaları can verib tələf olmaqdadırlar. Tələf olmaqlarının səbəbi xunxar [qaniçən] və cəllad İran mülkədar və xanlarının zülümlərinə davam gətirəmməyib, axırda xaricə məmləkətlərinə pənah gətirib dilənməkləridir.

Əlbəttə, bunlar hamımıza məlum ola-ola, bu barədə heç bir yerdən bunlara bir çarə yolu aramaq fikri görülməyirdi. Fəqət çox təşəkkürlər olsun ki, bugünlərdə Bakıda yeni təşkil olunmuş "Müdafieyi-Məzluman" [Məzlumları Müdafiə] ilə "Şurayi-İraniyan" [İranlılar Şurası] cəmiyyətlərinin elanını oxuyub son dərəcədə xoşhal oldum.

Böylə ki, "Müdafieyi-Məzluman" komitəsi elanında yazır ki, bizim məqsədimiz İran zavallı dilənçi balalarını Bakı küçələrindən təmizləməkdir. Nə gözəl bir iş və nə ali bir məqsəd! İndi mən də üzümü iranlı həmvətəndaşlarıma tutub deyirəm ki, bugünlərdə həman cəmiyyətlərin iranlılara məxsus iclası olacaq və həman iclasda cəmiyyətə yeni üzvlər intixab olunacaq [seçiləcək]. Haydi vətəndaşlar, məzkur [deyilən] iclasa gəliniz. Fəal, çalışqan, bacarıqlı və milli hissi olan zatları intixab ediniz. Qoyunuz onlar da yorulmaqsızın vətən və millət yolunda işləsinlər. İşləsinlər də həman zavallı dilənçi balalarını küçələrdən təmizləsinlər və təmizləsinlər də xaricilər qarşısında xəcalətli və Allah yanında da üzüqara olmayaq.

Əlavə, həman komitələrdə tezliklə iranlılara məxsus olan iclası təyin etməklərini ayrıca tövsiyə edirəm. Allah-taala həzrətləri yardımınız olsun.

*Məhəmmədəli Əsədullazadə Tabaqçı*

## TƏSHİH [DÜZƏLİŞ]

"Azərbaycan" qəzetəsinin dünkü nömrəsində "Millliləşdirmə haqqında" yazdığım sərməqalə [baş məqalə] altındakı "ümum müəssisələrin baş müdiriyyətini qayət fəal və qayət vətənini və millətini sevən Bəhram bəy Vəzirov kimi bir zata həvalə etmişdir" cümləsində müdirin ismi xatirimdən çıxdığından, posta bürosunun [müdirinin] ismi dərc eyləmişdi. Halbuki, Baş müdir Bəhram bəy deyil, Bəhlul bəy Vəzirovdur. Bu cəhətdən bütün Azərbaycan posta müəssisələrin baş müdiri Bəhlul bəy Vəzirovdur. Bakı Posta Bürosunun müdiri isə Bəhram bəy Vəzirovdur.

*R[əsul] Rəhimli*

## BAKI XƏBƏRLƏRİ

* General Hubert Qof Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, "Girsp və şərakəti [şərikləri]" nam İngiltərə müəssisəsindən Bələdiyyə İdarəsi 56171 funtluq mal götürmüşdür. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi həman məbləği verməlidir. Əks-surətdə general məhkəmə ilə təhdidatda bulunmuşdur.

Bələdiyyə İdarəsi buna cavabən məlum etmişdir ki, Bələdiyyə İdarəsi bu barədə heç şey bilməyir və heç bir şərakət tanımayır. Binaənileyh, ictimai müəssisəni məhkəmə ilə təhdid etmək bicadır [faydasızdır].

* Bələdiyyə İdarəsi Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən bildirmişdir ki, Bələdiyyə İdarəsində alınan məlumata görə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] şəhər teatro və başqa bu kimi tamaşaxana biletlərinə vergi təyin etmək istəyir. Halbuki, böylə vergiləri Şəhər İdarəsi Müvəqqəti hökumət qanunu mövcibincə [əsasında] çoxdan təyin etmişdir.

Bələdiyyə İdarəsi Vükəla Şurasına Bələdiyyə xəzinəsinin fəna əhvalını təsvirlə rica etmişdir ki, böylə vergilərin şəhər üçün qalmasına lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

* Maliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, şəhər və mədən dairələrində olan elektrik mövqiflərinin [stansiyalarının] siyahısını tərtiblə, işıq qiymətləri ilə məa [birgə] Nəzarətə təqdim etsin.

**Əmirhacıyanda**

Əmirhacıyan (Xilə) kəndində indiyə qədər bir hərbi komitə vardı ki, bunun da sədri Hacı Heybətqulu Məhəmməd oğlu, üzvləri Malik Rəhimov, Əlisəfdər Kərbəlayi Soltan oğlu və Əliyusif Almas oğlu idi. Aprelin 7-də həmin komitəyə yuxarıdakı əşxas [şəxslər] əvəzinə camaat tərəfindən sədarətə [sədrliyə] Kərbəlayi Əhməd Səməd oğlu və üzvlüyə Kərbəlayi Yusif Kərbəlayi Qəmbər oğlu intixab edilmişlərdir [seçilmişlər]. Bundan belə hərbi komitə işləri bu iki şəxsin əlində olacaqdır.

**Müfəttişin övdəti**

Bakı qubernatoru Rəşid bəy Axundzadənin binagüzarlığı [sərəncamı] ilə Şamaxı uyezdi [qəzası] hökumət və polis idarələrini təftiş etməkdən ötrü göndərilən polkovnik Qolovin bugünlərdə Bakıya övdət edərək [qayıdaraq] kəndi fəaliyyəti haqqında qubernatora bəyanat vermişdir. Bəyanatdan anlaşılmışdır ki, Şamaxı uyezdinin bəzi hökumət məmurlarından verilən şikayətlər bir dərəcəyə qədər haqlıdırlar. Həman məmurların öz xidmətlərində sui-istemalda [sui-istifadədə] bulunduqları təhqiq və təsdiq edilmişdir. Müfəttişin bu barədəki müfəssəl dakladı (bəyanatı) barəsində qəzetəmizdə məlumat veriləcəkdir.

**Polis müdirindən şikayət**

Məşqətə [Maştağa] kəndi əhli Hacı Əli Qəmbərəli oğlu Bakı qubernatoruna ərizə ilə məlum etmişdir ki, o, bağdan gələrkən neçə nəfər polis nəfəratına rast gəldikdə, məzkurun [adı çəkilən şəxsin] atını okolodoçnı [polis sahə rəisi] alıb, onu piyada buraxmış. Hacı Əli atı istəyərək tapançasını açıb okolodoçnıya verdikdə, o, tapançanı alıb özünü də tövqif [həbs] edərək polis idarəsinə gətirmiş və bir ay müddətinə onu məhbus etmişdir. Bunu göstərərək Hacı Əli tezliklə bu tövr qanunsuz hərəkatın qabağını almağı rica edir. Çünki onun həm atı, həm tapançası alınıb və özü də bir ay məhbus edilmişdir.

**Cərimələr**

* Səhhəti-Ümumiyyə Nəzarəti Bakı qubernatorundan rica edir ki, Bakı əhilləri Məhəmmədov və Avakov gizli surətdə qoyun və qara mal kəsdiklərinə görə müqəssir hesab edilib lazımi miqdarda cərimyə məhkum edilsinlər.

* Aprel ayının 11-dən 18-nə qədər Bakı qalabəyisi [komendantı] tərəfindən edilən binagüzarlığa [sərəncama] görə bir çox şəxslər icazəsiz olaraq silah gəzdirməkdə müttəhim edildiyindən, 36 dənə bəratülqövl [protokol] tərtib edilməklə müxtəlif cərimələrə – cəzayi-nəqdiyyə [nağd pulla cərimə] və həbsə məhkum edilmişlərdir.

## BAKI QUBERNİYASINDA

**Öldürmək**

- Şamaxı uyezd naçalniki [qəza rəisi] Bakı qubernatoruna məlum edir ki, aprelin 2-də Ərəbşahverdi kəndinin əhli Əlibala Mürsəl oğlu qəflətən olaraq tüfəng gülləsi ilə həman kəndin əhli Nazlı Cavad qızı ilə Sərvər Saday qızını öldürmüşdür.

- Mədrəsə uçastokunun piristavı Şamaxı uyezd naçalnikinə məlum etmişdir ki, aprelin 9-da naməlum şəxslər tərəfindən Saqiyan kəndinin əhilləri Qriqori, Xaçatur və Saak Avakimovun 12 nəfərdən ibarət külfəti öldürülmüşdür. Bədəfkarlar [canilər] gizlənmişdir.

## DƏMİRYOLUNDA

*(İdarəyə məktub)*

Mart ayının 24-də biz Göyçay uyezdində Qaraman kəndi sakini Məhəmməd Əbdülkərim, Molla Fazil Cəbrayıl oğlu və Qaraxıdır kəndi sakini Həsən Hüseyn oğlu, Məhəmməd Məhəmməd oğlu, Ləkçılpaq sakini Kamil Şamil oğlu Bakıya göndərmək üçün Bərgüşad mövqifinə [stansiyasına] un gətirdik. Fəqət mövqifdə vaqon yox idi. Mart ayının 27-də mövqif naçalniki unu baqajnı vaqona [yük vaqonuna] yığdı. Mal sahibləri naçalnikdən təvəqqe ediblər ki, malları baqajnı vaqona yükləməsin. Naçalnik cavabında, gediniz işinizin dalınca, bunun sizə dəxli yoxdur, deyə cavab verir. Həman vaqon martın 28-də 200 nömrəli qatara qoşulub Müsüslüyə gəlmişdir. Martın 29-cu günündə Bərgüşad mövqifindən qəmisyəçi Məhəmməd Mikayılov və naçalnik müavini Kodsiye Müsüsliyə bir vaqon göndərmişlər ki, orada olanları baqajnıdan çıxarıb bu vaqona yükləsinlər. Martın 30-da raboçilərə [işçilərə] 18 manat verilib vaqonu əl ilə basıb qoşublar. 200 nömrə qatar gəlib Sağırlı mövqifinə. Fazil Məhəmməd və Kamil Zəkəriyya hambalbaşı Xanlardan sual eyləmişlər ki, boş vaqon varmı, mallar baqajnıdan buraya yüklənsin. Cavabında, 400 manat verin, burada olan 2 boş vaqonun birisini sizə verək, demişlər. Biz 4 nəfər cavab verdik ki, 100 manat verə bilərik. Vaqonu bizə vermədilər, razı olmadılar. Nəhayət 400 manat alıb vaqonu Gəncə uyezdində Köküşkə sakini Yusif Murad oğluna verdilər. İkincisin[i] də Əli Həsən oğluna verdilər, bizə vaqon olmadı. Martın 31-də 2 dənə vaqon gəldi. Bir hambalbaşıdan təvvəqe eylədik. Dedi ki, vaqonların qiyməti 100 manat artıbdır. Deməli 500 manat verməlisiniz. Bu vaqonun birini də naçalnik Qalaqayında sükunət edən Abbasquluya satdı. Ondan bir kisə un aldı, ikinci vaqonu satdı. Sağırlıya 20 ədəd quzu aldı. Biz biçarələr vağzalda qalıb Sağırlı[lı] Məşhədi Əmirə dəxil düşdük [kömək istədik]. Məşhədi Əmir bizi apardı açarçı İlyasın yanına. İlyas biz 4 nəfərdən 250 manat alıb yanımızda verdi naçalnikə. Bizə boş vaqon verildi. Mallarımızı təzədən bu vaqona yüklədik. Aprelin 7-nə qədər vaqonu qoşmadı. Biz 4 nəfər gəldik Bakıya. Vaqon gəlmədi. Aprelin 11-də vaqonun nə səbəbə təxirə düşməyini bilmək üçün təzədən adam göndərməyə məcbur olduq.

Xudavəndi-aləm heç bir qadaşın Sağırlı mövqifinə yolunu salmasın. Yaman rüşvət alırlar. Bərgüşad mövqifində bir qəpik rüşvət almaq olmaz, vermək olmaz. Sağ olsun Bərgüşad mövqifində olan qəmisyəçi Məhəmməd Mikayılov, çox düzgün iş görür. Sağ olsun naçalnik müavini Kodsiye, düzgün adamdır.

*Molla Fazil, Məhəmməd Kamil, Məhəmməd və Zəkəriyya*

## AZƏRBAYCANDA

**Gəncədən**

Gəncə il yarım idi ki, qiraətxanadan məhrum idi. Gəncə Bələdiyyə İdarəsinin kəndinə məxsus mükəmməl bir kitabxanası ilə bərabər, yanında bir qiraətxanası da var idi. Ancaq anarşi həmin kitabxananı qapadılmağa məcbur etdi. Anarşidən sonra da Bələdiyyə İdarəsinin ətalətsizliyindən dolayı bu kitabxana və qiraətxana hələ də açılmayır. Allah bilir hangi padvalda onun kitabları oxumamazlığa məhkumdur.

Bu yaxınlarda Gəncə qəzası xalq məktəbləri müfəttişi Cavad bəy [Cuvarlinski] cənablarının təşəbbüsü ilə Gəncədə bir qiraətxana açılmışdır. İl yarımdan sonra Gəncənin qəzetə maraqlıları yenə bu ocağın başına toplaşa bilər. Gəncə kimi şəhəri qiraətxanasız buraxmaq doğrudan da bizim üçün böyük bir nöqsan idi. Bunu anlayaraq, müfəttiş həzrətləri iştə böylə mədəni bir təşəbbüsdə bulundu.

Qiraətxana Gəncənin qələbəlik caddələrindən Gəncə caddəsinin körpüyə yaxın bir yerində, qabaqda "Kompaniya Zinger" olan binaya yerləşmişdir. Qiraətxananın gözəl türkcə yazılmış lövhəsi oradan keçənlərin diqqətini kəndi gözəlliyi ilə cəlb edir. Böylə gözəl türkcə yazılmış lövhələrdən hökumət müəssisələrinin və xüsusi müəssisələrin və hətta istiqlalını qazanmış xalqın dükanlarının qapı başlarında asılı olsa həmi hökumət türk olduğunu, həmi də xalq türk xalqı olduğunu isbat edərdi. Nə fayda ki, qubernatorun evinin yanı başında Tiflis Ticarət Bankının lövhəsi gözü dəlir.

Qiraətxana açılması ilə Gəncə itirdiyi mədəni müəssisəni tapmış deməkdir. Əlbəttə, həyat adi izini bulduqca, sevgili Azərbaycanımızda böylə müəssisələr sayıca çoxalacaq və keyfiyyətcə eyiləşəcək. Mədəni müəssisələrimiz çoxaldıqca, bir taqım türk yeyicilərin və onu mədəniyyətə düşmən sayanların qələt və qərəz fikirləri əsasından yıxılacaq.

Qiraətxanaya paytaxtımız Bakıdan, Tiflisdən türk, rus, erməni dillərində qəzetələr yazılır. Qiraətxanada bu yaxından etibarən kitab da bulundurulmasını müfəttiş həzrətləri söylədi. Böylə mədəni müəssisələrin çoxalmasını istəriz və ilk təşəbbüskara səmimi təşəkkürlərimizi izhar edəriz.

*Qəmbər oğlu Qasım*

## KƏNARİ

Bu axır vaxtlarda Moskvadan təşrif gətirmiş Nəbi Əhmədzadə cənablarından bizim də Dərbəndə bir kağız gəlmişdi. Cənab Əhmədzadə kağızı Bakıdan yazmışdı. Kağızda Əminov Sadığın salamatlığından yazmışdı. Mən Bakıya gəlib cənab Əhmədzadəni axtardım, tapammadım çünki kağızda adres yox idi. Cənab Əhmədzadə nə yer[də] isə mənə məlum deyil. Ona görə qəzetədə yazmağa məcbur oldum. Şimdi cənab Əhmədzadədən acizanə təvəqqe edirəm Sadıq Əminov barəsində müfəssəl bir kağız yazsın. Adres: Dərbənd, Əminov. Yazsın görək Sadıq özü gələ bilərmi və yainki ardıycan adam göndərmək lazımdır.

*Əminov*

**İtibdir**

Bakı notariusundan verilmiş kupça krepost [daşınmaz əmlakın mülkiyyət sənədi] Kərbəlayi Talıb Cəfərovun adına itibdir. Etibardan saqitdir [etibarsızdır].

*8720*

**İtibdir**

Əliyullah Allahrza oğlunun Suraxanı 5-ci uçastokundan aldığı 123 nömrəli pasportu itib. Etibardan saqitdir.

*8723*

**İtibdir**

Vəlixan İmamverdi oğlunun Əmirhacıyandan aldığı pasportu itib. Etibardan saqitdir.

*8724*

**İtibdir**

Əlişükür Vəlixan oğlunun Əmirhacıyandan aldığı pasportu itib. Etibardan saqitdir.

*8725*

**İtibdir**

Ağaabdulla Teymur oğlu Abdullayevin Şamaxıdan aldığı pasportu itib. Etibardan saqitdir.

*8726*

**İtibdir**

Mixail Merdaxayevin Şamaxıdan almış pasportu itib. Etibardan saqitdir.

*8727*

**Acizanə təvəqqe edirəm**

Nəbi Qasım oğlunun nərədə olduğunu mənə xəbər versinlər. Məzkur [adı çəkilən şəxs] 2 aydan bəridir Gəncədən Bakıya gəlmiş, bu vaxta qədər bir xəbər yoxdur. Ondan xəbərləri olanlardan acizanə xahiş edirəm bu adresə xəbər versin:

Gəncə, Daş Qəstin, əllaf Məşhədi Əmiraslan Məhəmməd oğlu yaxud Bakıda komisyonçu Abdulla Fətəliyevə. Bəxşiş 1000 (min) manat.

*8722*

**"Diş həkimi kabineti"**

Hər bir aləti ilə almaq istəyirəm. Xahiş edənlər "Lion" qastinsasında 1-ci nömrəyə müraciət edə bilərlər. Mirzə Əhmədxan.

*8721*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Peyvənd etmək üçün təzə "limfa" vardır. Telefon nömrə: 58-39.

*5779*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Dağıstana imdad!***

"Dağıstana imdad!" yerinə qəzetdə "Dağıstan imdad!" getmişdir.

***Böhtanlarla böyük işlər görülür***

"Di Trans-Qafqazian post": Tiflisdə ingilis dilində nəşr edilmiş "The Trans-Caucasian Post" ("Zaqafqaziya poçtu") qəzeti nəzərdə tutulur.

"…issiz yerlərə qaçacaq": qəzetdə "issiz" yerinə "işsiz" getmişdir.

***Azərbaycan Məclisi-Məbusanında***

"1) Daxil olmuş kağızlar, o cümlədən:": bu maddənin bəndləri qəzetdə ərəb qrafikalı əlifbanın hərf sırasına uyğun olaraq A, B, P, T və s. kimi işarələnmişdir.

"qövldən feilə": qəzetdə səhvən "qüvvədən feilə" getmişdir.

"1915-ci ildə Kür nəhri daşıb…": qəzetdə "1915" yerinə səhvən "95" getmişdir.

"Mahmudov Mustafa": qəzetdə "Mahmudov" yerinə səhvən "Məhəmmədov" getmişdir.

***Teleqraf xəbərləri***

"D. T. Z.": 1917-1919-cu illərdə Budapeştdə alman dilində nəşr edilmiş gündəlik qəzet olan "Döyçes Taqeblat Çaytunq" [Deutsches Tageblatt Zeitung] nəzərdə tutulur.

"…onu Elba çayına atmışlardır.": qəzetdə Elba çayının adı təhrif edilmişdir.

"Avamlar Kamerası": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

***Sülh ətrafında***

"Zaman": İstanbulda 4 aprel 1918 – 10 sentyabr 1919-cu il tarixləri arasında türk dilində nəşr edilən gündəlik qəzet. Cəmi 480 nömrəsi çapdan çıxmışdır.

***Qəzetələrdən***

"Odessadakı Blaqorodnı institutun…": varlı və aristokrat ailələrin qızları üçün nəzərdə tutulmuş təhsil müəssisəsi olan Odessa Nəcib Qızlar İnstitutundan söhbət gedir.

"Bakı-Batum dəmiryolunun açılması xəbəri…": qəzetdə "açılması" yerinə səhvən "iclası" getmişdir.

"Həbs edilmiş Tətil Komitəsi üzvlərindən…": qəzetdə bu xəbər səhvən ondan əvvəlki xəbərin ardı kimi getmişdir.

"füccətən vəfat eyləmişdir": "füccətən" sözü qəzetdə təhrif edilmişdir.

***Dağıstan əhvalı***

Paramonov: qəzetdə səhvən "Panamoryov" getmişdir.

"plastun": piyada kazak qoşunu.

***İranın hüququ***

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet olan "Le Temps" nəzərdə tutulur.

"Əski rus idarəsinin yıxılışı…": qəzetdə "yıxılışı" yerinə "yıxılmış" getmişdir.

***Təshih***

"…dünkü nömrəsində "Milliləşdirmə haqqında" yazdığım…": Rəsul Rəhimlinin "Milliləşdirmə haqqında" adlı yazısı "Azərbaycan" qəzetinin 17 aprel 1919-cu il tarixli 159-cu nömrəsində dərc edilmişdir.

"R[əsul] Rəhimli": qəzetdə səhvən "B. Rəhimli" kimi getmişdir.

***Azərbaycanda***

"Bələdiyyə İdarəsinin ətalətsizliyindən dolayı…": "ətalətsizliyindən" yerinə "ətalətindən" yaxud "fəaliyyətsizliyindən" olmalıdır.

İlklər

**Şəhər dərd-ələm içindəydi. Evləri, küçələri doğma sakinlərinin qanına boyanmışdı. Erməni daşnakları bu qədim şəhərin tarixinin ən dəhşətli faciələrindən birini - 1918-ci il mart soyqırımını törətmişdilər. Sağ qalan azərbaycanlılar işgəncələrlə qətlə yetirilmiş qohum-əqrəbalarına, həmşəhərlilərinə yas tuta bilmirdilər. Erməni daşnaklarının zülmləri bitməmişdi. Baş götürüb gizlicə bu şəhərdən qaçmaqdan başqa çarələri qalmamışdı.**



**Doqquz yaşlı Leyla atasına qısılıb Bakının qanlı küçələri ilə addımlayırdı. Qorxu, təlaş balaca qızın da bütün vücudunu sarmışdı. Leyla 1909-cu il sentyabrın 17-də dünyaya göz açdığı bu şəhərdən ilk dəfə ayrılırdı. Həştərxana pənah aparırdılar...**

# Səmaların Leylası...

## Azərbaycanın ilk qadın təyyarəçisi

### Yaddan çıxmayan xatirələr

Getdikləri şəhərdə də onları dinclik gözləmirdi. İnqilab dalğası Həştərxanı da bürümüşdü. Leylanın atası Ələsgər Zeynalov inqilabçı idi. O, siyasi mübarizədə fəallıq göstərənlərin çoxunu tanıyırdı. Dostlarından biri də Nəriman Nərimanov idi. Həştərxanda eyni evdə yaşayırdılar. Nərimanov birinci, Ələsgər isə ailəsi ilə birlikdə ikinci mərtəbədə qalırdı.



Ələsgər Zeynalovun istəkli qızı bir gün əlini sinəsinə aparıb şikayətləndi: "Ata, ağrıyır..." Ələsgər uşağı ixtisasca həkim olan dostunun yanına göndərdi: "Get Nəriman əmi sənə baxsın" dedi. Leyla Nərimanovun yanına qaçdı. O, qızdan soruşdu: "Ağrı hardadır?" Leyla əlini köksündə gəzdirə-gəzdirə: "Burdadır, burdadır..." dedi. Nəriman Nərimanov qızın ərköyünlüyünə gülümsədi: "Yaxşı, nə vaxt bir yerində ağrı olsa, onda gələrsən".

Həştərxanda jandarmlar tez-tez şübhələndikləri evlərdə yoxlamalar keçirirdilər. Qəfil döyülən qapı səslərinə alışa bilmirdilər. Ona görə də yenə səksəndilər. Ancaq jandarmların gələcəyindən duyuq düşən inqilabçılar qadağan olunmuş kitabları, sənədləri dövrə vurub əyləşmiş qadınların paltarlarının uzun ətəklərinin altında gizlətmişdilər. Adətən jandarmlar qadınlara yaxınlaşmırdılar. Yenə otağa daxil oldular, qadınları görüb, çıxıb getdilər. Bununla da qadınlar inqilabçı ərlərini həbsdən xilas etdilər.

Artıq on yaşına çatmış Leyla da inqilabçıların köməkçisi idi. Şəhərdə barrikadalar qurulmuşdu. Leyla bütün günü ora-bura vurnuxurdu. Uşaq olduğundan jandarmların diqqətini cəlb etmirdi. Ona görə inqilabçılar məktublarını, sənədlərini ona verib, lazımi ünvanlara göndərirdilər.

Həştərxanda da günləri həyəcan içində keçirdi. Ancaq Bakıdan ayrılarkən gördüyü ürəkdağlayan mənzərələr gözlərinin önündən çəkilmirdi. Sonralar nə zaman ömrünün ilk çağlarını yada salsa da, erməni daşnaklarının Bakıda türklərə qənim kəsildikləri o faciəli günləri xatırlayacaqdı...



Bu qırğınlara, qovğalara qədər o, çox xoşbəxt uşaqlıq yaşayırdı. Ata-anasının tək övladı idi. Amma Leylanı əzizləyən yalnız valideynləri deyildi. Ona bu dünyadan gənc yaşında, nakam köçmüş bibisinin adı verilmişdi. Atasının da, üç əmisinin də sevimlisi idi Leyla.

1920-ci ildə Leylagil Bakıya qayıtdılar. On iki-on üç yaşlarında anasını itirdi. Anasının vəfatından sonra atası, əmiləri "qəlbi qırıqdı" deyib Leylaya daha çox qayğı, nəvaziş göstərdilər. İllər sonra Ələsgər Zeynalov yenidən evləndi. 1935-ci ildə bir oğlu da oldu.

Leyla onda artıq ailə qurmuşdu. Onu 1922-ci ildə, on dörd yaşı tamam olmamış əslən Kürdəxanıdan olan on doqquz yaşlı Bəhram Məmmədbəyova verdilər. Leyla Zeynalova soyadını ailə qurduqdan sonra dəyişdi, Məmmədbəyova oldu. İlk uşağı dünyaya gələndə Leylanın on altı yaşı vardı.

Bəhram Məmmədbəyov həm fəhlə işləyir, həm də təhsil alırdı. O, evliliklərinin ilk vaxtlarından Leylanı da oxumağa, işləməyə, ictimai həyatda fəal olmağa həvəsləndirirdi. Leyla Əbilov adına kluba getdi, orada təhsil almağa başladı.

İllər keçdikcə böyük hörmət qazanan, müxtəlif vəzifələrdə çalışan Bəhram Məmmədbəyov 1927-ci ildə Kommunist Partiyasının sıralarına daxil oldu. 1928-ci il idi. Kommunistlərə tapşırdılar ki, növbəti iclasa həyat yoldaşlarını da gətirsinlər. Bəhram Məmmədbəyov Leyla ilə birlikdə getdi. O vaxtlar çadrasını atan qadınların siyahısını tuturdular. İclas zalında çağırış etdilər. On doqquz yaşlı Leyla Məmmədbəyova çadrasını başından açsa da, atmadı. Qoltuğuna vurub evə gətirdi.

### Mavi səma ilə birinci görüş...

Bakının ortasında qadınlar çadrasını açdığına, çalışdığına görə ailəsindəki kişilər tərəfindən qətlə yetirilirdi. Leylanın isə taleyi üzünə gülmüşdü... Həyat yoldaşı Dəvəçidə işlədiyi



günlərdə də ona yazırdı: "Get işlə". Elə Bakı təyyarəçilər məktəbinə qəbul keçirildiyindən də o vaxtlar xəbər tutdu...

Bəhram Məmmədbəyov qapını açanda qarşısında kişi hərbi geyimində birini gördü. Əvvəl tanımadı. Sonra gülə-gülə dedi: "Afərin sənə, uç!"

Leyla Məmmədbəyova təyyarəçilər məktəbinə daxil olan 22 nəfərdən biri, həm də yeganə qadın idi. 1931-ci ildə ilk uçuşu oldu. O gün Bakı aeroklubunun kursantları uçuş meydanında sıralandılar. Bir neçə dəqiqə sonra Leyla artıq "U-1" təyyarəsində təcrübəli təlimatçı ilə birlikdə havaya qalxdı. İlk uçuşu uğurla başa vurdu. Həyəcan və sevinc içindəydi. Onu təbrik edir, tərifləyirdilər.

Hazırlıq üçün Moskvaya göndəriləndə Azərbaycanın ozamankı rəhbəri Mir Cəfər Bağırova "Uşağım balacadır" dedi. Bağırov dayə veriləcəyini söylədi. Belə də oldu.

1932-ci ildə Leyla Məmmədbəyova Moskvaya oxumağa getdi. Gərgin təhsil, təlim və uçuş günləri bir-birini əvəz edirdi. Leyla Məmmədbəyova tanınmış təyyarəçilərlə tanış oldu. "U-2" təyyarəsini idarə etməyi öyrəndi.

Ona xüsusi gözəllik verən uzun hörükləri vardı. Moskvada Tuşino aerodromunda təcrübə keçdiyi günlərdə Leylaya "Əsasnaməyə görə, təyyarəçi hörük gəzdirə bilməz" söylədilər. O, məsləhətləşmək üçün evə getdi. Bu xəbəri eşidəndə həyat yoldaşının da qanı qaraldı. Ancaq Leyla



hörüklərini kəsdirəndən sonra ona diqqətlə baxıb dedi: "Pis deyil".

1933-cü ildə aerodroma paraşütlər gətirilməsi əsl yenilik oldu. Leylanın sevincinin hədd-hüdudu yox idi. Həyat yoldaşı heç vaxt onun arzularına qarşı çıxmaz, əksinə, onu yeniliklərə ruhlandırardı. Ancaq paraşütdən tullanacağını deyəndə Leyla ilə ciddi mübahisə etdi, qışqırdı: "Bəsdir, uşaqları fikirləş".



Leyla hər dəfə təyyarədə uçanda həyat yoldaşı narahatlıq keçirir, nigaran qalırdı. Paraşüt məsələsi isə onu əməlli-başlı hövsələdən çıxartmışdı: "Sənə dedim, get oxu, işlə. Demədim ki, get göyə çıx. Gül kimi saçların vardı, onları da kəsib atdın, dillənmədim. İndi də paraşütdən tullanmaq istəyirsən. Birdən paraşüt açılmadı, göydən gəlib düşdün yerə..."

Həyat yoldaşını yaxşı başa düşürdü. Odur ki, dillənmədi. Amma qərarından da dönmədi. 1933-cü il martın 17-də SSRİ Osoaviaxim Mərkəzi uçuş-texniki məktəbində məşq zamanı Moskvanın Tuşino aerodromunda U-2 təyyarəsindən "PT-1" paraşütlə tullandı. Ona qədər Sovet İttifaqında 84 paraşütçü olmuşdu. Onların yalnız biri qadın idi. Təlimçi-pilot Leyla Məmmədbəyova Nina Kamnevadan sonra Sovet İttifaqında ikinci qadın paraşütçü oldu.

Böyük arzularla geri döndü. Ancaq tezliklə qanı qaraldı. Ona dedilər ki, sənə təyyarə verilməyəcək, get kitabxanada müdir ol. Etirazını Mir Cəfər Bağırova da bildirdi: "Mən iki uşağı burda qoydum, soyuqda getdim Moskvada oxudum, indi deyirlər, kitabxana müdiri olacaqsan". Bağırov onu dinlədikdən sonra "Yaxşı get" dedi. Məsələ bununla da həll olundu. Leyla Məmmədbəyovaya dərhal təyyarə verildi. İşə başladı.

O, bu işləri Bakıda hələ də qadınların çadranı atmasına, çalışmasına, ictimai işlərə qoşulmasına ailələrdə qadağalar qoyulduğu vaxtda edirdi. 1933-cü ilin yanvarında Əli Bayramov adına qadın klubunun ən fəal üzvlərindən biri, tikiş sexinin işçisi Səriyyə Xəlilovanın atası və qardaşı tərəfindən qətlə yetirilməsi çoxlarını sarsıtmışdı. Rejissor Mikayıl Mikayılov 1934-cü ildə iki gənc qadının - Leyla Məmmədbəyova və Səriyyə Xəlilovanın həyatından bəhs edən film çəkdi. "İsmət" adlı filmdə rejissor ümumiləşdirmə apararaq Azərbaycan qadınlarının taleyini əks etdirirdi.

1934-cü ildə Cənubi Qafqaz respublikaları arasında keçirilən paraşütçülərin yarışında Leyla Məmmədbəyova birinci yeri tutdu. 1935-ci ildə - Sovet Azərbaycanının 15 illiyində respublika nümayəndə heyətinin tərkibində Moskvaya getdi. Sovet Sosialist Respublikaları İttifaqı Mərkəzi İcraiyyə Komitəsinin (SSRİ MİK) sədri Mixail Kalinin ona "Şərəf nişanı" ordenini təqdim edəndə "Sizin peşəniz vacibdir, daha tez və yüksəkliyə uçmağınızı arzu edirəm" dedi.

### Son uçuş...

1930-cu illərin sonlarında Sovet hakimiyyətinin repressiya siyasəti Leyla Məmmədbəyovanı təlaşa saldı. Onun həyat yoldaşı Tiflisdə təhsil almış, sonralar müxtəlif yerlərdə bank müdiri vəzifəsində işləmişdi. 1937-ci ildə Bəhram Məmmədbəyovun partiya biletini aldılar. Bu, o vaxtlar çox ağır cəza idi. Partiya bileti alınanların sonu faciə ilə bitirdi. Bəhram dərhal Bağırovun qəbuluna getdi. Həmin vaxt evinə rayon partiya komitəsindən gəldilər. Leyla Məmmədbəyova onların "Ərin hanı?" sualına "Bağırovun qəbuluna getdi" cavabını verdi.

Bəhram Məmmədbəyovun partiya bileti alınandan sonra nə qohumlar, nə tanışlar qorxudan gözə görünmədilər. Leyla küçə ilə gedəndə yollarını dəyişir, səkinin o biri tərəfinə keçirdilər. Onları qınamırdı. Çox çətin dövr idi...

Leyla Məmmədbəyovanın atası fəhlə işləyirdi. Ələsgər Zeynalovun böyük vəzifəsi olmasa da, bir vaxtlar siyasi mübarizədə yoldaş olduqları insanlar hakimiyyətdə idilər və ona hörmət bəsləyirdilər. Mir Cəfər Bağırovla da Ələsgər Zeynalov köhnənin tanışları idilər.

...Mir Cəfər Bağırov Ələsgər Zeynalovun kürəkənini gecə saat 3-də qəbul etdi. Gəlişinin səbəbini soruşdu. Bəhram Məmmədbəyov:

- Məni partiyadan çıxarıblar, - dedi. - Məni düşmən sayırlar.

Bağırov soruşdu:

- Kim?

- Rayonun birinci katibi.

- Get evə.

Bəhram Məmmədbəyov evinə qayıtdı. Səhəri gün partiya biletini qaytardılar. O, Bağırovun qayınatasına hörməti sayəsində təhlükəli illərdən sağ-salamat qurtuldu.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda artıq aviasiya mayoru olan Leyla Məmmədbəyova dörd uşaq anası idi. Kiçik qızı elə həmin il dünyaya gəlmişdi. Leyla Məmmədbəyovanın müharibədə iştirakından uşaqları balaca olduğuna görə imtina edildi.

Bakı aeroklubu bağlandı. Leyla Məmmədbəyova yenə Mir Cəfər Bağırovun qəbuluna getdi. Ona işsiz qaldığını söylədi. Planer-paraşüt klubunun açılmasına nail oldu. Bakı aeroklubunda müəllim işləməyə başladı. Müharibə illərində yüzlərlə desant və dörd min paraşütçü hazırlayaraq cəbhəyə yolladı. Tələbələrinin ikisi - Adil Quliyev və Nikolay Şeverdyayev Sovet İttifaqı Qəhrəmanı oldu. İlk azərbaycanlı hərbi təyyarəçi qadın - Züleyxa Seyidməmmədova Leyla Məmmədbəyovadan ilham alaraq bu sənəti seçdi.

Ayağı xəstə olduğuna görə Bəhram Məmmədbəyov da müharibədə iştirak edə bilmədi. Onların böyük oğlu, on səkkiz yaşlı Firudbəy cəbhəyə getdi. Sonbeşikləri Xanlar isə illər sonra, qırx beş yaşında Birinci Qarabağ müharibəsində döyüşdü...



Leyla Məmmədbəyovanın müharibə dövründə və müharibədən sonrakı illərdə aldığı mükafatları arasında "Analıq medalı" da vardı. Buna altı uşaq böyüdüb tərbiyə etdiyinə görə layiq görüldü. Onun on uşağından dördü kiçik yaşlarında vəfat etdi. Altı uşağına - Firudbəy, Rüstəm, Elmira, Zemfira, Vaqif və Xanlara uzun ömür yaşamaq nəsib oldu.



Bəhram Məmmədbəyov insult keçirib, əlli iki yaşında dünyasını dəyişdi. Onda övladlarından dördü balacaydı. Xanların üç yaşı vardı. Ondan böyüklər səkkiz, on bir və on üç yaşlarındaydılar. Bəhramdan sonra evdə qulluqçuları da olmadı. Leyla Məmmədbəyova hər işi özü görürdü. Uşaqları ona kömək edirdilər. Övladlarından üçü gecə məktəbində oxuyurdu. On altı yaşından işləməyə gedirdilər.

Son uçuşu 1949-cu ildə oldu. Leyla Məmmədbəyova iyirmi il qulluq edəndən sonra təyyarəçi kimi təqaüdə çıxdı. Səmadan ayrılmaq onun üçün çətin idi. Amma həkimlər səhhəti üçün narahatlıqlarını bildirirdilər.

Ürəyindən şikayətlənirdi. Müayinə edən həkim ürəyində problem olmadığını bildirdi. Müalicə edildikdən sonra yavaş-yavaş sağaldı. Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətinin (ozamankı DOSAAF) Bakı komitəsinin sədr müavini işlədi. 1961-ci ildə təqaüdə çıxanda ilk qadın təyyarəçimizin qarşısına şərt qoyuldu. Leyla Məmmədbəyova həm təyyarəçi kimi məvacib, həm də çoxuşaqlı ana kimi təqaüd alırdı. Mülki təqaüdə göndəriləndə dedilər ki, bunlardan biri olmalıdır. O vaxt aldığı pul lap azaldı, 60 rubl oldu. Onda sonbeşiyinin on iki yaşı var idi. Ailə vəziyyətləri çətin olduğundan Leyla Məmmədbəyovanın uşaqlarından təkcə Xanlar orta məktəbi bitirə bildi.

Leyla Məmmədbəyova 1989-cu ilin iyulunda, səksən yaşı tamam olmamış dünyasını dəyişdi. Bütün SSRİ-də məşhur olan, adına şeirlər yazılan, film çəkilən ilk qadın təyyarəçimiz haqqında qəzetlərdə nekroloq belə dərc olunmasa da, Leyla Məmmədbəyovanın adı Azərbaycan tarixində yeri unudulmazların sırasındadır.

Oğlu Xanlar Məmmədbəyov bizə anasının keçdiyi enişli-yoxuşlu, mübarizələri heç bitməyən ömür yolundan gah kövrələ-kövrələ, gah da təbəssümlə bu əminliyin fərəhi və qüruru ilə danışırdı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Kinomuzun ilk qadın aktrisası

**Ölkəmizə ilk səsli kinonu böyük dramaturq Cəfər Cabbarlı özünün "Sevil"i ilə gətirdi və baş qəhrəman roluna çox gənc bir qızı - İzzət Orucovanı çəkdi.**



Beləliklə, İzzət Orucova ilk səsli Azərbaycan kinosunda rol aldı. O, ilk azərbaycanlı qızı olaraq, "Sevil" və "Almaz" filmlərində baş rollarda çəkilib, azadlığa çıxan Azərbaycan qadınının lirik, canlı obrazını yaratmağa müvəffəq olub. AZƏRTAC xəbər verir ki, İzzət Orucovanın anadan olmasından 115 il ötür.

Bu qadın Azərbaycanın ilk kino aktyoru olmaqla yanaşı, həm də ikinci xanım akademikidir. İlk xanım akademikimiz Validə Tutayuq 1968-ci ildə AMEA-nın həqiqi üzvü seçilib. Ondan 4 il sonra İzzət xanım da bu ali elmi dərəcəyə layiq görülüb. Kimyaçı akademikin həyatı həm də müəyyən dərəcədə acılarla, məşəqqətli günlərlə dolu olub.

İzzət Orucova öz aktrisalıq karyerasını və "Sevil" filminin çəkilişlərində Cəfər Cabbarlının rejissorluq fəaliyyətini belə xatırlayırdı: "Cəfər çox tələbkar idi. Bəyənmədiyi kadrların dəfələrlə yenidən çəkilməsinə israr edərdi. Məsələn, Sevilin çarşabını başından atması epizodu bir neçə dəfə təkrar çəkildi, amma bu səhnə yenə də Cəfərin xoşuna gəlmədi. O, hər dəfə əllərini bir-birinə vurub deyərdi: "Yox, İzzət, olmadı. Çarşabı başından atmağın çox süni çıxır. Əsərin kulminasiya nöqtəsi də elə buradır. Sən çarşabı başından elə atmalısan ki, bu səhnə tamaşaçıda cəhalətin və mövhumatın qara pərdəsi olan çarşaba nifrət və qəzəb oyatsın". Nəhayət, "Sevil" filminin çəkilişi tamamlandı. Film 1929-cu ildə ekranlara buraxıldı. Həmin gün anam da, qohumlarımın çoxu da filmə baxmağa gəlmişdilər. Hamının biletini Cəfər Cabbarlı özü almışdı. Həmin gün çoxlu azərbaycanlı qadın öz çarşabını həmişəlik tulladı. O gün çarşabını atanlardan biri də mənim anam idi".



İzzət Orucova o zaman 20 yaşında, gənc bir xanım idi. Onu təsadüfən görən Cəfər Cabbarlı çoxdan bəri axtardığını tapdığı üçün sevinib. Kinoşünas Aydın Kazımzadə xatirələrində həmin hadisəni bu cür nəql edir: "Sevil" filmi istehsalata buraxılanda Cəfər Cabbarlı küçəbəküçə gəzib Sevil roluna qız axtarıb. Günlərin birində o, "Təyyarə" kinoteatrında bu qızla rastlaşıb. Qızın xarici görünüşündə Sevil obrazının cizgilərini görüb. Tanımadığı qızın arxasınca düşüb, harada yaşadığını müəyyənləşdirib. İsmayıl Hidayətzadəni götürüb onlara gedib. Atası, qardaşları heç cür onun filmdə çəkilməsinə, şübhəsiz, razı olmurlar. Düzdür, o zamanlar aktrisalar ilk addımlarını atmağa başlamışdılar, amma İzzət aktrisa deyildi. Ürəyindən olsa da, özü xəbərsiz çəkilməyə qorxurdu. Amma Cəfər Cabbarlı da Cəfər Cabbarlı idi... Cavan olsa da, onun ilanı yuvasından çıxaran şirin dili vardı. Çox gəlib-gedəndən sonra ailənin razılığını alıb. O, bir şərtlə razılıq alıb ki, hər gün qızı faytonla evindən götürüb məşqə aparacaq və faytonla da geri gətirəcəkdi".

Həmin filmdə başqa maraqlı hadisələr də yaşanıb. Cəfər Cabbarlı çəkiliş zamanı hər an, hər dəqiqə İzzətin yanında olub. Xoşbəxtlikdən bu filmin bütün çəkilişləri C.Cabbarlının iştirakı ilə baş verib. Bəzi epizodlar barədə İzzət xanım öz xatirələrində yazıb və insanlara da danışıb. Çəkilişdə hətta elə anlar olurmuş ki, İzzət xanımı öyrətmək üçün Cəfər Cabbarlı çadranı öz başından açıb onu Balaşın sifətinə çırpırmış... Cəfər Cabbarlı dediyi sözə əməl edib. Hər gün İzzəti faytonla evdən götürüb, axşam da ailəsinə təhvil verib. Film çəkilib və ekranlara çıxanda böyük uğur qazanıb. Bundan ruhlanan Cəfər Cabbarlı "Almaz"ın da ssenarisini yazıb. Baş rola da yenə İzzət xanımı təsdiq etdirib. Amma amansız ölüm böyük sənətkarı aramızdan tez aparıb. Filmin çəkilişlərini onun həmkarları - Ağarza Quliyev və Braginski davam etdiriblər. Ölümünün birilliyində film ekranlara çıxıb.

O zaman aktyor sənətinə qəti aid olmayan bir xanım "Sevil" və "Almaz" filmlərində uğur qazanmasından sonra ulduzu parlasa da, çox keçmədən sənət karyerasını başa vurmalı olub.

İzzət Orucova 1932-1959-cu illərdə V.Kuybışev adına Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutunda işləyib, 1959-1967-ci illərdə həmin institutun əsasında yaradılan Neft-Kimya Prosesləri İnstitutunun laboratoriya müdiri, 1967-1997-ci illərdə Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun direktoru, 1971-1983-cü illərdə isə Aşqarlar Kimyası İnstitutunda motor yağları üçün aşqar kompozisiyaları hazırlama laboratoriyasının müdiri vəzifələrində çalışıb.

1972-ci ildə İzzət Orucovanın elmdə ən yüksək elmi dərəcə - akademik adını alması həqiqətən də çoxlarının təəccübünə səbəb olub. 1970-ci ildə İzzət Orucova elmi fəaliyyətinə görə Azərbaycan Dövlət Mükafatına layiq görülüb, bir sıra orden və medallarla təltif edilib, o cümlədən dörd dəfə deputat seçilib.

Akademik İzzət Orucova Kanada, Almaniya, Macarıstan, Portuqaliya kimi ölkələrdə Azərbaycanın kimya elmini yüksək səviyyədə təmsil edib. Akademikin ictimai fəaliyyət dairəsi də geniş olub. O, Azərbaycan-Almaniya dostluq cəmiyyətinin sədri, Azərbaycan Sovet Ensiklopediyası baş redaksiya heyətinin üzvü olub. O, dövrünün ən nüfuzlu ordenləri və bir sıra medalları ilə təltif edilib.

İzzət Orucova 1983-cü il aprelin 22-də 73 yaşında dünyasını dəyişib. Amma o, yaratdığı rollar, yazdığı elmi əsərlərlə mənsub olduğu millətin tarixində əbədiyaşarlıq qazanıb.

# "Azərenerji" gələcəyin enerji sisteminin idarə edilməsi üçün islahatlara başladı

## İşə nüfuzlu beynəlxalq məsləhətçilər də cəlb olunub

**Prezident İlham Əliyevin "Yaşıl enerji" mənbələrinin əhatəsinin genişləndirilməsi və 2030-cu ilə qədər enerjisistemdə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması ilə bağlı strategiyasına uyğun olaraq "Azərenerji" kompleks tədbirlər planının icrasına başlayıb.**




"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, 2028-ci ilə qədər günəş və külək-elektrik stansiyalarının gücünün 1850 meqavata çatdırılması planlaşdırılır. Bu isə enerji sistemində "yaşıl enerji" istehlakının ilin fəsillərinə uyğun olaraq bəzi hallarda 30-60 faizə çatması deməkdir. Nəzərə alınsa ki, günəş, o cümlədən külək-elektrik stansiyalarının istehsalı sırf təbii faktorlarla, yəni havanın günəşli və ya küləkli olub-olmamasıyla bağlıdır, onda 1850 meqavat bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası zamanı dayanıqlılığın və etibarlılığın qorunması, ölkədə enerji istehsalı gücünün sabit saxlanılıb, tələbatın davamlı olaraq təmin edilməsi olduqca əhəmiyyətli məsələdir.

Məhz gələcəkdə enerji sistemində kataklizmlərin yaranmaması üçün indidən başlayaraq "Azərenerji" ABŞ və Türkiyə beynəlxalq texniki məsləhətçi şirkətlərinin təhlilləri əsasında 1850 meqavat "yaşıl enerji"nin enerji sisteminə inteqrasiyası ilə əlaqədar kompleks tədbirlərin icrasını həyata keçirir. Belə ki, ənənəvi elektrik stansiyalarının tənzimləmə sistemlərinin optimallaşdırılması ilə tezliyin avtomatik tənzimlənməsində iştirak üçün işlər icra edilməklə yanaşı, "Azərenerji" tərəfindən istifadə olunan SCADA sistemində yenilənmələr aparılır. Bu məqsədlə yerli mütəxəssislərin hazırlanması üçün xarici mütəxəssislər dəvət edilir, xüsusi kurslar təşkil olunur. Eyni zamanda "SIEMENS", "General Electric", "MITSUBISHI", "Wartsila" və "EMERSON" şirkətləri ilə birlikdə "Sumqayıt", "Cənub", "Şimal", "Qobu" elektrik stansiyalarında tələb olunan tədbirlər icra edilir. WAMS/WACS tətbiqi ilə monitorinq və nəzarət sistemləri gücləndirilir.

Paralel olaraq "Azərenerji" ASC 250 meqavat gücündə batareya saxlanc sisteminin quraşdırılmasına dair texniki məsləhətçi şirkət üzrə beynəlxalq tender elan edib. Eyni zamanda bu günlərdə, SCADA və WAMS/WACS monitorinq və nəzarət sistemlərinin tətbiqi üzrə məsləhətçi xidmətlər və layihələndirməyə dair yeni beynəlxalq tender elan olunması nəzərdə tutulur.

Bütün bu tədbirlər 1850 meqavat gücündə günəş və külək-elektrik stansiyalarının enerji sisteminə inteqrasiyasında xüsusi rol oynamaqla yanaşı, enerji sistemində "yaşıl enerji" payının ən üst səviyyəyə çıxmasına əlavə töhfə verəcək və enerji sisteminin dayanıqlılığını və etibarlılığını təmin edəcək.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.09.2024-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# "Nizami günləri" layihəsinin bağlanış mərasimi keçirilib

Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş "Nizami günləri" layihəsinin təntənəli bağlanış mərasimi keçirilib.




AZƏRTAC xəbər verir ki, sentyabrın 11-15-də keçirilən layihənin sonuncu günü Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təqdimatında Nizami məqbərəsinin önündə görkəmli bəstəkar, Xalq artisti Əfrasiyab Bədəlbəylinin "Nizami" operası nümayiş etdirilib.

Tamaşanın bədii rəhbəri Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli çıxış edərək "Nizami günləri" layihəsini yüksək qiymətləndirib, layihənin nəinki Gəncə, ölkəmiz üçün mədəni hadisəyə çevrildiyini vurğulayıb.

"Nizami" operasında Əməkdar artistlər Ramil Qasımov (Nizami), İnarə Babayeva (Rəna), Tural Ağasıyev (Lal), solistlər Mahir Tağızadə (Atabəy), Taleh Yahyayev (Qızıl Arslan), Elmir Rüstəmov (Sərkərdə) çıxış ediblər.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva, dirijoru Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu baletmeysteri Əməkdar artist Yuriy Lobaçevdir.

Beş gün davam edən "Nizami günləri" layihəsi möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

# Bakı hava limanı Karbon Akkreditasiyası (ACA) proqramı çərçivəsində 2-ci səviyyəyə nail olub

Heydər Əliyev Beynəlxalq Aeroportu qlobal Hava Limanı Karbon Akkreditasiyası (ACA) proqramı çərçivəsində 2-ci Səviyyə ("Reduction") sertifikatına layiq görülüb. Bakı hava limanından AZƏRTAC-a bildirilib ki, bu akkreditasiya son üç ildə karbon tullantılarının azaldılmasını təsdiq edərək Heydər Əliyev Beynəlxalq Aeroportunun dayanıqlı inkişaf və iqlim dəyişikliyinin təsirinin azaldılması üzrə strateji addımını nümayiş etdirir.

ACA proqramı Beynəlxalq Hava Limanları Şurası (ACI) tərəfindən yaradılıb və hava limanlarında karbon tullantılarının azaldılmasına yönəlmiş yeganə ixtisaslaşmış proqramdır. Bakı hava limanı ilkin mərhələni ("Mapping") tamamlayaraq 2-ci Səviyyəyə ("Reduction") nail olub və su təchizatı, istilik, havalandırma, işıqlandırma və kondisionerləşdirmə sistemlərinin modernləşdirilməsini uğurla həyata keçirib. Bu tədbirlər R-22 soyuducusunun və civə buxarının istifadəsini aradan qaldıraraq karbon izinin daha da azaldılmasına töhfə verib.

"Heydər Əliyev Beynəlxalq Aeroportunun Azərbaycanın ən işlək hava limanı olaraq, ölkədə ilk dəfə birbaşa 2-ci səviyyə "Azaltma" ("Reduction") üzrə ACA akkreditasiyasını alması qürurverici bir hadisədir. Qarşıdan gələn COP29 konfransının nümayəndələrinin əsas gəliş məntəqəsi olaraq, bu akkreditasiya hava limanı sənayesinin iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq üçün dünya miqyasında göstərdiyi davamlı səyləri əks etdirir. Birbaşa 2-ci səviyyədə sertifikatlaşdırma o deməkdir ki, hava limanı 1-ci və 2-ci kateqoriyalar üzrə tullantıların azaldılması üzərində fəal işləyir və hava nəqliyyatının dayanıqlı gələcəyinə töhfə verir. Bu mühüm nailiyyətə görə bütün komandaya əhsən", - Avropa Hava Limanları Şurasının (ACI Europe) baş direktoru Olivye Yankovets bildirib.

"Heydər Əliyev Beynəlxalq Aeroportu fəaliyyətinin ətraf mühitə minimal təsir göstərməsinə və belə bir hal baş verərsə, onun nəticələrinin minimuma endirilməsinə çalışır. ACA proqramının əsas prinsiplərinə uyğun olaraq, ekoloji təşəbbüsləri inkişaf etdirmək və qlobal davamlılıq məqsədlərinə töhfə verməklə daha yüksək karbon akkreditasiyası səviyyəsinə nail olmaq niyyətindəyik", - deyə Heydər Əliyev Beynəlxalq Aeroportunun direktoru Teymur Həsənov vurğulayıb.

Hava limanının cari dayanıqlı inkişaf hədəflərinə karbon akkreditasiyası üzrə 3-cü Səviyyəyə ("Optimisation") yüksəlmək daxildir. Bu mərhələ karbon tullantılarının optimallaşdırılması və bütün maraqlı tərəflərlə fəal əməkdaşlığı nəzərdə tutur.

Qeyd edək ki, ACA proqramı hava limanlarının karbon tullantılarını idarəetmə və azaltma səylərini yeddi sertifikatlaşdırma səviyyəsi vasitəsilə qiymətləndirir və tanıyır: "Xəritəçəkmə" ("Mapping"), "Azaltma" ("Reduction"), "Optimallaşdırma" ("Optimisation"), "Neytrallıq" ("Neutrality"), "Transformasiya" ("Transformation"), "Keçid" ("Transition") və 5-ci Səviyyə ("Level 5").

# Donald Trampa qarşı sui-qəsd cəhdi araşdırılır

**ABŞ-nin sabiq prezidenti Donald Trampın olduğu "Trump International Golf Club" qolf klubunda atışma baş verib. Şübhəli şəxsin tutulduğu bildirilir. Ölkənin Məxfi Xidməti əməkdaşının silahlı şəxsə atəş açmasına yerli asayiş keşikçiləri aydınlıq gətiriblər.**



Palm Biç rayonunun şerifi Rik Bredşou deyib ki, şübhəlinin gizlənməyə çalışdığı qolf klubunun yaxınlığındakı kolluqlarda teleskopik nişangahı olan AK-47 avtomatı, keramika lövhələri olan iki çanta və hərəkət kamerası tapılıb.

Məlumata görə, şahidlərin köməyi ilə 58 yaşlı Rayan Uesli Rut adlı şübhəli şəxs təhlükəsizlik əməkdaşları tərəfindən saxlanılıb. O, Havay adaları sakinidir.

ABŞ Federal Təhqiqatlar Bürosu atışma ilə bağlı araşdırma apardığını və insidenti Donald Trampa qarşı mümkün sui-qəsd cəhdi kimi qiymətləndirdiyini bildirib.

Hadisənin baş verdiyi Florida ştatının qubernatoru Ron DeSantis bildirib ki, siyasətçinin qolf klubunun yerləşdiyi məkanda hakimiyyət orqanları ABŞ prezidentliyinə namizədə qarşı sui-qəsd cəhdinin təfərrüatları ilə bağlı öz araşdırmalarını aparacaq. Onun sözlərinə görə, xalq şübhəli şəxs haqqında "həqiqəti bilməyə layiqdir" və təcavüzkarın ABŞ prezidentliyinə namizədin 460 metr yaxınına necə gəldiyi öyrənilməlidir.

ABC telekanalı öz mənbələrinə istinadən xəbər verir ki, istintaqı aparan hüquq-mühafizə orqanlarının əməkdaşları respublikaçının Ukraynadakı münaqişə ilə bağlı mövqeyinin sui-qəsd cəhdi üçün əsas ola biləcəyi mülahizəsi üzərində də işləyirlər. Onun sözlərinə görə, səlahiyyətlilər şübhəli 58 yaşlı Rayan Uesli Rutun Ukraynadakı münaqişə mövzusu ilə bağlı, xüsusən də Trampın bu məsələdə mövqeyindən hər hansı şikayətinin olub-olmadığını araşdırırlar.

Bundan əvvəl "The New York Post" qəzeti Rutun Ukraynaya səfər etdiyini və Kiyev hakimiyyətini dəstəklədiyini yazıb. Nəşrin qeyd etdiyinə görə, o, Əfqanıstandakı münaqişənin amerikalı veteranlarını Ukraynaya göndərmək ideyasını irəli sürməyə çalışıb, həmçinin Kiyevin tərəfində döyüşmək arzusunu bildirib.

Öz növbəsində "MSN News" portalı xəbər verir ki, Rut, təsdiqlənməmiş məlumatlara görə, Ukrayna üçün vəsaitin toplanmasında da iştirak edib. Donald Tramp iddia edilən sui-qəsd cəhdindən sonra ABŞ Məxfi Xidmətinə və Amerika polisinə minnətdarlığını bildirib. Bu arada İsrailin baş naziri Benyamin Netanyahu ABŞ prezidentliyinə namizədə qarşı sui-qəsd cəhdindən sonra onu "bəxtinə güvənməməyə" çağırıb. O, Vaşinqtonun Trampın təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirləri görəcəyinə ümid etdiyini bildirib.

Macarıstanın baş naziri Viktor Orban da öz növbəsində amerikalı siyasətçinin mümkün sui-qəsd cəhdindən sonra təhlükə qarşısında olduğu fikrini bildirib.

Xatırladaq ki, iyulun 13-də də Tramp Pensilvaniya ştatında seçki kampaniyası mitinqində sui-qəsdə məruz qalmışdı. O, qulağından yaralanmışdı.

İddia edilən yeni sui-qəsd cəhdindən sonra verdiyi ilk açıqlamada Donald Tramp deyib ki, heç nə ona mane olmayacaq və ya geri çəkilməyə məcbur etməyəcək:

"Mənim yaxınlığımda atəşlər açıldı, lakin şayiələr nəzarətdən çıxmazdan əvvəl bunu eşitmənizi istərdim: Mən sağ və salamatam! Məni heç nə dayandıra bilməz. Mən heç vaxt təslim olmayacam! Məni dəstəklədiyiniz üçün sizi həmişə sevəcəyəm".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Göyçay şəhər Akademik Z.Bünyadov adına 3 saylı tam orta məktəb tərəfindən Gülər Şərif qızı Cəbiyevanın adına verilmiş orta təhsil haqqında AN 067864 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi araşdırmaçı-filoloq Azad Ağaoğluya atası

**SABİR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları şöbə müdirinin müavini Samir Məmmədova əzizi

**RAFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi konfederasiyanın Gəncə şəhəri üzrə nümayəndəsi

**AFİNA BABAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Ümumi şöbəsinin müdiri Asəf Həsənova əzizi

**XALİD ƏLİMƏRDANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ənvər Seyidov ailəsi ilə birlikdə Ramiz və Fikrət Zeynalovlara qardaşları

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4204
Sifariş 2113

**Qiyməti 60 qəpik**